# MÜSƏLMANSANSA, BİLMƏLİSƏN!

Tbilisi 2022

*Kitab pulsuz paylanır*

***Müsəlmansansa, bilməlisən!***

*Hazırlayan:*
**Hacı Ramin İGİDOV**

*Redaktor:*
**Əziz DƏLİVƏLLİ**

*Dizayn:*
**Elvin BAYRAMOV**

**2022**

***© Gürcüstan Müsəlmanları İdarəsi***

***VIII ÇAP***

# MÜQƏDDİMƏ

Əsrlər boyu insanların xaliqi olan Allah tərəfindən onların hidayəti üçün müəyyən şəxslər göndərilmiş və bəşər övladına insaniyyət yolunu göstərmək, onların yatmış fitrətini oyatmaq üçün məmur edilmişlər. Həzrət Adəm, Musa, Nuh, İbrahim, İsa, Mühəmməd (səlləllahu ələyhi və Alihi və səlləm) və s.. kimi peyğəmbərlər bu qəbildən olan ilahi elçilərdir.

İnsanın yaranması ilə başlanan peyğəmbərlər silsiləsi İslam dininin banisi həzrət Mühəmmədlə (s) sona yetmişdir.

Həzrət Mühəmmədin (s) gətirdiyi din özündən öncə gəlmiş şəriətlərdən fərqli olaraq müvəqqəti və ötəri bir dövran üçün deyil, dünyanın sonunadək qalan müddət üçün nəzərdə tutulmuşdur.

İslam dininin dəyərli göstəriş və təlimləri sair din və şəriətlərdən daha kamil olub insanların irqindən, milliyyətindən və mədəniyyətindən asılı olmayaraq hamı üçün Qiyamətə qədər qayıdış yeri olacaqdır.

Bu gün müxtəlif xalqlar və məktəblərdən olan insanların böyük şövqlə müqəddəs İslam dininə üz tutub gəlməsi bizim sözümüzə canlı sübutdur.

İnsanlara gəldikdikdə isə deməliyik ki, onları din və mənəviyyatdan ayrı saxlamaq susuz insanı sərin sudan ayırmaq qədər əsassız bir işdir.

Beləliklə, susuz insan necə olursa-olsun özünü suya çatdırıb ondan bəhrələnəcəyi kimi, din və mənəviyyatdan ayrı saxlanılan insan da bir gün məhdudiyyətlərdən azad olub, ona üz gətirəcəkdir. Çünki mənəviyyat insan həyatını təşkil edən əsas amillərdən biri sayılır və heç vaxt onu insan həyatından ayırmaq mümkün deyildir.

Bir çox müsəlman ölkələrinə hakim olan ateist əhval ruhiyyəsi 75 ilə yaxın ömür sürə bilsə də dağılıb aradan gedən kimi müsəlman xalqlarının bir daha böyük həvəslə İslam dininə üz gətirməsinin şahidi olduq.

Əziz müsəlman bacı və qardaşlar sizə təqdim etdiyimiz bu kitabçada hər bir müsəlmanın bilməsi və əməli şəkildə həyata keçirməsi vacib olan məsələləri qısa şəkildə nəzərinizə çatdırırıq.

Təbiidir  ki, kamil dinimiz olan İslamın dəyərlərini, əsaslarını və onun göstərişlərini dərindən öyrənmək üçün bu kitabça kifayət deyildir. İslamın üsul və hökmlərini ayrıca geniş şəkildə qeyd etmək istəsək, hər biri cildlərlə qalın kitab  həcmində olar.

Bu kitabçanı tərtib etməkdə ümdə məqsədimiz 75 ilə yaxın dini biliklərdən uzaq düşmüş müsəlman cəmiyyətimizi dinin əsasları, vacib və haramları ilə tanış etməkdir. Ümidvarıq Tanrının köməyi sayəsində bu həcmcə kiçik olan kitabça dinimiz islamın göstərişlərindən qısa məlumat verməklə yanaşı xalqımızı islamı dərindən öyrənməyə və ona əməl etməyə istiqamətləndirəcəkdir. İnşəallah.

# Din

Din insanların bu dünyada yaxşı yaşayış və axirət evində əbədi səadəti üçün Allah tərəfindən təqdim olunmuş kamil proqramdır. Şübhəsiz ki, insanların hidayəti (doğru yola sövqü) və xoşbəxtliyi üçün ən kamil proqram İslam peyğəmbəri (s) vasitəsilə hədiyyə olunmuşdur. Bu proqram insanı varlıq aləminin həqiqətləri ilə tanış edir.

Din və Allaha iman problemlərlə qarşılaşmış insan üçün ən etibarlı sığınacaqdır. İnsana izzət və böyüklük verən din və imandır. İslamın dini proqramlarından daha yaxşı və daha çox istifadə etmək istiqamətində ilk addım bu proqramlarla kamil şəkildə tanış olmaqdır.

İslam dini elm və təhsilə xüsusi əhəmiyyət verir. Hər bir müsəlman dindarlıqla yanaşı agah və mərifət sahibi olmalıdır. Qurani-məcid qısa və mənalı bir cümlədə buyurur: "Kor və cahil insan görən və agah insanla birdirmi?!" (Surə 6, "Ənam", ayə 50)

İmam Sadiq (ə) buyurur: "Dini məsələlərin dərkində dərinə varın. Dində dərinliyə varmayan və onu anlamaq üçün çalışmayan kəs bədəvi ərəblər kimi qalacaq."

# MÜSƏLMANLIĞIN İLK ŞƏRTİ

Müsəlmanlığın ilk şərti «Kəlimeyi şəhadət» (sözün mənasını düşünərək) deməkdir.

**«KƏLİMEYİ ŞƏHADƏT»** belədir:
Əşhədu əlla ilahə illəllah
Əşhədu ənnə Muhəmmədən rəsulullah
Əşhədu ənnə Əliyyən vəliyullah

Tərcüməsi:
*Şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud yoxdur.*
*Şəhadət verirəm ki, Həzrət Məhəmməd (s) Allahın rəsulu və elçisidir.*
*Şəhadət verirəm ki, Əli (ə) Allahın vəlisidir.*

***İnsanların dünya və axirət səadətinə zəmanət verən və onları bütün bədbəxtlik və çirkinliklərdən uzaqlaşdıran müqəddəs İslam dininin qanunları üç hissədən ibarətdir:***

**1.(USULİ-DİN)** Əqidələr, inamlar.

Hər bir müsəlman, müvafiq sübutlara əsaslanaraq dinimizin üsulu sayılan 5 əqidəyə (1-Tövhid, 2- Ədl, 3- Nübuvvət, 4- İmamət və 5- Məad) inanmalıdır. Bu inam və etiqadda başqalarından itaət etməməlidir.

**2.(FİRUİ-DİN)** İbadətlər, əməllər.

Müsəlman əqidəli olan hər bir kəs İslamda vacib olan hökmlərə (Firu-dinə) əməl etməlidir. İslamın zəruri hökmləri bunlardir:

1-Namaz, 2- Oruc, 3-Xums, 4-Zəkat, 5-Həcc, 6-Cihad, 7- Yaxşılığa əmr etmə, 8- Pislikdən çəkindirmə, 9-Təvəlla, 10- Təbərra.

Bundan əlavə Müsəlmanın yerinə yetirəcəyi hər bir işin müqəddəs İslam dinində özünəməxsus hökmü vardır. Bu hökümlər 5 qismə bölünür:

• «VACİB» - Görülməsi lazım olan, tərk olunması isə Qiyamətdə İlahi əzaba səbəb olan əməldir. Məsələn namaz, oruc, və s…

• «MÜSTƏHƏB» - Görülməsi yaxşı və savablı olan, tərk edilməsi isə Qiyamət əzabına səbəb olmayan əməldir. Məsələn salam vermək, sədəqə vermək və s…

• «HARAM» - Tərk edilməsi vacib, görülməsi isə Qiyamət əzabına səbəb olan əməldir. Məsələn: Zülm etmək, Şərab içmək və …

• «MƏKRUH» - Tərk edilməsi yaxşı və savablı, görülməsi isə Qiyamət əzabına səbəb olmayan əməldir. Məsələn: Məsciddə yatmaq və s…

• «MÜBAH» - Görülməsi və tərk edilməsi eyni səviyyədə olan əməldir. Bu kimi işlərin öz-özlüyündə savabı yoxdur və Qiyamətdə də əzaba səbəb olmaz. Məsələn: Su içmək, yol getmək, və s…

Amma mübah işdə də (Allahın razılığı əldə olsun deyə) niyyət edib savab qazanmaq olar. Məsələn: «Bu suyu içirəm ki, ibadət etməyə qüdrətli olum» deyə su içərsə bu savab sayılacaqdır.

3.(**ƏXLAQ**) Mənəvi əxlaqlar, ictimai münasibətlər.

İslamın üçüncü hissəsi mənəvi ruh yüksəkliyi və din əxlaqıdır. Bu müqəddəs din insanları yüksək və təmiz ruha malik olmağa dəvət etməklə yanaşı bütün çirkin əxlaqları, Günah saymaqla qadağan etmişdir.

- **Əxlaqi günahlar (həcmcə) bunlardır:**

**1-«BÖYÜK GÜNAHLAR»** - Cəhənnəm əzabına səbəb olan günahlar. Məsələn: Yalan danışmaq, Zina etmək və s…

**2-«KİÇİK GÜNAHLAR»** - Bu günahlar da israr olunarsa və çox təkrar olarsa böyük günah hesabında olur.

- **Əxlaqi günahlar (hüquqi cəhətdən) bunlardır:**

**1-«ALLAHIN HAQQİ»** (Haqqul-lah) Allahın əmr etdiyi işləri yerinə yetirməmək, qadağan etdiklərinə əməl etmək. Məsələn: Namaz qılmamaq, ibadətdə riya etmək.

**2-«İNSANIN HAQQİ»** (Həqqun-nas) Bu günahlara İctimai günahlar da demək olar. Çünki bu günah başqasının haqqını tapdalamaqla və başqasına zülm etməklə olur. Məsələn: Qeybət etmək – başqasının dalıyca danışmaq, bir şəxsi məsxərə etmək, birini aldatmaq və s…

# USULİ-DİN (DİNİN ÜSULLARI)

## 1. TÖVHİD

«Tövhid» Allahı zatında və sifətlərində yeganə bilmək və ona şərik qoşmamaq deməkdir.

Hər bir müsəlman göylərin, yerin və bütün yaradılışın hikmətli və yeganə Allahın vasitəsi ilə yarandığına etiqad bəsləməlidir.

Ağıllı olan hər bir insanın ağlı qəti şəkildə hökm edir ki, aləmdə olan bütün nizam-intizamlar hikmətli və qadir bir xaliq olmadan yarana bilməz.

Məsələn: Biz yeni bir binanı görəndə onun tikilməsində iştirak edən bir neçə bənna, mühəndis və fəhləni, eyni zamanda onların bu binanın inşasında

çəkdiyi zəhmətləri öyrənirik. Bu binanın öz-özünə və səbəbsiz olaraq tikilməsini heç bir zaman qəbul etmərik.

Deməli, əgər biz bu kiçiklikdə binanın yaradanı olmadan yaranmasına inanmırıqsa bu böyüklükdə aləmdəki, günəşin, ayın, ulduzların, bitki və canlıların, dəniz və okeanların yaradanına necə biganə qala bilərik?

**Tövhid (İxlas) surəsinin tərcüməsi**

1. (Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: (Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur).

2. Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır! O, əzəlidir, əbədidir!)

3. O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!)

4. Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!

# TÖVHİDİN QİSMLƏRİ

Qurani-Məciddən belə ələ gəlir ki, "Tövhid"i doqquz qismə bölmək olar.

***1.*** **Tövhidi zati,** Allah birdir ("Həcc" surəsi, 34-cü ayə)

***2.*** **Tövhidi sifati,** Mənaca fərq etməsinə baxmayaraq, Allahın bütün sifətlərinin yalnız bir misdaqı var. O da Allahdır. ("İxlas" surəsi)

***3-4.*** **Tövhidi hakimiyyət və Tövhidi təşriyi.**

Bütün varlığa Allah hakimdir ("Yusif" surəsi, 40-cı ayə)

***5. Tövhidi Xaliqi***

Yaradan fəqət Allahdır. ("Rum" surəsi, 20-ci ayə)

***6. Tövhidi rububi və ya tədbiri.***

Bütün varlığın tədbir tökəni və idarə edəni yalnız Allahdır! ("Ə'raf" surəsi, 54-cü ayə)

***7. Tövhidi itaət***

Yalnız Allahdan və Onun hökmündən itaət etmək! ("Maidə" surəsi, 92-ci ayə)

***8. Tövhidi ibadi***

Yalnız Allaha ibadət etmək lazımdır!

(“Nisa surəsi, 36-cı ayə)

***9. Tövhidi şəfaət və məğfirət***

Yalnız Allah şəfaət edən və Onun icazəsi ilə şəfaət və bağışlanmaq vardır.

## ALLAHIN SİFƏTLƏRİ

**1. Sübuti sifətlər:** (Cəmal sifətlər) Allahın zatında olan sifətlər.

**2. Səlbi sifətlər:** (Cəlal sifətlər) Allahın onlardan pak olduğu sifətlər.

**Sübuti sifətlər**

1) Alim: Yəni Allah alimdir və hər şeyi bilir.

2) Qadir: Yəni Allah qadirdir və hər şeyə qüdrəti çatır.

3) Həyy: Yəni Allah diridir.

4) Murid: Yəni Allah iradə sahibidir. Öz işlərində məcbur deyil.

5) Müdrik: Yəni Allah hər bir şeyi dərk edib anlayandır.

6) Qədim və əzəli: Yəni Allah həmişə olub və hər zaman olacaqdır. Onun vücudu özündən olduğundan başlanğıcı və sonu yoxdur.

7) Mütəkəllim: Yəni Allah səs dalğalarını havada icad edib öz peyğəmbərləri ilə söhbət etməyə qadirdir.

8) Sadiq: Yəni Allahın bütün dedikləri düzgün və həqiqətdir.

**Səlbi sifətlər**

1) Mürəkkəb: Yəni Allah hissələrdən təşkil olunmayıb. Çünki mürəkkəb olan şeyin öz hissələrinə ehtiyacı vardır. Allah da ehtiyacsızdır.

2) Cisim: Yəni Allah cisim deyildir. Çünki hər cisim məhduddur, öz şəklini dəyişir, nəhayət aradan gedir. Allah isə həmişə vardır və olacaq.

3) Mərii: Yəni Allahı görmək mümkün deyildir. Yalnız cisim gözə görünər. Allah da ki, cisim deyildir.

4) Məkan: Yəni Allahın məkanı yoxdur. Çünki məkana malik olmaq cismin xüsusiyyətlərindəndir. Allah da dediyimiz kimi cisim deyil.

5) Şərik: Yəni Allahın şəriki yoxdur. Çünki şəriki olsaydı, Allahlığında məhdud qüdrətli və iradəli olmalıydı. Ona görə ki, heç bir cəhətdən məhdud olmayan iki varlığın bir yerdə cəmləşməsi mümkün deyil. Bundan əlavə,

dünyadakı qanunların (nizamın) vəhdəti (birliyi) dünya xaliqinin birliyinə sübutdur.

6) Möhtac: Yəni Allah ehtiyacsızdır. Çünki elm və qüdrət cəhətdən kamil olan bir varlığın daha nəyə ehtiyacı qalardı.

7) Allahın sifətləri onun vücudunun bir neçə olmasına dəlalət etmir. Çünki Allahın hər bir sifəti onun zatındandır.

Allahın sifəti barəsində O, özü Quranda belə buyurur: «Ona bənzər heç bir şey yoxdur» (Şura,11)

## 2. ƏDL

Allah-taalanın ədalətli olub, heç kəsə zülm etməməsinə inanmaq.

Hər bir müsəlman aləmin xaliqinin zülm və ədalətsizlikdən uzaq və pak olduğuna inanmalıdır. Bilməliyik ki, Allahın tamam işləri hikmət və məsləhət üzərindədir. O, bəndələrin yaxşı əməllərini əvəzsiz və mükafatsız qoymaz. Vədəsinə xilaf olmaz. Aydın məsələdir ki, zülm etmək ya cahillikdən (zülmün pis bir əməl olmasını bilməməkdən), ya ehtiyacdan ya kin və həsəddən ya da ki, başqasının əmrinə tabe olmaq məcburiyyətindən

irəli gəlir. Şübhəsi ki, bu nöqsanlı sifətlərin heç biri Allah taalaya aid deyildir. Həqiqətən Allah alim, ehtiyacsız və yenilməz qüdrət sahibidir.

Bu barədə Qurani-Kərimdə oxuyuruq: «Həqiqətən, Allah (heç kəsə) zərrə qədər də zülm etməz. Əgər yaxşı bir əməl baş verərsə, onun savabını ikiqat artırar və öz tərəfindən də (bu əməlin sahibinə) böyük mükafat verər».

(Nisa , 40)

Allah-taala külli kainatda tamam məxluqata qarşı ədalətli olduğu kimi, qiyamət günü də bəndələri sorğu-suala çəkərkən onların arasında hökm edəndə də ədalətli olacaqdır. Ona itaət edənlərə, əmrlərinə tabe olanlara layiq olduqlarından qat-qat çox mükafat verəcək, günahkarları, pis əməl sahiblərini isə layiq olduqlarından artıq cəzalandırmayacaq.

Necə ki, Quranda oxuyuruq: «Kim yaxşı iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim pis iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz». (Ənbiya, 160)

«O pislik edənlərə əməllərinin cəzasını verəcək, yaxşılıq edənləri isə ən gözəl mükafatla mükafatlandıracaq». (Nəcm , 31)

## 3. NÜBUVVƏT

Əvvəli həzrət Adəm (ə), sonuncusu həzrət Məhəmməd (s) olmaqla insanların hidayəti üçün göndərilmiş yüz iyirmi dörd min peyğəmbərin (Allah elçisinin) haqq olmasına inanmaq və onları təsdiq etmək.

Allah müqəddəs kitab Qurani-kərimdə insanlara belə xitab edir: «Ey iman gətirənlər! Peyğəmbər sizi, sizlərə  həyat bəxş edəcək bir şeyə dəvət etdiyi zaman Allahın  onun Peyğəmbərinin dəvətini qəbul edin…

(Ənfal, 24)

Hər bir müsəlman bilməlidir ki, Allahın təyin etdiyi peyğəmbərlər Allahla insan arasında rəhmət vasitəsidir. Onlar göndərilmişlər ki, həyatda yaşamaq tərzini insanlara göstərməklə yanaşı bəşəriyyəti insanlığa zidd olan işlərdən çəkindirsinlər, insanları ölümdən sonrakı həyatla xəbərdar edib, onlara həyat proqramını, ilahi qanunları çatdırsınlar. Cəmiyyətdə ədaləti dirçəltməklə insanlara azadlıq məfhumunu anladaraq onları düçar olduqları əsarətdən qurtarsınlar.  Çünki insanlar mükəmməl bir qanuna möhtacdırlar. Ali varlıq olan İnsanın ehtiyacını təmin edə biləcək qanunu məhz insanı yaradan və

yaratdığını yaxşı tanıyan Allah verə bilər. Bunun üçün Alim Allah, İlahi qanunu elçiləri olan Peyğəmbərlər (s) tərəfindən bizə yetirmişdir.

Başqa sözlə desək bizim **Peyğəmbərlərə əsas üç cəhətdən ehtiyacımız var:**

**1) Təlim-tərbiyə cəhətdən;**

**2) İctimai və əxlaqi cəhətdən;**

**3) Qanunvericilik cəhətindən;**

**Peyğəmbərlər arasında beş nəfəri «Ulul-əzm», yəni böyük peyğəmbərlər sayılır:**

**1-Həzrət Nuh (ə), 2-Həzrət İbrahim (ə), 3-Həzrət Musa (ə) 4-Həz-rət İsa (ə) 5- Həzrət Məhəmməd (s).**

Bütün peyğəmbərlər arasında peyğəmbərlərin ən fəzilətlisi və şərəflisi («Əşrəful-ənbiya») İslam peyğəmbəri Həzrət Məhəmməddir (s).

Sonuncu Peyğəmbər həzrət Məhəmməddən (s) sonra bir daha Peyğəmbər gəlməyib və heç zaman gəlməyəcəkdir. Buna görə də, ona «Xatəmul-ənbiya», yəni «Peyğəmbərlərin sonuncusu» deyirlər. Belə ki, Qurani-

Kərimdə bu haqda belə buyurulur: «Lakin o, Allahın Rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur. (Əhzab, 40)

## PEYĞƏMBƏRİN SİFƏTLƏRİ

**1. İSMƏT:** Peyğəmbər məsumdur. Yəni hər hansı bir günah, eyb, nöqsan və xətadan uzaqdır.

**2. ELM:** Peyğəmbər, bəşəriyyətin həm dünya, həm də axirət səadətini təmin edən ehkamı bilməlidir.

**3. MÖCÜZƏ:** Peyğəmbər Allahın izni ilə başqalarının aciz olduğu qeyri adi işləri görməyə qadirdir.

Möcüzə hər bir peyğəmbərin zamanında diqqət mərkəzində olan sahədə peyğəmbərin əli ilə baş vermişdir. Məsələn: Həzrət Musanın zamanında sehr və cadugərlik olduğundan bu Peyğəmbər Allahın izni ilə əsanı əjdahaya döndərmişdir. Tibb elmi hökm sürdüyü vaxt həzrəti İsa (ə) möcüzə olaraq kora göz vermiş, ölünü diriltmişdir.

Bizim İslam peyğəmbərinin əsrində isə ədəbiyyat, şeriyyət inkişaf etdiyindən Allah taala başqa bir neçə möcüzələrlə yanaşı əbədi möcüzə olan Quranı həzrəti Məhəmmədə (s) nazil etmişdir.

## İLAHİ PEYĞƏMBƏRLƏRİN SAYI

Quranda 26 peyğəmbərin adı dəqiq göstərilir. Bu adları nəzərdən keçirək: Adəm, Nuh, İdris, Saleh, Hud, İbrahim, İsmail, İshaq, Yusuf, Lut, Yaqub, Musa, Harun, Şüeyb, Zəkəriyya, Yəhya, İsa, Davud, Süleyman, İlyas, Yəsə, Zülkifl, Əyyub, Yunis, Üzeyr və Məhəmməd (s). Nəzərə almalıyıq ki, Quranda Şəmuyel, Ərmiya, Xızr, Yuşə kimi başqa peyğəmbərlərə də işarə olunmuş, amma onların adı aydın şəkildə zikr edilməmişdir. (Surə 2, “Bəqərə”, ayələr 247, 259; Surə 18, “Kəhf”, ayələr 60-65)

İlahi peyğəmbərlərin ümumi sayı ilə bağlı müxtəlif rəvayətlər nəql olunmuşdur. Əksər rəvayətlərdə onların 124 min nəfər olduğu bildirilir. Bir qrup rəvayətlərdə isə Allah tərəfindən 144 min peyğəmbər göndərildiyi bildirilir.

Bəzi rəvayətlərdə nəql olunur ki, həzrət Peyğəmbər (s) Əbuzərin peyğəmbərlərin və səmavi kitabların sayı ilə bağlı sualına belə cavab vermişdir: “Allahın 120 min peyğəmbəri, 124 kitabı olmuşdur.” Sonra Əbuzər peyğəmbərlər arasında İlahi tapşırıqları bəyan etməyə vəzifəli rəsulların sayı haqqında soruşmuşdur. Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Peyğəmbərlərin üç yüzündən çoxu rəsul olmuşdur.”

## PEYĞƏMBƏRLƏRİN MƏQAMI

Bütün peyğəmbərlər məqam və vəzifə baxımından eyni olmuşlarmı?

Quran ayələrindəki işarələrdən və rəvayətlərdəki müxtəlif təbirlərdən aydın olur ki, Allah tərəfindən göndərilən elçilərin müxtəlif məqamları olmuşdur:

**1. Peyğəmbərlik məqamı:** Bu məqamda olanlar Allah tərəfindən ilahi hökmü vəhy vasitəsi ilə qəbul edirlər. Bu sayağı məqama malik olan peyğəmbərlər “nəbiyy” adlanır. Deməli, “nəbiyy” dedikdə vəhy nazil olan şəxs nəzərdə tutulur.

**2. Risalət məqamı:** Bu məqam sahibi vəhyi xalqa çatdırmağa, onu təbliğ edib yaymağa vəzifəlidir. Cəmiyyəti maarifləndirmək bu məqama malik olanların işidir. Böyük təlaşlarla xalqı Allaha doğru dəvət edən, mədəni bir inqilab üçün çalışan peyğəmbərlər "rəsul" adlandırılmış və risalət məqamına malik olmuşlar.

**3. İmamət məqamı:** İmamət məqamı dedikdə xalqa rəhbərlik, öncüllük məqamı nəzərdə tutulur. İlahi hökumətin təşkili, Allah hökmlərinin işə salınması üçün qüdrət əldə edilməsi imamın vəzifələridir. Başqa sözlə, imam ilahi göstərişləri yerinə yetirməyə borcludur. Hansı ki rəsulun vəzifəsi yalnız bu göstərişləri bəyan etməkdir.

İslam peyğəmbəri (s) kimi bəzi peyğəmbərlər hər üç məqama malik olmuşlar. Bəzi peyğəmbərlərdə yalnız nəbiyy, bir başqalarında nəbiyy və risalət məqamları olmuşdur.

Peyğəmbərlər arasında "ülul-əzm" adlandırılanlar var. "Əzim" dedikdə möhkəm iradə nəzərdə tutulur. Yeni şəriət və ayin gətirmiş peyğəmbərlər "ülul-əzm" peyğəmbərlərdir. Onlar bir çox problemlərlə üzləşmiş, uyğun çətinlikləri adlamaq üçün böyük iradəyə ehtiyaclı olmuşlar.

Beş peyğəmbər ülul-əzm peyğəmbər sayılır: Həzrət Nuh, həzrət İbrahim, həzrət Musa (Tövrat sahibi), həzrət İsa (İncil sahibi), həzrət Məhəmməd (s) (Quran sahibi). ("Biharul-ənvar")

## MÜSƏLMANLAR
## Məhəmməd Peyğəmbərin (s) ümmətidir

Biz müsəlmanlar Peyğəmbərlərin ən şərəflisi olan Həzrət Məhəmmədin (s) gətirdiyi ən kamil dini – İslam dinini qəbul edib, bu dinin göstərişlərinə əməl edənlər və onun yoluyla gedənlərik.

Peyğəmbərin gətirdiyi hər bir hökmə əməl etmək, qadağan etdiklərindən çəkinmək hər bir müsəlmana vacibdir. Necə ki, Qurani-Kərimdə bu haqda belə buyrulmuşdur: «Peyğəmbərin sizin üçün gətirdiyini alın (əməl edin) və qadağan etdiyindən çəkinin. Allah qarşısında təqvalı olun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir». (Həşr, 7)

Əziz Peyğəmbərin bizə gətirdiyi hökmlər isə Qiyamət gününə qədər qalacaq və heç vaxt əvəz olunmayacaqdır.

İmam Sadiq (ə) bu barədə belə buyurmuşdur: «Həzrət Məhəmmədin (s) halal etdiyi bütün şeylər Qiyamətə qədər halal, haram etdiyi şeylər isə Qiyamətə qədər haramdır».

## 4. İMAMƏT

Peyğəmbərlərin sonuncusu həzrəti Məhəmmədin (s) haqq canişinləri olan 12 imamın (ə) imamlığına inanmaq. Onların (Allah tərəfindən və Peyğəmbərin (s) vasitəsi ilə) Peyğəmbərdən (s) sonra islam ümmətinin rəhbəri və xəlifəsi olmasını təsdiq etmək. Bilməliyik ki, Peyğəmbərdən (s) sonra ilahi hökmləri qoruyub saxlamaq, onları xalqa izah etmək, İslam dünyasına rəhbərlik etmək kimi məsuliyyətin öhdəsindən məhz Allahın seçilmiş bəndələri olan (əvvəli Əli (ə) və sonuncusu Mehdi (ə) olmaqla) 12 imam (ə) gələ bilmişdir.

Allah-taala Quranda buyurmuşdur: «Biz onları əmrimizlə (insanları) doğru yola gətirən imamlar (rəhbərlər) etdik …». (Ənbiya, 73)

Bu barədə İslam Peyğəmbəri buyurmuşdur: «Məndən sonra ümmətim üçün olan canişinlərim, vəsilərim və Allahın bəndələrə olan höccətləri on iki

nəfərdən ibarətdir. Onların əvvəli Əli, axırıncısı isə mənim övladım Mehdidir».

Cabir ibn Əbdullah Ənsari belə söyləyir: «İşlərin valisi (hökmdarı) haqqında ayə nazil olarkən Allahın rəsulu Muhəmmədə (s) dedim:

- Ya Rəsuləllah! Biz Allahı və onun Rəsulunu tanımışıq. Vacibdir ki, bu ayədə itaəti bizim üçün vacib buyurulan işlərin valisini də tanıyaq. İşlərin valisi dedikdə kim nəzərdə tutulur. Bunu bizə izah edin.

Rəsuli-əkrəm (s) buyurdu:

- Ey Cabir! Onlar mənim canişinlərim və məndən sonra gələn imamlardır. Onların birincisi Əli ibn Əbu Talibidir. Sonra bu sıra ilə gəlir:

Həsən ibn Əli, Hüseyn ibn Əli, Əli ibn Hüseyn, Muhəmməd ibn Əli

Bu ad Tövratda Baqir adı ilə məşhurdur, sən onun zamanını qocalıqda dərk edəcəksən, onu hər vaxt görsən, mənim salamımı yetir.

Muhəmməd ibn Əlidən sonra qalanları bu ardıcıllıqla gəlir:

Cəfər ibn Muhəmməd, Musa ibn Cəfər, Əli ibn Musa, Muhəmməd ibn Əli, Əli ibn Muhəmməd, Həsən ibn Əli Ondan sonra onun övladı gəlir, onun adı və künyəsi mənim adım və künyəm ilə birdir.

O elə bir şəxsiyyətdir ki, Allah-təala onu bütün dünyaya üstün və hakim təyin etmişdir. Xalqın nəzərindən qeyb olub gizli qalan odur. Onun qeyb olması və gizli qalması çox uzun bir müddət çəkəcəkdir. O zamanadək ki, imanı möhkəm və əzmlə olan, onun imamlığına əqidəsi olanlar qalacaqdır.

Hər bir Peyğəmbərdən sonra onun risalətini göstərdiyi yolu davam etdirən canişinlər və rəhbərlər olmuşdur. Elə buna görə də, Allah-taala bəşəriyyətin nicatı üçün son olaraq göndərdiyi Peyğəmbər –Həzrət Məhəmməddən (s) sonra İslam ümmətini başsız qoymamış, onlara hər bir şeydə qabaqcıl və nümunə olan imamlar bəxş etmişdir. Belə ki, Rəsulullahın (s) vəfatından öncə ondan sonra İslam ümmətinə din və dünya işlərində rəhbər və imam olacaq Əli ibn Əbu Talibi (ə) təyin etmişdir. Bu hadisə Peyğəmbər (s) «Vida həcci»ndən qayıdarkən «Cöhfə»adlı məntəqədə «Qədir-xum» deyilən yerdə olmuşdur…

Allahın höccətləri olan İmamlar (ə) da Peyğəmbər (s) kimi məsum (günahsız), son dərəcə elmli, şücaətli, təqvalı və əxlaqi cazibəyə malikdirlər.

Hər bir müsəlman Tövhidə, Ədlə və Nübuvvətə etiqad etdiyi kimi İmaməti də qəlbi və dili ilə qəbul etməli, etiqad göstərməli və İmamları

tanımalıdır. Həzrət Rəsulullah (s) buyurmuşdur: «Hər kəs öz zəmanəsinin İmamını tanımadan ölsə, sanki cahiliyyət dövründə olan adam kimi ölmüşdür». (Müsnədi Əhməd c.4, səh. 96)

## İMAMIN İMTİYAZLARI VƏ XÜSUSİYYƏTLƏRİ

İmamın da peyğəmbər kimi imtiyazları olmalıdır ki, insanların dini və dünyəvi işlərinə rəhbərlik edə bilsin. İmama imtiyaz verən bəzi şərt və səciyyələri nəzərdən keçirək.

1. İmam məsum, istənilən bir günahdan uzaq, xətaya yol verməyən bir şəxs olmalıdır. Çünki özü çirkaba batmış şəxs başqalarını çirkabdan qurtara bilməz.

2. İmam Allahın sonsuz elmindən faydalanmalıdır ki, İslam həqiqətlərini müsəlmanlara olduğu kimi çatdırsın. Əks təqdirdə onun dedikləri şübhə doğurar, insanlar əsil İslam maarifindən xəbərsiz qalar.

3. İmam ya peyğəmbər, ya da məsum tərəfindən həmin məqama təyin olunmalıdır. Çünki peyğəmbər və məsumlardan savayı kimsə fərdin həqiqi məqamını təyin edə bilməz.

Eləcə də nəql olunmuş xəbərlərdən və hədislərdən aydın olur ki, məsum imamların da peyğəmbərlər kimi möcüzələri olmuşdur. Onlar zərurət yarandıqda öz imamət və məsumluq məqamlarının sübutu üçün qeyri-adi işlər görmüşlər. Əlbəttə ki, biz şiə imamlarına aid edilən bütün möcüzələrin düzgünlüyünü iddia etmirik. Deyilənlərdən aydın oldu ki, peyğəmbərlə imam arasında aşağıdakı fərqlər var: peyğəmbər dinin təsisçisidir, vəhy yolu ilə şəriət hökmlərini qəbul etmişdir. İmam isə hökmləri hifz edib onu yerinə yetirən şəxsdir.

***Həzrət Peyğəmbərin (s) özündən sonra canişin təyin etməsi zəruri idimi? İmamlar Peyğəmbər (s) tərəfindənmi təyin olunmuşdur?***

Aydındır ki, ictimai məqama malik olan, cəmiyyətə rəhbərliyi öhdəsinə götürmüş hər bir şəxs səfərə çıxdıqda öz yerinə canişin təyin edir və cəmiyyəti başlı-başına buraxmır. Həzrət Musa ilahi ayələrin qəbulu üçün bir neçə günlük qövmündən uzaqlaşdığı vaxt qardaşı Harunu özünə canişin təyin etdi. Həzrət Peyğəmbər (s) də öz növbəsində bu nöqtəyə lazımınca diqqət yetirmişdir. Savaşlar zamanı hansı məntəqə fəth olunurdusa Peyğəmbər (s) dərhal oraya hakim təyin edirdi. Müharibə vaxtı qoşunla birlikdə şəhərdən

çıxdıqda cəmiyyətin idarə olunması üçün Mədinədə canişinini qoyurdu. Necə ola bilər ki, həzrət Peyğəmbər (s) öz vəfatından sonra ilahi qanun və hökmlərin icrası üçün canişin təyin etməmiş olsun?! Məsum imamı xalqa tanıtdırmaq peyğəmbərin labüd vəzifələrindəndir. Əks təqdirdə dini təbliğ prosesi yarımçıq qalmış olardı. Əqli və nəqli dəlillər əsasında biz şiələr inanırıq ki, həzrət Peyğəmbər (s) özündən sonra üçün ardıcıl şəkildə on iki canişin təyin etmişdir.

## ON İKİ İMAM

Müsəlmanların Peyğəmbərdən (s) sonra etiqad etdikləri İmamlar (ə) on iki nəfərdir.

### *1. İmam Əli (ə)*

Həzrət Əli (ə) Fil əshabı hadisəsindən 30 il sonra rəcəb ayının 13-də Kəbə evində dünyaya göz açmışdır. Həzrət Məhəmməd (s) peyğəmbərlik məqamına çatanda Əlinin (ə) 10 yaşı vardı. Həzrət Əli (ə) həzrət Məhəmmədin 23 illik peyğəmbərliyi dövründə daim onun yanında olmuşdur. Onun atasının adı Əbu-Talib (ə), anasının adı Fatimə olmuşdur. Həzrət Əli (ə) Peyğəmbərin (s) qızı Fatimə ilə ailə həyatı qurmuş və bu izdivacdan dörd övlad dünyaya gəlmişdir: İmam Həsən (ə), imam Hüseyn (ə), Zeynəbi-Kubra, Ümmü Gülsüm. Peyğəmbər (s) dünyasını dəyişdikdən sonra fədakar xanım həzrət Fatimə (s.ə.) 18 yaşında ikən dünyasını dəyişmişdir. Həzrət Peyğəmbər (s) qızı Fatiməni (s.ə.) xüsusi bir məhəbbətlə sevirdi. Həzrət buyurur: “Fatimə mənim tənimin parasıdır. Onu sevindirən məni sevindirir, onu incidən məni incidir. Fatimə mənim üçün ən əziz insandır.” Bəzi

rəvayətlərdə nəql olunur ki, həzrət Peyğəmbər (s) belə buyurmuşdur: “Allah Fatimənin (s.ə.) qəzəbinə görə qəzəblənir, onun razılığına görə razı qalır.”

Xanım Fatimə (s.ə.) bütün varlığı ilə Əmirəl-möminin Əli ibn Əbu Talibin (ə) vilayət, imamət məqamını müdafiəyə qalxmışdı. Xanım elə bu yolda da canını fəda etdi. Peyğəmbər (s) dünyasını dəyişdikdən sonra həzrət Əli (ə) iyirmi beş il evdə oturdu. Hicri 35-ci ildə xalq müsəlmanların rəhbəri kimi həzrət Əliyə (ə) beyət etdilər. Həzrət Əli (ə) beş ilə xəlifəlik etdi. Hicri 40-cı ilin ramazan ayında 63 yaşlı Əmirəl-möminin (ə) Kufə məscidində şəhadətə çatdı. İmamın pak məqbərəsi İraqın Nəcəf şəhərindədir. Həzrət Əlinin (ə) ləqəbi “Əmirəl-möminin”, künyəsi (nəsil vasitəsi ilə çağırışı) Əbül-Həsən” olmuşdur. Bərəkətli “Nəhcül bəlağə” məcmuəsi həzrət Əlinin (ə) buyuruqları, məktubları və hikmətli sözlərindən tərtib olunmuşdur. Kitabın tərtibçisi Seyid Rəzidir.

## *2. İmam Həsən (ə)*

İmam Həsən hicri 3-cü il, mübarək ramazan ayının ortalarında dünyaya göz açdı. Onun atası həzrət Əli (ə), anası xanım Fatimə (s.ə.) idi. İmam Həsən (ə) ailənin ilk övladı idi. İmamın məşhur ləqəbi "Müctəba", künyəsi "Əbu Məhəmməd" olmuşdur. O uşaqlıq dövrünün 7 ilini Peyğəmbərin (s) yanında keçirmişdir. Sonra 30 il atası həzrət Əli (ə) ilə yaşamışdır. 37 yaşında imamət məqamına çatmış və 10 il təhlükə dolu bir həyat yaşadıqdan sonra hicri 50-ci il 47 yaşında şəhid olmuşdur. Ölümünün səbəbi ona verilən zəhər idi. İmam Həsən (ə) Mədinə şəhərində Bəqi qəbristanlığında torpağa tapşırılmışdır.

## *3. İmam Hüseyn (ə)*

İmam Hüseyn (ə) hicri 4-cü il şəban ayının 3-də dünyaya göz açmışdır. O 46 yaşınadək qardaşı imam Həsənlə (ə) yaşamışdır. Hicri 50-ci ildə imam Həsən (ə) dünyasını dəyişdikdən sonra İmam Hüseyn (ə) 47 yaşında imamət məqamına yüksəlmişdir. Hicri 60-cı ildə Kufə əhlinin dəvəti ilə Yezid hökuməti ilə mübarizə üçün öncə Mədinədən Məkkəyə getmiş, sonra Kufəyə

üz tutmuşdur. Amma Kufə əhli imama yardım fikrindən daşınmış və imam öz azsaylı ətrafı ilə Kərbəla torpağında Yezid qoşunu tərəfindən mühasirəyə alınmışdır. Hicri 61-ci il məhərrəm ayının 10-da (aşura günü) imam öz yaxınları ilə şəhadətə çatmışdır. İmam Hüseynin (ə) məqbərəsi Kərbəla şəhərindədir. Onun ləqəbi "Seyyidüş-şühəda", künyəsi "Əbu Əbdüllah" olmuşdur.

## *4. İmam Əli ibn Hüseyn (ə) (Zeynülabidin, Səccad)*

İmam Səccad (ə) hicri 36 və ya 38-ci ildə cəmadiül-əvvəl ayının 5-i və ya 15-də Mədinə şəhərində dünyaya göz açmışdır. Onun atası imam Hüseyn (ə), anası müəyyən məlumatlara əsasən Şəhrəbanu olmuşdur. İmam Səccad (ə) hicri 61-ci ildə atası şəhadətə çatdıqdan sonra imamət məqamına yüksəlmişdir. İmam abid, zahid və uzaqgörən bir rəhbər olmuşdur. İmam çox səcdə qıldığından "səccad", çox ibadət etdiyindən "Zeynülabidin" ləqəbləri ilə tanınmışdır. Onun künyəsi Əbu Muhəmməddir. Mənalı dualarla zəngin "Səhifeyi-səccadiyə" məcmuəsi imam Səccaddan (ə) qalmış yadigardır. İmam Səccad (ə) hicri 95-ci il, məhərrəm ayının 25-də 57 və ya 59 yaşında

Bəni-Üməyyə hökuməti tərəfindən zəhərlənmiş və şəhadətə çatmışdır. İmamın qəbri Mədinə şəhərində Bəqi qəbristanlığındadır.

### *5. İmam Məhəmməd ibn Əli (ə) (İmam Məhəmməd Baqir)*

Onun adı Məhəmməd, ləqəbi Baqirul-ülum olmuşdur. Baqirul-ülum dedikdə elmləri yaran mənası anlaşılır. İmamın künyəsi Əbu Cəfər idi. Onun atası imam Səccad (ə), anası imam Həsən Müctəbanın (ə) qızı Fatimə olmuşdur. İmam hicri 57-ci il rəcəb ayının əvvəlində Mədinə şəhərində dünyaya göz açmışdır. O hicri 95-ci ildə, 38 yaşında imamət məqamına çatmışdır. İmamın ömrünün sonlarında Bəni-üməyyə rejimi zəiflədiyindən o bu fürsətdən istifadə edərək İslam maarifi və hökmlərini təbliğ etmiş, şagirdlər yetirmişdir. İmam Məhəmməd Baqir (ə) hicri 114-cü il zil-hiccə ayının 7-də 57 yaşında şəhadətə çatmış və Mədinə şəhərinin Bəqi qəbristanlığında torpağa tapşırılmışdır.

## *6. İmam Cəfər ibn Məhəmməd (ə) (İmam Cəfər Sadiq)*

İmamın adı Cəfər ləqəbi Sadiq, künyəsi Əbu Əbdüllah olmuşdur. Onun atası imam Baqir (ə), anası dövrünün pəhrizkar qadınlarından sayılan Ümmü Hərvə olmuşdur. İmam hicri 83-cü il rəbiül-əvvəl ayının 17-də Mədinə şəhərində doğulmuşdur. O 32 yaşında imamət məqamına yüksəlmişdir. Bütün ömrünü insanların təlim-tərbiyəsinə sərf edib minlərlə şagird yetişdirmişdir. İslam elmlərinin qapılarını müsəlmanların üzünə açmışdır. Belə ki, imamdan hədis nəql edənlərin sayı dörd min nəfərə çatır. Həmin insanlardan bir çoxu ali elm məqamına çatmışdır. Kimya elminin banisi Cabir ibn Həyyan, kəlam və əqidə üsulları alimi Hişam ibn Həkəm imamın yetirmələrindəndir. İmam bəni Abbas xəlifələrindən olan Mənsur Dəvaniqi tərəfindən zəhərlənmiş, hicri 148-ci il şəvval ayının 25-də 65 yaşında dünyasını dəyişmişdir. İmam Cəfər Sadiq (ə) imamlar arasında ən çox ömür sürəndir. Bu səbəbdən ona “Şeyxül-əimmə” ləqəbi verilmişdir. İmam Sadiq (ə) Bəqi qəbristanlığında, atası imam Baqir (ə), babası imam Səccad (ə), babasının əmisi imam Həsənin (ə) yanında dəfn olunmuşdur.

## *7. İmam Musa ibn Cəfər (ə) (imam Kazim)*

Onun adı Musa, məşhur ləqəbi Kazim ("qəzəbini udan"), künyəsi Əbül Həsən olmuşdur. Atası imam Sadiq (ə), anası Həmidədir. İmamın anası elmi məqama malik olmuşdur. O imam Sadiqin (ə) göstərişi ilə qadınlara dini maarif və əhkam öyrətmişdir. İmam Kazim hicri 128-ci il səfər ayının 7-də Məkkə və Mədinə arasındakı Əbva məntəqəsində dünyaya göz açmışdır. O 21 yaşında imamət məqamına çatmışdır. İmam Kazim (ə) öz şərəfli ömrünün bir hissəsini həbsxanada keçirmişdir. Nəhayət, hicri 183-cü il rəcəb ayının 25-də 55 yaşında Bağdad həbsxanasında Bəni Abbas məmurları tərəfindən zəhərlənmiş və şəhadət dərəcəsinə çatmışdır. İmam Bağdad şəhərində sonradan Kazimeyn adlandırılan Qüreyş qəbristanlığında dəfn olunmuşdur.

## *8. İmam Əli ibn Musa (ə) (İmam Riza)*

Onun adı Əli, ləqəbi Riza, künyəsi Əbül-Həsən olmuşdur. İmam hicri 148-ci il zilqədə ayının 11-də Mədinə şəhərində dünyaya göz açmışdır. Onun atası imam Kazim (ə), anası dövrünün pəhrizkar qadınlarından olan Nəcmə olmuşdur. İmam hicri 183-cü ildə 35 yaşında ikən imamət məqamına

çatmışdır. O Bəni Abbas padşahlarından olan Məmunun israrı ilə Xorasana gəlmiş, vəliəhdliyi qəbul etməyə məcbur olmuşdur. Məmun Abbasi xalqın imama məhəbbətindən xoflanaraq onu zəhərləmişdir. İmam hicri 203-cü il səfər ayının axırlarında 55 yaşında Xorasanın Məşhəd şəhərində torpağa tapşırılmışdır.

## *9. İmam Məhəmməd ibn Əli (ə)*
## *(İmam Məhəmməd Təqi, Cavad)*

İmam Cavad hicri 195-ci il rəcəb ayının 10-da Mədinə yaxınlığındakı Sirya məntəqəsində dünyaya göz açmışdır. Adı Məhəmməd, Cavad və Təqi məşhur ləqəbləridir. Künyəsi Əbu Cəfər olmuşdur. Atası imam Riza (ə) anası Səbikədir. İmam hicri 203-cü ildə atasının şəhadətindən sonra 8 yaşında ikən imamət məqamına çatmışdır. İmamət Allah tərəfindən verilən məqam olduğundan onun yaşla heç bir əlaqəsi yoxdur. İmam hicri 220-ci ildə zilqədə ayının son günü 25 yaşında ikən Mötəsim Abbasi tərəfindən zəhərlənmiş və şəhadətə çatmışdır. O Bağdadın Kazimeyn məntəqəsində babası Musa ibn

Cəfərin (ə) yanında dəfn olunmuşdur. Şiə imamları arasında ən az ömür sürən imam Cavaddır.

## *10. İmam Əli ibn Məhəmməd (ə) (İmam Əliyyən Nəqi, Hadi)*

İmamın adı Əli, ən məşhur ləqəbləri Nəqi və Hadi, künyəsi Əbül Həsən olmuşdur. Atası imam Cavad (ə), anası Səyyidə və ya Səmanədir. İmam hicri 213-cü il zilhiccə ayının 15-də dünyaya göz açmış, atasının şəhadətindən sonra imamət məqamına çatmışdır. Həzrət imamət dövrünün böyük hissəsini Samirra şəhərində Bəni Abbas hökumətinin nəzarəti altında keçirmişdir. Nəhayət rejim tərəfindən zəhərlənmiş və hicri 254-cü il rəcəb ayının 3-də 41 yaşında ikən dünyasını dəyişmişdir. İmam Samirra şəhərində torpağa tapşırılmışdır.

## *11. İmam Həsən ibn Əli (ə) (İmam Həsən Əskəri)*

Bu imam hicri 232-ci il rəbiüs-sani ayında Mədinədə dünyaya göz açmışdır. Atası Əliyyən Nəqi (ə), anası Səlil və ya Hədisdir. İmam Həsən Əskəri (ə) 22 yaşında imamət məqamına çatmışdır. Hicri 260-cı il rəbiül-

əvvəl ayının 8-də eynən məsum ataları kimi sitəmkar rejim tərəfindən zəhərlənmiş və şəhadətə çatmışdır. İmam Samirra şəhərində atası ilə yanaşı dəfn olunmuşdur. İmam Həsən Əskəri (ə) Bəni Abbas hökumətinin göstərişi ilə 4 yaşında olarkən atası ilə birlikdə Mədinədən İraqın Samirra şəhərinə köçürülmüşdür. Onlar həmin şəhərdə nəzarət altında saxlanılmışlar. İmam Bəni Abbas qoşununun nəzarəti altında saxlandığından "Əskəri" ləqəbi ilə çağırılmışdır. "Əskər" dedikdə ərəb dilində qoşun mənası nəzərdə tutulur. İmam dəyərli ömrünün bir hissəsini həbsxanada keçirmişdir.

## *12. İmam Mehdi (ə.c.)*

İmam Mehdi (ə.c.) hicri 255 və ya 256-cı il şəban ayının ortaları Samirra şəhərində dünyaya göz açmışdır. Ona Peyğəmbərin (s) adı qoyulmuşdur. Mehdi, Qaim, Sahibəz-zəman, İmami əsr, Höccət imamın ləqəblərindəndir. Onun atası İmam Həsən Əskəri (ə), anası Nərcis olmuşdur. 260-cı ildə atası dünyasını dəyişənədək imamla bir çox insanlar görüşmüşdür. Görüşə gələnlər bu uşaqda imamət nümunələrini aşkar görürdülər. Atası dünyasını

dəyişdikdən sonra imam qeybə çəkilmiş, Bəni Abbas padşahlarının onu öldürmək və həbs etmək cəhdləri boşa çıxmışdır.

On ikinci İmam Sahibəl-əsri vəz-zəman (ə) İmam hazırda sağdır və Allah-təalanın iznilə qeybə çəkilmişdir. Yer üzü fəsad, pozğunluq, zülm və sitəmlə dolduqdan sonra o həzrət Allahın izni ilə zühur edib dünyanı islah edəcək və İslamın əvvəlki izzətini özünə qaytaracaqdır. Həzrət Rəsulullah bu haqda buyurmuşdur: «Qiyamət gününə qədər yer üzü zülm, sitəm və ədavətlə dolacaqdır. Sonra Əhli-beytimdən olan bir nəfər çıxaraq onu zülm və ədavətlə dolduğu kimi ədalətlə bərqərar edəcək».

## «ƏHLİ-BEYT» kimlərə deyilir

«Əhli-beyt» sözü lüğətdə «ev əhli» mənası verməsinə baxmayaraq, istilahi mənada İslam Peyğəmbərinin ailəsi, övladları məfhumunu daşıyır və yalnız xüsusi şəxslərə aid edilir. Bu şəxslərin kim olması Peyğəmbərin özündən nəql olunan onlarca rəvayətdə açıq-aşkar bəyan edilmişdir. Bu rəvayətlərdə yalnız Əli (ə), Fatimə (ə.s), Həsən (ə), Hüseyn (ə) və imam Hüseynin nəslindən olan və Peyğəmbərin vəfatından sonra dünyaya gələn

doqquz nəfər O Həzrətin Əhli-beyti kimi təqdim edilmişdir. O rəvayətlərdən bir neçəsini nümunə olaraq əziz oxucuların nəzərinə çatdırırıq…

1– Şeybənin qızı Səfiyyə Ayişədən nəql edir ki, bir gün Peyğəmbər əbasını çiyninə salıb evdən çıxdı. Bu zaman Əlinin oğlu Həsən o həzrətin yanına gəldi. Peyğəmbər onu əbasının altına çəkdi. Sonra Hüseyn, daha sonra Fatimə, ondan sonra da Əli gəldi. Peyğəmbər hamısını əbasının altına toplayıb bu ayəni tilavət etdi…

«Allah-taala istəyir ki, bütün günah və çirkinlikləri yalnız siz Əhli-beytdən uzaqlaşdırsın və sizi tamamilə pak-pakizə qərar versin». (Əhzab surəsi, 33)

(Səhihi-Müslüm, c.4 səh.1885, 2424-cü hədis).

2– Amir ibni Səd ibni Əbi Vəqqas öz atasından nəql edir ki, vəhy nazil olan zaman Peyğəmbər Əli, Fatimə və onun iki oğlunu (Həsən və Hüseyni) əbasının altına çəkib dedi… “Pərvərdigara, bunlar mənim Əhli-beytimdir». (Səhihi-Müslüm, c. 4 səh.1871, 32-ci hədis)

3– İsa ibni Əbdüllah ibni Malik ikinci xəlifə Ömər ibni Xəttabdan belə nəql edir… Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: «Ey camaat, mən

yaxın zamanlarda sizin aranızdan gedəcəyəm. Qiyamətdə siz də gəlib mənə qovuşacaqsınız». (Burada Peyğəmbər onlara Quran və Əhli-beytin hüquqlarına riayət etmək barədə çoxlu tövsiyələr edir). Ömər deyir: Mən, ey Allahın Rəsulu, sənin Əhli-beytin kimlərdir? –deyə soruşdum. Həzrət buyurdu: «Mənim Əhli-beytim Əli, Fatimə, onun iki övladı (Həsən və Hüseyn) və Hüseynin nəslindən olan doqquz nəfər əməlisaleh imamlardır. Onlar mənim itrətim, ətim və qanımdı». (Təfsiri-burhan c.1 səh.9).

4– İbni Abbas "Büruc" surəsinin birinci ayəsi barəsində deyir… Peyğəmbər (s) buyurdu… "Mən asimanam, Əhli-beytimdən olan imamlar isə onun bürcləridir. Onlar on iki nəfərdir». (Yənabiul-məvəddət, c.3- səh.253).

## 5. MƏAD

Öləndən sonra bir daha dirilib, dünyada etdiyimiz əməllər üçün Allah qarşısında cavab vermək (Qiyamət, Behişt (Cənnət), Cəhənnəm, haqq hesab çəkilməsinə (sorğu-suala) inanmaq).

Məadın lüğətdə mənası «qayıdış» deməkdir. Yəni insanlar öləndən sonra bir daha dirilib dünyada etdiyi əməllərin qarşısında yaradana hesabat vermək üçün Axirət aləminə qayıdacaqlar. Nəhayət yaxşı əməl sahibləri Cənnətə və pis əməl sahibləri isə Cəhənnəmə gedəcəklər. Bu əqidə dinin zəruri məsələlərindən biridir. Hər bir müsəlmanın buna etiqad və inamı olmalıdır. Həmçinin hər bir müsəlman bilməlidir ki, dünyasını dəyişən insan hələ qəbir aləmində – «Bərzəx» aləmindədir. Orada da ondan sorğu-sual olunur.

İnsanı düşündürən suallardan biri də ölüm və onun fəlsəfəsiylə həqiqəti haqda olmuşdur. İnsan daima bilmək istəyir ki, əgər ölüm, fəna və puçluqdursa, onda insanı düzgünlüyə, saleh əməllərə dəvət etməyin mənası nədir? Əgər ölüm hər şeyin sonudursa, onda bəşəriyyəti haqq yola hidayət etmək üçün Peyğəmbərlər göndərilməsinin nə faydası var idi? Əgər ölüm insanın əlindən hər şeyi alırsa , onda bu dünyada əzab-əziyyətə qatlaşmanın

nə faydası var? Pislər ilə yaxşılar, günahkarlarla düzlərin arasında fərq qoyulmayacaqdırsa, onda Allahın ədalətli məhkəməsi nə zaman olacaqdır.... insan bu suallara cavab axtardıqda məada yəni ölümdən sonrakı həyata inanmaq məcburiyyətində qalır. Çünki, ölümdən sonrakı həyatı inkar etmək son dərəcə xətalı bir düşüncə və mənasız bir məntiqdir.

Ancaq, təəssüflər olsun ki, bu məsələyə bəzi müsəlmanlar soyuq münasibət göstərirlər. Öldükdən sonra insanın yenidən dirilməsini ağılasığmaz sanırlar.

Bu barədə Allah Quranda buyurur: «(Qiyaməti inkar edən) insan: «Mən öldükdən sonra (qəbirdən) dirimi çıxarılacağam?» - deyə soruşur. Məgər insan öncə onu heç bir şey deyilkən (yoxdan) yaratdığımızı xatırlamırmı?». (Məryəm, 66 – 67).

# AXİRƏT ALƏMİNİN MƏRHƏLƏLƏRİ

**1-Ölüm;**

Ölüm ruhun təmamilə bədəndən ayrılmasına deyilir ki, hər bir insan müxtəlif xəstəliklər, hadisələr və s. səbəblərdən bu dünyadan köçəcək və dünyada etdiyi əməllərə görə Allah qarşısında hazır olacaqdır.

Bir sıra hədislərə əsasən ölüm, mömin və yaxşı əməl sahibləri üçün asan, kafirlər və günahkarlar üçün isə çətin və ağır olacaqdır.

Kafirlər və qeyb aləmini inkar edənlər ölümü aradan gedib məhv olmaq kimi qələmə verir, möminlər və saleh bəndələr isə onu məhv olmaq deyil, əksinə, əbədi yaşayışa qovuşmaq bilirlər.

**2-Qəbir;**

Ruhu bədənindən çıxmış insan qüsl, kəfən və s. işlərdən sonra qəbirdə dəfn olunur.

Kafir, müşrik və günahkarlar üçün qəbir sıxıntısı ən qorxulu və dözülməz hadisələrdən biri sayılır.

İstər müsəlman, istərsə də qeyri-müsəlman üçün qəbir məsələlərindən biri də münkir və nəkirin ölüdən bir sıra suallar soruşmasıdır. Onlar qəbirdə olan insandan Allah, peyğəmbər, müqəddəs kitab, imam və s. məsələlər haqda sual edəcəkdir.

**3-Bərzəx;**

Bərzəx aləmi Qiyamət gününədək möminlər və kafirlərin qalacağı müvəqqəti bir yerdir ki, möminlər Qiyamət gününədək orada cənnətə oxşar müvəqqəti yerdə, kafirlər isə cəhənnəmə oxşar bir yerdə qalacaqlar.

Bu aləm dünya həyatı ilə Axirət arasında olan ayrılıq və boşluğu doldurduğu üçün «Bərzəx» adlanmışdır. (Qurani-kərimin Möminun surəsinin 100-cü ayəsi, həmçinin bir sıra hədislərdə Bərzəx aləmi haqda danışılmışdır).

**4- Qiyamət;**

«Qiyamət» sözü ayağa qalxmaq və dirçəliş mənasını daşıyır. Qurani-kərimdə bu gün «Yəvmud-din» (cəza və mükafat), «Yəvmul-axir» (son gün), «Yəvmul-həsrət» (həsrət günü), «Yəvmul-üsr» (çətin gün) və «Yəvmə

tubləs-sərair» (pərdələrin kənara gedib, sirlərin aşkar olduğu gün) kimi adlarla yad edilmişdir.

Qurani-kərimin buyurduğuna görə, iki dəfə İsrafilin vasitəsi ilə şeypur çalınacaq.

Birinci dəfə çalınanda yerdə və göylərdə olan canlı varlıqlar öləcək və bununla da Qiyamət günü başlanacaqdır.

Şeypur ikinci dəfə çalındıqda isə, ölmüş canlılar bir daha diriləcək və Allah hüzurunda dayanacaqlar. Qurani-kərimdə oxuyuruq:

«İsrafil şeypuru çalacaq və Allah istədiyi kəslərdən başqa göylərdə və yerdə olan bütün canlılar öləcəkdir və sonra bir daha şeypur çalındıqda, insanlar ölümdən ayılaraq (məhşərə) baxacaqlar».

Qiyamət gününün necə ağır və dəhşətli olduğunu diqqətinizə çatdırmaq üçün bir neçə ayəni qeyd edirik:

«Bağışlayan va mehriban Allahın adı ilə. Ey insanlar! Rəbbinizdən (qorxub) pərhizkar olun ki, şübhəsiz Qiyamət gününün zəlzələsi çox böyuk bir hadisədir. O gün bütün südverən analar qorxudan öz körpələrini unudacaq və bütün hamilə qadınlar uşaqlarını salacaqlar.

O gün xalqı məst halda görəcəksən, halbuki onlar məst deyil və lakin Allahın əzabı şiddətlidir».

Nəql olunmuş rəvayətə əsasən, bu ayələr «Bəni-müstələq» döyüşündə Həzrət Peyğəmbərə (s) nazil oldu. Peyğəmbər onu müsəlmanlar üçün oxudu və onlar qorxudan ağlayaraq pərişan oldular.

Hamılıqla o günün şərrindən Allaha pənah aparırıq.

**5-Qəbrdən qalxmaq;**

Həzrət İsrafilin çaldığı ikinci şeypurdan sonra əvvəldən dəfn olunmuş insanlar öz qəbirlərindən qalxacaq və etdiyi əməllərin hesabını görəcəklər.

Qurani-kərim bu haqda buyurur:

«(Onlar) qəbrlərdən çıxaraq həşəratlar kimi məhşərə səpələnəcəklər».

**6-Əməllərin hesablanması;**

Qurani-kərimin buyurduğuna əsasən, Qiyamət günündə zərrə qədər də olsa yaxşı və pis əməllər ölçüləcək və onların hər biri üçün savab və cəza veriləcəkdir.

Hədislərdən belə başa düşülür ki, yaxşı əməlləri artırıb daha çox savab almaq üçün Həzrət Peyğəmbər (s) və onun pak ailəsinə salavat göndərmək, (Allahummə səlli əla Muhəmmədin və Ali Muhəmməd) sözünü demək, həmçinin xoş əxlaqlı olmaq çox faydalıdır.

Bu mərhələdə əməllərin ölçülüb hesablanması üçün bir sıra şahidlər şəhadət verəcəkdir. Qurani-kərimin ayələrindən istifadə olunduğu kimi, **Qiyamət günündə şəhadət verənlər aşağıdakılardan ibarətdir:**

**Birinci: Allah-təala;**

**İkinci: İslam ümmətinin peyğəmbəri;**

**Üçüncü: İnsanın bədən üzvləri;**

**Dördüncü: Mələklər;**

**Beşinci: Yer;** (Bu barədə Həcc surəsi, ayə 17, Nisa surəsi, ayə 41, Nəhl surəsi, ayə 89, Nur surəsi, ayə 24, Qaf surəsi, ayə 21 və Zəlzələ surəsi 4-5-ci ayələrə baxa bilərsiz).

Həmçinin Qurani-kərimdə Qiyamət günündə İslam ümməti, əməllər kitabı və əməllərin şəhadət verməsi barədə də söz açılmışdır. (Bu barədə

Bəqərə surəsi ayə 143, Kəhf surəsi ayə 49, Ali İmran surəsi ayə 30 baxa bilərsiz).

**7-Əməllər kitabının verilməsi;**

Axirət aləminin həyəcanlı mərhələlərindən biri də insanlara əməllər kitabının verilməsidir.

Bu kitab insana sağ tərəfdən verilərsə, onun cənnətə, sol tərəfdən verilərsə, cəhənnəmə gedəcəyi məlum olacaqdır.

İnsanların bütün yaxşı və pis işləri bu kitabda yazılı halda təhvil veriləcəkdir ki, Qurani-kərimdə bu haqda belə buyurulur:

«Onlar deyərlər: Vay olsun bizə! Bu nə cür kitabdır ki, bizim bütün kiçik və böyük əməllərimizi (unutmamış) və saxlamışdır!».

**8-Sirat körpüsü;**

Axirət aləminin ən qorxulu mərhələlərindən biri də bütün insanların siratdan keçməsidir. Sirat yeddi dayanacaqdan ibarət bir körpüdür. Bu dayanacaqlar aşağıdakılardan ibarətdir:

**Birinci: Rəhim (qohum-əqrəba ilə yaxşı rabitə), əmanət və məsumların vilayət və imaməti;**

**İkinci: Namaz;**

**Üçüncü: Xüms və zəkat;**

**Dördüncü: Oruc;**

**Beşinci: Həcc;**

**Altıncı: Təharət və təmizlik;**

**Yeddinci: Məzalim (xalqın hüquqları).**

Məryəm surəsinin 70-ci ayəsinə əsasən, bütün insanlar bu sirat körpüsündən keçməli, amma günahkarlar sirat üzərində büdrəyib Cəhənnəmə düşəcəklər.

Sadaladığımız yeddi dayanacağın hər birində insandan bu əməllərin yerinə yetirib-yetirməməsi soruşulacaq, onları yerinə yetirmişsə, tez keçəcək, əks təqdirdə isə ayağı büdrəyəcəkdir. Amma mömin şəxslər bu körpünü bir gözqırpımında keçəcəklər.

**9-Behişt ya Cəhənnəm:**

Axirət aləminin sonuncu və əbədi mərhələsi Cənnət və ya Cəhənnəmdən ibarətdir ki, Cənnət yaxşı əməl sahibləri olan möminlər, Cəhənnəm isə müşrik və kafirlər üçün əbədi bir yerdir.

Məşhur alim Şeyx Səduq (r.ə.) bu barədə deyir:

«Cənnət haqda əqidəmiz belədir: Həqiqətən Cənnət əbədilik və sağlamlıq evidir. Orada ölüm, qocalıq, xəstəlik, ziyan və fanilik yoxdur. Həmçinin Cənnətdə heç bir qəm-qüssə, hacət və yoxsulluq olmayacaq. Cənnət ehtiyacsızlıq və səadət evidir.

Cəhənnəm haqda olan əqidəmiz isə belədir: Həqiqətən Cəhənnəm zillət evi olub, küfr və günah əhlindən intiqam alınmaq yeridir ki, yalnız küfr və şirk əhli orada əbədi olaraq qalacaqdır».

# QURAN

Quran Allah tərəfindən İslam peyğəmbərinin (s) qəlbinə nazil edilmiş səmavi kitabdır. O 23 il ərzində göndərilmişdir. Quran 114 surədən ibarətdir. Bu səmavi kitab insanları qəflət yuxusundan oyatmaq, onları ətraflarındakı təhlükələrdən xəbərdar etmək, yol verdikləri şirk və günahları onlara xatırlatmaq məqsədi izləyir. Bəli, Quran insanın agahlıq mənbəyi, qəlb və ruhun paklıq səbəbidir. Onda bəyan olunmuş maarif və inanclar, isbat yolları, ictimai qanunlar, insanın tərbiyəsi üçün nəzərdə tutulmuş proqramlar böyük bir həqiqətdən danışır. Qeyri-adi məzmunlu bu kitabın dərs oxumamış, yetərsiz bir mühitdə ərsəyə gəlmiş bir şəxs tərəfindən bəyan olunması əslində onun Allah tərəfindən göndərildiyini göstərir. Mühüm vəzifələrimizdən biri budur ki, doğru yol göstərən bu kitabdan lazımınca faydalanaq, onu taxçalardan, qəbristanlıqlardan, falçıların əlindən xilas edib, bəşəriyyətin xilası üçün istifadə edək.

# İLAHİ KİTABLAR HANSILARDIR?

Allah – taalanın öz peyğəmbərlərinə vəhy yolu ilə göndərdiyi hökmləri özündə birləşdirən kitablara «İlahi kitablar» deyilir. İlahi kitablar ya peyğəmbərin öz əli ilə tərtib edilir, ya da peyğəmbərin diqtəsi altında sədaqətli tərəfdarları vasitəsilə yazıya alınır.

Quranda ilahi kitablara inanmaq hər bir müsəlman üçün vacib sayılır: «Ey iman gətirənlər! Allah, onun elçisinə (yəni Qurana) və ondan əvvəl göndərilmiş kitablara iman gətirin!» («Nisa» surəsi, 136 – cı ayə)

Müsəlman Allahın göndərdiyi bütün haqq peyğəmbərlərə iman bəsləməlidir. Çünki bütün peyğəmbərlər Allah tərəfindən eyni məqsədlə gəlmiş və eyni qanunları təbliğ etmişlər. Fərq yalnız onların gətirdiyi bəzi şəriət hökmlərinin icra tərzində və ibadətlərdə idi. Əgər bütün peyğəmbərlərə iman bəsləmək və onlara ehtiram göstərmək vacibdirsə, həmin peyğəmbərlərə göndərilmiş müqəddəs kitablara da inanmaq və ehtiram bəsləmək vacib olmalıdır. Çünki bu kitabların hamısı Allah tərəfindən müxtəlif zamanda endirilmişdir (ayrı – ayrı xalqlar üçün göndərilmələrinə və sonradan təhrif edilib dəyişdirilmələrinə baxmayaraq).

«İlahi kitablar» deyərkən dörd əsas kitab – «Tövrat», «Zəbur», «İncil» və «Quran», bunlardan əlavə, bəzi peyğəmbərlərə göndərilmiş səhifələr (bunlara «sühuf» deyilir) nəzərdə tutulur.

## İLAHİ KİTABLARIN ƏSAS XÜSUSİYYƏTLƏRİ

İlahi kitablar yalnız peyğəmbərlərə göndərilir.

Bütün ilahi kitablardakı hökmlər insanın başa düşəcəyi və əməl edə biləcəyi səviyyədə olmuşdur. Çünki Allah insanlara daşıya biləcəklərindən artıq yük verməz. Qurana qədərki ilahi kitabların hər biri müəyyən xalq üçün göndərildiyindən, onlardakı hökmlər də həmin xalqın adət – ənənələrinə, coğrafi şəraitinə, inkişaf səviyyəsinə uyğun idi.

Qurandan başqa bütün ilahi kitabların orijinalı ya itmiş, ya da təhrif edilmişdir. Məsələn, peyğəmbərlərə göndərilmiş səhifələr (sühuf) tarixin axarı ilə tamamilə itib – batmışdır. Yalnız hədislərdə bu səhifələrin bəzi fraqmentlərinə rast gəlmək mümkündür. «Tövrat», «Zəbur» və «İncil» isə müharibələr və yanğınlar nəticəsində məhv olmuş, sonralar insanların yaddaş və hafizəsinə əsasən, yenidən bərpa edilmiş, zaman – zaman gah qəsdən, gah

da bilməyərəkdən təhriflərə məruz qalmışdır. İlahi kitablar içində təhrif edilməmiş yalnız Qurani-kərim qalmışdır və Allahın zəmanəti ilə qiyamətə kimi toxunulmaz qalacaqdır.

Bütün ilahi kitabların orijinalı eyni mənbədən gəldiyi üçün, prinsipial məsələlərdə onların arasında fərq yox idi. İlahi kitabların hər biri insanları Allaha ibadət etməyə, öz zəmanəsinin peyğəmbərinə tabe olmağa, əxlaq qaydalarını gözləməyə çağırırdı. Bütün kitabların kökündə qeydsiz – şərtsiz olaraq, tovhid (təkallahılıq) ideyası dururudu. Biz də ilahi kitabların məhz orijinalına iman bəsləməliyik. İnanmalıyıq ki, bu kitabların orijinalının içindəki bütün yazılar haqq olmuşdur. Keçmiş ilahi kitabların bugünkü variantını inkar etmək və onlarda səhvlərin olduğunu söyləmək nəinki imana zərər gətirməz, hətta imanın əsaslarından hesab olunur.

## Digər İlahi kitablar

**«Sühuf (səhifələr)»**

Allah-taala ilk insanı yaratdıqdan bir qədər sonra onu özünə və özündən törəmiş insanlara peyğəmbər təyin edərək, ibadət və əxlaq qaydalarını ona

öyrətdi. Həzrət Adəm (ə) Allahdan 10 səhifə həcmində vəhy aldı. Adəmin (ə) səhifədərindəki hökmlər çox sadə idi və insan həyatının ənəsas sahələrini əhatə edirdi. Çünki o zaman Yer üzündə yaşayan insanların sayı hələ az idi, ictimai-siyasi, mədəni-əxlaqi münasibətlər yenicə yaranırdı.

Sonraki peyğəmbərlərdən Həzrət Adəm (ə) oğlu Şeysə (ə) 50, Həzrət İdrisə (ə) 30 və Həzrət İbrahimə (ə) 20 səhifə göndərildi. Beləliklə, müqəddəs səhifələrin sayı 110-dur.

**«Tövrat»**

Yer üzütdə insan cəmiyyəti çoxalıb ictimai münasibətlər inkişaf etdikcə, səhifələrdən daha iri həcmi kitablara ehtiyac yarandı. Allah-taala öz böyük peyğəmbərlərindən Həzrət Musaya (ə) «Tövrat» adlı kitab göndərdi. Rəvayətlərə görə, Musa (ə) Tur dağında 40 gün Allaha ibadət etdikdən sonra ona gil lövhələr üzərində yazılmış «Tövrat» verildi.

«Tövrat» yəhudilərin və xristianların müqəddəs hesab edikləri «Bibliya»nın birinci hissəsinin – «Qədim Əhd»in lap əvvəlində yerləşir. «Bibliya» 60-dan artıq kitabın məcmusudur. O, «Qədim Əhd» və «Yeni

Əhd» adlı iki hissəyə bölünür. «Qədim Əhd»ə aid olan kitablara həm yəhudilər, həm də xristianlar inanırlar. «Yeni Əhd»i isə yalnız xristianlar qəbul edirlər. «Bibliya»nın lap əvvəlindəki 5 kitab ümumi şəkildə «Tövrat» adlandırılır.

Beləliklə bugünkü «Tövrat» 5 kitabdan ibarətdir. Bu kitablar aşağıdakı ardıcıllıqla düzülüb.

1. «Təkvin»- bu kitabda dünyanın yaranmasından başlayaraq, Yusif peyğəmbərin (ə) vəfatına qədər baş vermiş tarixi hadisələr təsvir edilir.

2. «Çıxış»-bu kitabda Həzrət Musa Peyğəmbərin (ə) dini yaymaq yolunda apardığı mübarizələr təsvir olunur.

3. «Leviy»- bu kitab, əsasən, şəriət hökmlərinin izahından ibarətdir.

4. «Rəqəmlər»-Həzrət Musanın (ə) rəhbərliyi altında vətənə dönən Bəni-İsrailin sərgüzəştlərini, habelə, bəzi dini hökmləri əhatə edir.

5. «Təsniyə»-Həzrət Musanın (ə) öz xalqına nəsihətlərindən və ömrünün son dövrünün təsvirindən ibarətdir.

Bütün tarixçilərin etiraf etdiyi kimi, «Tövrat» tarix boyu bir neçə dəfə məhv edilmiş, sonradan bərpa olunmuşdur. Məsələn, e.ə. VI əsrin sonlarında

Babil hökmdarı Navuxodonosor Qüdsü yerlə-yeksan edərkən, «Tövrat» nüsxələri yandı. Bundan sonra əzbər bildiklərini iddia edən bəzi şəxslər öz hafizələrinə əsasən onu yenidən yazdılar. Şübhəsiz ki, bugünkü «Tövrat» Həzrət Musaya göndərilmiş kitabın əsli deyildir. Hal-hazırda əldə olan «Tövrat»da xeyli ağlasığmaz səhvlər, cəfəng məlumatlar, hətta peyğəmbərlərin ünvanına təhqirlər vardır. Məsələn, orada Nuh Peyğəmbərin (ə) şərab içib sərxoş olması, Lut Peyğəmbərin (ə) öz doğma qızları ilə evlənməsi, Yəqub Peyğəmbərin (ə) Allahla güləşib onu yıxması və s. xəbər verilir. Ən qəribəsi odur ki, indiki «Tövrat»-da Həzrət Musanın (ə) ölümü ətraflı təsvir eilib! Necə ola bilər ki, Həzrəti Musaya (ə) endirilmiş kitabda onun öz ölümü göstərilsin?! Qurani-Kərimdə yəhudilərin «Tövrat»ı dəyişdirdikləri barədə buyurulur: «Yəhudilərdən bəziləri Allahın sözlərini dəyişdirib, mənasını təhrif edirlər» («Nisa» surəsi, 46-cı ayə).

**«Zəbur»**

«Zəbur» Həzrət Davud Peyğəmbərə (ə) endirilmiş müqəddəs kitabın adıdır Həzrət Davud (ə) gözəl səsə malik idi və xoşa gələn avazla dua edirdi.

Buna görə də Allah-taala ən gözəl duaların mətnini Davuda (ə) vəhy etdi ki, onları oxusun. Quranda deyilir: «Biz Davuda (ə) «Zəbur»u verdik» («Nisa» surəsi, 163-cü ayə).

«Zəbur» təqribən 150 nəğmədən ibarətdir. Onlarda Allahın sifətləri , qüdrəti, mərhəməti tərənnüm edilir, insanlar Allaha ibadət etməyə çağırılır. Əlbəttə, bugünkü «Zəbur»da müəyyən təhriflər və nöqsanlı cəhətlər də vardır. Digər ilahi kitablar kimi «Zəbur»da təhrifçilərin etdiyi dəyişiriklərə məruz qalmışdır.

**«İncil»**

«İncil» -yunanca «Yevanqe-liya» (müjdə) sözünün ərəbləşdirilmiş variantıdır. Əslində «İncil»-Allah tərəfindən Həzrət İsa Peyğəmbərə (ə) göndərilmiş ilahi kitabdır. «Peyğəmbərlərin ardınca «Tövrat»-dakıları təsdiq edən, Məryəmin oğlu İsanı (ə) göndərdik. Ona «Tövrat»-dakıları təsdiq edən, yol göstərici kitab və nur. Allahdan qorxanlar üçün hidayət və nəsihət olan «İncil verdik» («Maidə» surəsi 46-cı ayə).

Lakin bu günkü «İncil»lər əsl «İncil»lə heç bir əlaqəsi olmayan kitabdır.

Müasir «İncil» lər əsl «Bibliya»nın «Əhdi-ətiq» hissəsinin əvvəlini təşkil edir. «İncil»lərdən əlavə , «Müqəddəs apostolların əməlləri» və «İohannın» açıqlaması» kitabları habelə, apostolların müxtəlif şəhərlərə göndərdiyi 30-dən artıq məktub da «Əhdi-ətiq»ə daxildir.

«İncil»lərin sayı 4-dür:

1. «Matfey İncili»;
2. «Mark İncili»;
3. «Luka İncili»;
4. «İohann İncili»;

Bu «İncil» müəlliflərindən ikisi – Matfey və Mark Həzrət İsanın (ə) apostollarından idilər. O biri müəllifflər - Luka və İohann isə İsanın (ə) apostollarının şagirdləri idilər. Həzrət İsa (ə) Allahın ona göndərdiyi əmrləri camaata təbliğ edirdi. Lakin İsadan (ə) azacıq sonra bu əmrlər insanlar tərəfindən təhrif edildi və orijinallar məhv edildi. Bunun əvəzində İsanın (ə) bəzi şagirdləri və şagirdlərinin şagirdləri öz xatirələri əsasında Peyğəmbərin həyatını və sözlərini qələmə almağa başladılar. Bugünkü «İncil»lərin ən ilkini və orijinal hesab edilən yunanca nüsxələri, əslində, tərcümədir. Çünki

Həzrət İsa (ə) yəhudi dilində danışırdı. Xristianların özləri də onun Allah tərəfindən göndərilmədiyini, əksinə, müəlliflərin əliylə yazdığını etiraf edirlər. Məlumdur ki, xristianlığın ilkin dövrlərində müxtəlif şəxslər tərəfindən yazılmış çoxlu «İncil»lər var idi. Lakin sonralar 325-ci ildə Nikey şəhərində toplanmış kilsə qurultayında bu «İncil»lərin əksəriyyəti qeyri-qanuni və etibarsız sayıldı. Yalnız yuxarıda adları çəkilən dörd «İncil» kilsə tərəfindən etibarlı mənbə kimi tanındı.

# FÜRUİ-DİN

***İslam dininin ikinci hissəsi «Firui-din» (yəni, əməllər)-dir. Onun vacib əməllərinin sayı 10 -dur. Fürui-dinin haqqında geniş məlumat almaq istəyən oxucular «Tövzihul-məsail» (şəriət hökmlərinin izahı) və digər şəriət hökmləri kitablarına müraciət etsinlər.***

## 1. «NAMAZ»

Əziz müsəlman oxucusu, bildiyiniz kimi, namaz dini hökümlər sırasında xüsusi əhəmiyyətə malikdir. Peyğəmbərmizin (s) buyurduğuna əsasən Qiyamət günündə hər kəsin namazı qəbul olunarsa digər savab əməlləri də qəbul olunar. Əks təqdirdə sair əməl və ibadətləri də rədd ediləcəkdir.

Namaz insanları doğruluğa, imana və təmizliyə yönəldən böyük bir ibadətdir. Bu barədə altıncı imamımız İmam Cəfəri Sadiq (ə) belə buyurmuşdur:

«Qiyamət günü Allah dərgahında ən fəzilətli ibadət namazdır».

Namaz insan ruhunun ən ali qidası, saysız hesabsız çətinlik, iztirab və günahlar qarşısında mühüm qoruyucu amildir.

Qurani-Kərimdə buyurulduğu kimi: «Həqiqətən, namaz insanı çirkin və pis işlərdən çəkindirir». («Ənkəbut»,45-ci ayə).

Əziz islam Peyğəmbərimiz həzrəti Məhəmməd (s) namazı dinin sütunu adlandırmışdır.

Beləliklə hər bir müsəlman namaza xüsusi əhəmiyyət verməli, bu yolla öz dünya və axirət səadətini təmin etməlidir.

Hər bir müsəlman gündəlik 24 saat ərzində müəyyən edilmiş şərii vaxtlarda 17 rükətdən ibarət vacib gündəlik namazlarını qılmalıdır.

Əlinizdə olan bu kitabçada namazın qılınma qaydaları sadə və qısa şəkildə göstərilmişdir.

Namazın və təharətin digər şəri hökmləri də vardır ki, onları öyrənmək üçün (təqlid etdiyiniz müctəhidin) «Tövzihul-məsail» (Şərii hökmlər toplusu) kitabına müraciət edə bilərsiniz.

## NAMAZIN NÖVLƏRİ

Namaz ümumi şəkildə iki qismə bölünür: vacib və müstəhəb.

### A) MÜSTƏHƏB NAMAZLAR

Müstəhəb namazlar çoxdur və bu namazlar "nafilə" adlanır. Bu nafilələrdən biri gün uzunu qılınan nafilələrdir və onlar cümə günü 38, digər günlər 34 rəkətdir. Onlardan biri də gecə vaxtı qılınan və hədislərdə fəziləti çox sifariş olunan Gecə namazıdır.

**Gecə namazı** 11 rəkətdir və aşağıda göstərilən şəkildədir:

1. Sübh namazı kimi iki rəkətli dörd namaz. Bu namazlar gecə namazı niyyəti ilə qılınır.

2. Əvvəlki dörd namaz kimi ikirəkətli şəf' namazı.

3. Sonda “vətr namazı” niyyəti ilə qılınan bir rəkət namaz. Bu namazın niyyətindən sonra həmd və surə oxunur, qunut tutulur. Qunutda möminlərə də dua edilir. Sonra rükuya gedilir, rükudan sonra iki səcdə yerinə yetirilir. Vətr namazı təşəhhüd və salamla başa çatır.

Qeyd etməliyik ki, bu namazlarda azan və iqamə yoxdur. Gecə namazlarının istənilən birində 2-ci rəkətdə rükudan öncə qunut tutub dua etmək, raz-niyaza məşğul olmaq mümkündür. Şəf’ namazında savab ümidi ilə ehtiyatən qunut tutulur. Vətr namazında isə qunut nə qədər uzun olarsa bir o qədər faydalıdır. Gecə namazının vaxtı gecə yarıdan sübh azanınadəkdir. Bu namazı sübh azanına yaxın bir vaxtda qılmaq daha yaxşıdır. Səfərdə olan və ya bu namazı vaxtında qılmağa çətinlik çəkən şəxs onu gecənin əvvəlində qıla bilər.

## B) VACİB NAMAZLAR

### 1) Yovmiyyə (gündəlik) namazları

Gündəlik (yovmiyyə) namazları aşağıdakılardan ibarətdir:

1.Sübh namazı 2 rükət
2.Zöhr namazı 4 rükət
3.Əsr namazı 4 rükət
4.Şam namazı 3 rükət
5.İşa namazı 4 rükət

**2) Ayət namazı:**

Bu namaz insana dörd yerdə vacibdir:
1.Gün tutulan zaman;
2.Ay tutullan vaxt;
3.Zəlzələ baş verdikdə;
4.Şimşək çaxdıqda, qırmızı, qara küləklər əsdikdə. (Qorxudacaq dərəcədə)

Bu namazın qılınma qaydası gündəlik namazlardan bir az fərqlidir. Öyrənmək üçün oxucular şərii hökmlər kitablarına müraciət edə bilərlər.

**3) Meyyit namazı:**

Bu namaz müsəlman bir şəxs mərhum olduqda (vəfat etdikdə) qılınır.

**4) Allah evi Kəbənin vacib təvafı üçün qılınan namaz:**

**5) Dünyadan getmiş atasının böyük oğula vacib olan qəza namazı.**

# GÜNDƏLİK NAMAZLARIN QILINMA QAYDASI

***Namazdan qabaq dəstəmaz almaq vacibdir və dəstəmazsız qılınan namaz qəbul deyildir.***

**Dəstəmazın alınma qaydası**

**1-Niyyət etmək:** Dəstəmaz alıram vacib qürbətən iləllah demək və ya qəlbdən keçirtmək. Bu sözün mənası: « Allaha yaxınlaşmaq üçün dəstəmaz alıram» - deməkdir.

**2- Üzü yumaq:** Üz, alının tük bitən hissəsindən çənəyə qədər və həmçinin sağ qulaqla sol qulaq arasında olan yerə qədər yuyulmalıdır. (Şək.1)

**3-Sağ qolu yumaq:** Sağ qol, sol əlimizlə dirsəkdən barmaqların ucuna qədər yuxarıdan aşağı yuyulmalıdır.

***4-Sol qolu yumaq:*** Sol qol, sağ əlimizlə dirsəkdən barmaqların ucuna qədər yuxarıdan aşağı yuyulmalıdır. (Şək. 2)

***5-Başa məsh çəkmək:*** Sağ əlimizin yaşı ilə başın qabaq hissəsindən alına tərəf əl çəkmək. (Şək. 3)

***6-Sağ ayağa məsh çəkmək:*** Yaş olan sağ əlimizlə sağ ayaq barmaqlarının ucundan topuq hissəsinədək əl çəkmək.

***7-Sol ayağa məsh çəkmək:*** Yaş olan sol əlimizlə sol ayaq barmaqlarının ucundan topuq hissəsinədək əl çəkmək. (Şək. 4)

***Qeyd etmək lazımdır ki, dəstəmazın məsh olunan əzaları gərək pak və quru olsun.***



**Dəstəmazın bir neçə şərti**

• Dəstəmaz qürbət niyyəti ilə (yəni Allahın razılığını qazanmaq qəsdi ilə) olmalıdır

• Dəstəmazın suyu pak və mütləq olmalıdır (yəni başqa bir şeylə qarışmamış su ilə olmamalıdır);

• Dəstəmaz üzvləri pak olmalıdır;

• Dəstəmaz suyunun bədənə yetişməsində maniə olmamalıdır.

**Dəstəmazı pozan şeylər**

• Bövl, ğait (kiçik və böyük ayaqyolu);

• Bağırsaqdan xaric olan yel;

• Yatmaq;

• Ağlı aradan aparan şeylər (dəlilik, məstlik, ürəkkeçmə və s. kimi);

• Qadınların aylıq halı (heyz, istihazə);

• Qüsullu olmaq. (Cənabətli olmaq və heyz, istihazə və s. kimi qüsl gətirənlər).

***Diqqət:*** *(Meyit namazından başqa) bütün vacib və müstəhəb namaz-larda, Kəbənin təvafinda və Quranın yazısına toxunduqda dəstəmaz almaq vacibdir.*

***Hansı işlərdən qabaq dəstəmaz almaq vacibdir?***

Müəyyən işlərdən öncə dəstəmaz almaq vacibdir:

1. Bütün müstəhəb və vacib namazlar üçün;
2. Allah evinin vacib təvafı üçün;
3. Dəstəmaz alınması ilə bağlı and içildikdə, nəzir və ya əhd edildikdə;
4. Bədəninin hansısa bir hissəsini Quranın yazısına toxundurduqda.

## SÜBH namazını qılmaq qaydası

***Dəstəmaz aldıqdan sonra qibləyə tərəf durur və namaza başlayırıq.***

**1-AZAN:**

Allahu əkbər (4 dəfə).

Əşhədu əl-la ilahə illəllah (2 dəfə).

Əşhədu ən-nə Muhəmmədən Rəsuləllah  (2 dəfə).
Əşhədu ən-nə Əliyyən vəliyyullah  (2 dəfə).
Həyyə ələs-səlat  (2 dəfə).
Həyyə ələl-fəlah  (2 dəfə).
Həyyə əla xəyril-əməl (2 dəfə).
Allahu əkbər (2 dəfə).
La ilahə illəl-lah (2 dəfə).

**2-İQAMƏ:**
Allahu əkbər  (2 dəfə).
Əşhədu əl-la ilahə illəllah  (2 dəfə).
Əşhədu ən-nə Muhəmmədən Rəsuləllah  (2 dəfə).
Əşhədu ən-nə Əliyyən vəliyyullah  (2 dəfə).
Həyyə ələs-səlat  (2 dəfə).
Həyyə ələl-fəlah  (2 dəfə).
Həyyə əla xəyril-əməl (2 dəfə).
Qəd qamətis-səlat  (2 dəfə).
Allahu əkbər (2 dəfə).
La ilahə illəl-lah (1 dəfə).

**3-NİYYƏT:** (Ayaq üstə duran halda) (Şək. 6)
"Sübh namazı qılıram vacib qürbətən iləllah" demək.

**4-TƏKBİRƏTUL-EHRAM:** (İki əlləri qulaqların yanına tərəf qaldırmaqla) "Allahu Əkbər" demək. (Şək. 5)

**5-QİRAƏT:** (Fatihə və Tohid (İxlas) surələrini ardıcıl oxumaq) (Şək. 6)

**Həmd (Fatihə) surəsi**

*Bismillahir-rəhmanir-rəhim*

**Əl-həmdu lil-lahi rəbbil aləmin. Ərrəhmanir-rəhim. Maliki yəvmid-din. İyyakə nə-budu və iyyakə nəstəin. İhdinəs-siratəl mustəqim. Siratəl-ləzinə ən-əmtə əleyhim. Ğəyril məğzubi əleyhim vələz-zallin.**

**Tovhid (İxlas) surəsi**

*Bismillahir-rəhmanir-rəhim*

**Qul huvəl-lahu əhəd. Allahus-səməd. Ləm yəlid və ləm yuləd. Və ləm yəkul-ləhu kufuvən əhəd.**

**6-RUKU:** (Əllər dizlərə yetişənə qədər əyilərək): (Şək. 7)

3 dəfə "Subhanəl-lah" və ya 1 dəfə "Subhanə rəbbiəl əzimi və bihəmdih". demək. Daha sonra ayağa qalxmaq.

**7- SƏCDƏLƏR:** (Yeddi üzv - alın möhürə, iki əllərin içi, iki diz qapaqları və iki ayağın baş barmaqları isə yerə qoyularkən deyilir:) 3 dəfə " Subhanəl-lah və ya 1 dəfə Subhanə rəbbiəl ə-la və bihəmdih". (Şək. 8)

Birinci səcdədən baş qaldıraraq bir anlıq diz üstə oturur (Şək.10) və bir daha səcdəyə gedərək həmin zikri təkrar oxuyuruq.

İkinci səcdədən sonra yenidən bir anlıq dizi üstə otururuq. Bununla namazın birinci rükətini qılmış oluruq. Sonra İkinci rükəti qılmaq üçün ayağa dururuq. (Şək. 6)

**8- QİRAƏT** 5-ci əməldəki kimi qiyam halında (ayaq üstə) yenə də Fatihə və Tövhid surələrini oxuyuruq. (Şək 6)

**9- QUNUT:** (İki əllərin içini üzümüz önündə tutaraq)

Bu halda dualardan birini oxuyuruq. Məsələn " Rəbbəna atina fid-dunya həsənətən və fil-axirəti həsənə və qina əzabən-nar" və ya salavat (Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd) demək. (Şək. 9)

**10-RUKU:** (6-cı əməldəki kimi). (Şək. 7)
**11-İKİ SƏCDƏ:** (7-ci əməldəki kimi). (Şək. 8)

**12-TƏŞƏHHÜD:** (ikinci səcdədən sonra dizi üstə əyləşən halda) (Şək.10) belə deyirik:

**Əlhəmdu lillah, əşhədu əlla ilahə illəl-lah, vəhdəhu la şərikə ləh. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh, Allahummə salli əla Muhəmmədin və ali Muhəmməd.**

**13-SALAM:** Təşəhhüddən sonra eyni vəziyyətdə oxuyuruq: (Şək. 10)

**Əssəlamu əleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh.**
**Əssəlamu əleynə və əla ibadillahis-salehin.**
**Əssəlamu əleykum və rəhmətullahi və bərəkatuh.**

***Salamı dedikdən sonra üç dəfə "Allahu əkbər" deyir və bununla da Sübh namazı sona çatır.***


5


6


7


8


9


10

## ZÖHR namazı

Zöhr namazı 4 rükətdir, qılınma qaydası belədir:

**1-Niyyət:** "Zöhr namazı qılıram vacib qürbətən iləllah" sözünü qəlbdən keçirtmək və ya demək .

**2-Təkbirətul-ehram:** "Allahu əkbər" demək.

Təkbir dedikdən sonra eynilə Sübh namazı kimi qılınır, lakin təşəhhüddən sonra salamı demədən ayağa qalxaraq üçüncü və dördüncü rükətləri aşağıda göstərilən şəkildə tamamlayırıq:

**3-TƏSBİHATİ ƏRBƏƏ:** Qiyam halında oxuyuruq:

"Subhanəllahi vəl-həmdu lillahi və la ilahə illəllahu vallahu əkbər". (Şək. 6)

**4-Ruku.**

**5- İki səcdə.**

İkinci səcdədən qalxdıqdan sonra bir daha ayağa qalxır və üçüncü rükət kimi dördüncü rükəti belə qılırıq:

**6-Təsbihat ərbəə. (3 dəfə).**

**7-Ruku.**

**8-İki səcdə.**
**9-Təşəhhüd.**
**10-Salam** (Sonra üç dəfə təkbirlə namazı tamamlayırıq).

## ƏSR namazı

Əsr namazının qılınma qaydası eynilə 4-rükətli Zöhr namazı kimidir. Lakin fərqi təkcə niyyətindədir. Bu namazın niyyəti belədir:

"Əsr namazı qılıram vacib qürbətən iləllah".

## ŞAM (Məğrib) namazı

Məğrib namazı 3 rükətdir. Bu namazın qılınma qaydası belədir:

1-Niyyət: «Şam və ya Məğrib namazı qılıram vacib qürbətən iləllah».

2-Niyyətdən sonra bir və ikinci rükətləri eynilə Sübh namazı kimi qılınır, amma 2-ci rükətdə təşəhhüddən sonra salamı demədən ayağa qalxıb 3-cü rükəti qılmağa başlayırıq.

Şam namazının 3-cü rükəti, Zöhr və Əsr namazının 3-cü rükəti kimi qılınır.

Şam namazının 3-cü rükətində iki səcdəni yerinə yetirdikdən sonra təşəhhüd və salam deyilir və üç dəfə «Allahu əkbər» dedikdən sonra namaz tamamlanır.

## İŞA namazı

İşa namazı da 4 rükətli Zöhr və Əsr namazları kimi qılınır. Bu namaz da təkcə niyyətdə fərqlənir. İşa namazının niyyəti belədir:

«İşa namazı qılıram vacib qürbətən iləllah».

Qeyd etməliyik ki, Sübh, Məğrib və İşa namazlarında kişilər «Həmd» (Fatihə) və «İxlas» (Tohid) surələrini ucadan, Zöhr və Əsr namazlarını, həmçinin Şam və İşa namazlarının təsbihatlarını astadan oxumalıdırlar.

## *Namazda bir neçə şeyə diqqət yetirmək lazımdır.*

- Namaz halında danışmamaq;
- Namaz halında qəh-qəhə ilə gülməmək;
- Namaz halında yemək və içməkdən çəkinmək;
- Namaz halında qiblədən üz döndərməmək;

• Həmd və surədən sonra amin deməmək;

• Namaz qılarkən əlləri bir-birinin üstünə qoymamaq və s. (Qeyd olunanların hamısı namazı batil edir (pozur).

• Namazı pak yerdə qılmaq. Qəsbi yerdə (icazəsiz başqasının məkanında) qılmamaq.

• Namazı pak paltarda (9 nəcasətə toxunulmamış) paltarda qılmaq.

• Qızlar və qadınlar həm namaz qılarkən, həm də başqa vaxtlarda dini örtüyə riayət etməlidirlər.

## MÜSAFİRİN namazı

Şəriətimizin qanunlarına əsasən, hər hansı bir şəxs məskunlaşdığı yerdən, yəni məntəqədən, kənddən və ya şəhərdən 22,5 km. uzaqlaşarsa, gündəlik dörd rükətli namazlarını qəsr, yəni iki rükət qılmalıdır. Həmçinin, qeyd olunan məsafə qədər yaşadığı yerdən uzaqlaşdıqda, oruc tutmaq da, qadağandır. Lakin aşağıdakı hallarda insan səfərdə olmasına baxmayaraq, gündəlik namazlarını tam qılmalı və səfər Ramazan ayına təsadüf edərsə, oruc da tutmalıdır:

- Haram buyrulmuş işləri yerinə yetirmək üçün səfər etdikdə;
- Səfər etdiyi yerdə on gün və daha artıq qalmağını planlaşdırdıqda;
- Daim çalışdığı hər hansı bir müəssəyə işləmək məqsədi ilə getdikdə (hətta ən azı 10 gündə bir dəfə getsə belə);
- İşləyən şəxsin sənəti səfər etməkdən ibarət olduqda; məsələn, sürücü kimi.

## AYƏT namazı

Təbiətdə baş verən bəzi hadisələr zamanı ayət namazı qılmaq insana vacib olar, məsələn, Günəş və Ay tutulması, zəlzələ, camaatın əksəriyyətini qorxu və təşvişə salan güclü göy gurultusu və ildırım, həmçinin şiddətli külək və s. Ayət namazı sübh namazı kimi iki rükətdən ibarətdir. Sadəcə olaraq bu namazın hər rükətində 5 ruku vardır. Yəni sübh namazında deyilən həmd surə və ruku etmək eynilə beş dəfə təkrarlanır və bundan sonra səcdə yerinə yetirilir. Deməli, 5 həmd surə, beş ruku və iki səcdədən sonra birinci rükət tamamlanır. İkinci rükət də eyni ilə birinci rükət kimidir və sonda, sübh namazında olduğu kimi təşəhhüd, salam deyilir və bununla da namaz tamamlanır.

## CAMAAT namazı

Şəriətimizin buyurduğuna əsasən, vacib namazları, xüsusi ilə gündəlik namazları camaatla birgə qılmaq müstəhəbbidir. Yəni camaatla birgə qılınan namazın savabı daha çoxdur. Camaat namazı qılarkən öndə dayanan şəxs (imam cəmaət) aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

1. Həddi-buluğa yetişmiş olmalı;
2. Aqil (ağıl sahibi) olmalı;
3. Adil (ədalətli) olmalı;
4. On iki imama inanan olmalı;
5. Halalzadə olmalı;

***Diqqət:*** *Qeyd etmək lazımdır ki, imam cəmaətin kişi olması vacibdir. Lakin namazda, yalnız qadınlar iştirak edərsə, bu halda qadın da imam cəmaət ola bilər.*

## 2. «ORUC»

Hər il mübarək Ramazan ayının əvvəlindən sonunadək, sübh azanından məğrib azanına qədər, yemək, içmək və digər 8 əməldən çəkinmək. (Bu haqda sonra deyiləcək)

Oruc tutmaq mənəvi paklıqla yanaşı, insan orqanizminə də sağlamlıq bəxş edir. Oruc tutan şəxs ac qalmaqla yoxsulların vəziyyətini xatırlayır.

Allah taala (Bəqərə surəsinin 183-cü ayəsində) buyurmuşdur: «Ey iman gətirənlər! Oruc tutmaq sizdən qabaqkı ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə (bunun vasitəsi ilə) siz təqvalı olasınız».

## ORUCUN NÖVLƏRİ

Oruc 4 növdür: Vacib, Haram, Məkruh və Müstəhəbb.

**1. Vacib oruclar:**

- Ramazan ayının orucu; (30 və ya 29 gün).
- Qəza orucu; (Neçə gün olsa, o qədər).
- Kəffarə orucu; (1-günə 60 gün).

- Nəzir orucu;  (Neçə gün nəzir etsə).
- Vəfat edən atanın qəza orucu; (Bu böyük oğula vacibdir).

**2. Haram oruclar:**

- Fitr bayramı günü tutulan oruc;
- Qurban bayramı günü tutulan oruc;

**3. Məkruh oruc:**

- Aşura günündə tutulan oruc.

**4. Müstəhəb oruclar:**

• Haram və məkruh orucların günlərini çıxmaqla ilin bütün günlərində oruc tutmaq müstəhəbdir.

• Cümə axşamı və cümə günlərinin orucu;

• Bir neçə dini bayram günləri; o cümlədən: Məbəs, Qədir-xum, Peyğəmbərin mövlud günü.

• Rəcəb və Şaban ayının bütün günləri.

## ORUC TUTAN 9 ŞEYDƏN UZAQ OLMALIDIR

**Bunlar orucu pozur:**

1) Yemək və içmək; (bilərəkdən hər hansı bir qidanı qəbul etmək).

2) Cima (cinsi əlaqə); (istər kişi istərsə də qadının cinsi əlaqədə olması).

3) İstimna (anonizm); (hər hansı üsulla olursa olsun cinsiyyət mayesinin (spermanın) xaric edilməsi).

4) Qatı tozun boğaza yetişməsi; (və eləcə də tüstünü udmaq).

5) Başı suya batırmaq; (Əgər tamamilə bir dəfəyə batırarsa).

6) Sübh namazına qədər cənabət, heyz, və nifas halında qalmaq.

7) İmalə (klizma); (axıcı, maye şeylərlə bədənə imalə etdirmək).

8) Qusmaq; (Qəsdən qusarsa).

9) Allah, Peyğəmbər (s) və imamların adından yalan demək, Bilərəkdən Quran ayələrini səhv oxumaq, yalan hədislər söyləmək.

Diqqət: Müalicə üçün vurulan qan iynəsi, bədəni qüvvətləndirən iynələr. Məsələn, tibbi qida kimi damara vurulan (qlukoza) iynələri, sistem iynələr və s.), bunlar da orucu pozarlar. Lakin ağrı kəsici, və yaranı qurutmaq üçün vurulan iynələr batil etməz.

## 3. «XUMS»

Dünya malından şəxsi qazancının illik xərcindən artıq qalan hissəsinin beşdə birinin yarısını (müctehidin əli və yə göstərişi ilə) seyyidə və qalan hissəsini isə imama (qeybdə olduğu dövrdə) müctehidə) verməlidir.

Allah-taala xums haqqında olan hökmü Quranda, «Ənfal» surəsinin 41-ci ayəsində buyurmuşdur.

**XUMS 7 şeyə vacibdir**

1. Qazanc mənfəətinə; (halal yolla əldə edilən məvacib)
2. Mədənə;
3. Xəzinəyə;
4. Harama qarışmış halal mala;

5. Dənizin dibindən çıxarılan cəvahirata;

6. Müharibə qənimətlərinə;

7. Zimmi Kafirin (müsəlman ölkəsində yaşayan kafir) müsəlmandan aldığı torpağa.

***Diqqət:*** *Nə qədər ki, müsəlman malının (xums düşərsə) xumsunu verməyib malından istifadə edə bilməz.*

## 4. «ZƏKAT»

İslam dinində 9 şeydən (arpa, buğda, xurma, kişmiş, inək, qoyun, dəvə, qızıl, gümüş)-dən şəriət hökmləri kitabında yazılmış şəraitdə fəqir və maaşıyla özünü təmin edə bilməyən yoxsullara, yolda qalmış yolçulara və s.. zəkat vergisini vermək lazımdır.

Əziz oxucu xatırladaq ki, əgər dinimizin bu gözəl qanununa bütün müsəlmanlar əməl etsələr islam cəmiyyətində heç kəs yoxsulluqdan çətinlik çəkməz.

Alllah-taala Quranda dəfələrlə namaz qılmağa əmr edərkən dərhal sonra bizi zəkat verməyə çağırır: «Namaz qılın, zəkat verin və ruku edənlərlə birlikdə ruku edin!» (Bəqərə 43).

**ZƏKAT 9 şeyə vacibdir**

1. Buğdaya; 2. Arpaya; 3. Xurmaya; 4. Kişmişə; 5. Qızıla; 6. Gümüşə; 7. Dəvəyə; 8. İnəyə; 9. Qoyuna.

***Diqqət:*** *Zəkat o zaman vacib olar ki, nisab (şəriyyətdə təyin olunmuş ölçü) həddinə çatsın. Zəkat vacib olan şeylərin nisab həddi aşağıda göstərilmişdir.*

<table>
<tr><th>№</th><th>Malın növü</th><th>Nisab həddi</th><th colspan="3">Zəkatın miqdarı</th></tr>
<tr><td>1</td><td>Buğda</td><td rowspan="4">840- kiloqram</td><td>$\frac{1}{10}$</td><td colspan="2">Əgər yağış və çay suyu ilə suvarılıbsa.</td></tr>
<tr><td>2</td><td>Arpa</td><td rowspan="2">$\frac{1}{20}$</td><td rowspan="2" colspan="2">vedrə və su nasosu ilə suvarılıbsa.</td></tr>
<tr><td>3</td><td>Xurma</td></tr>
<tr><td>4</td><td>Kişmiş</td><td>$\frac{3}{40}$</td><td colspan="2">Əgər hər ikisi ilə suvarılıbsa.</td></tr>
<tr><td rowspan="2">5</td><td rowspan="2">Dəvə</td><td>25 Dəvə</td><td colspan="3">Hər 5-dəvəyə 1 qoyun</td></tr>
<tr><td>26 dan sonra</td><td colspan="2">1 Dəvə</td><td rowspan="5">Əgər çəmənlikdə, otlaqda otlayarsa.</td></tr>
<tr><td>6</td><td>İnək</td><td>30 inək</td><td colspan="2">İki illik bir buzov</td></tr>
<tr><td>7</td><td>Qoyun</td><td>40 qoyun</td><td colspan="2">1 qoyun</td></tr>
<tr><td>8</td><td>Qızıl</td><td>15 adi misqal</td><td colspan="2">$\frac{1}{40}$</td></tr>
<tr><td>9</td><td>Gümüş</td><td>105 adi misqal</td><td colspan="2">$\frac{1}{40}$</td></tr>
</table>

## ZƏKATI XƏRCLƏMƏK OLAR

- Fəqirə və miskinə (kasıba);
- İslam dininə yönələn və yaxud müharibədə müsəlmanlara kömək edən qeyri müsəlmanlara;
- Öz borcunu verə bilməyən borclulara;
- Allah yolunda; Yəni mənfəəti ümumi müsəlmanlara çatan, İslamın xeyrinə, məsləhətinə olan hər bir işə və s…

## FİTRƏ ZƏKATI

Mübarək Ramazan ayı qurtardıqdan sonra ( yəni fitr bayramı günündə) müsəlman öz malından biraz miqdarda fitrə zəkatı niyyəti ilə fəqirə (kasıba) verməlidir.

Bu zəkat insanın özü və çörək yeyənləri sayılan ailə üzvlərinin tərəfindən bir sa (təqribən 3 kq.) buğda, arpa, xurma, kişmiş, düyü və yə qarığdalıdan olmalıdır.

Əgər onlardan birinin pulunu da versə kifayətdir.

## 5. «HƏCC»

Özünün və ailəsinin xərcini ödəyəndən sonra imkanı olan surətdə, müəyyən şərtlər əsasında ömründə bir dəfə müqəddəs «Kəbə» evinin ziyarətinə getmək. Kəbə evi Səudiyyə Ərəbistanın Məkkə şəhərində yerləşir.

Boynuna həcc gələn müsəlman mütləq həmin ilin həcc mövsümündə həccə gedib borcunu yerinə yetirməlidir. Həccə etinasız yanaşıb, onu təxirə salmaq böyük günahlardan sayılır. Əgər insan boynuna həcc gəldiyi il etinasızlıq edib həccə getməzsə, bundan sonra mümkün olan ən tez müddətdə hər nə vasitə ilə olursa-olsun, həcci yerinə yetirməlidir.

Allah-taala bu barədə buyurmuşdur: «… Onun (Kəbənin) yoluna imkanı olan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə, (Özünə zülm etmiş olar). Əlbəttə Allah aləmlərdən ehtiyacsızdır».

(Ali-imran 97)

### Məkkə ziyarətinin növləri

Ümumiyyətlə, Məkkə ziyarəti iki növə bölünür: Ümrə və Həcc. Müsəlmanlar ilin istənilən vaxtında Məkkəyə gedib ümrə adlı ziyarəti yerinə yetirə bilərlər; yəni ümrənin müəyyən edilmiş vaxtı yoxdur. Bundan fərqli olaraq, Həcc ziyarəti yalnız şəriətin müəyyən etdiyi aylarda yerinə yetirilməlidir.

## Həccin növləri

Həcc ziyarəti öz növbəsində üç növə bölünür:
1) İfrad həcci;
2) Qiran həcci;
3) Təməttü həcci.
Kimlərin boynuna həcc düşür?

**Boynuna həcc gələn şəxsin vəziyyəti aşağıdakı şərtlərə cavab verməlidir:**

1. Əqli inkişaf baxımından normal olmalı;

2. Şəriət baxımından həddi buluğa çatmalı;

3. Kölə deyil, azad olmalı;

4. Həcc ziyarətini yerinə yetirmək üçün imanı və qüvvəsi olmalıdır. Yəni:

- Sağlam olmalıdır;
- Həcc səfəri boyunca keçəcəyi yol təhlükəsiz olmalıdır;
- Həcci öz zamanında yerinə yetirmək üçün kifayət edəcək qədər vaxtı olmalıdır;
- Ziyarət üçün kifayət edəcək qədər maddi imkanı (yol xərci, Məkkədə qalmaq xərci, qurbanlıq pulu və s.) olmalıdır;
- Özü həccdə ikən ailəsinin dolanması üçün maddi şəraiti irəlicədən təmin etməlidir;
- Həcc səfərindən qayıtdıqdan sonra özünün və ailəsinin dolanışığını təmin edəcəyinə arxayın olmalıdır.

Qeyd edilməlidir ki, insan özünün və ailəsinin yaşayışı üçün zəruri sayılan vəsaitə (ev, mükəlləfiyyət, geyim, ərzaq və s.) malik olduqdan sonra, artıq pulu qalarsa, boynuna həcc gəlmiş olur (həmin pulun xüms

və zəkatını da verdikdən sonra). Öz yaşayışını dözülməz həddə çatdırmaq sayəsində pul toplayan şəxsin həccə getməsi düzgün deyildir.

İnsanın ömrü boyu həcc bircə dəfə onun boynuna gələ bilər. Boynuna həcc düşmüş şəxsin həmin il həcci yerinə yetirdikdən sonra, növbəti illərdə yenə həcc imkanına malik olarsa, ikinci dəfə həccə getməsi vacib deyildir.

Boynuna həcc gəlmiş şəxs sağlamdırsa, özü həccə getməlidir. Amma əgər çox qoca olduğu üçün həcc əməllərini yerinə yetirə bilmirsə, yaxud sağalacağına ümid olmayan xəstəliyə tutulmuşdursa, öz əmlakından pul ayırıb, başqa bir adamı öz əvəzinə həccə göndərə bilər. Başqasının əvəzinə həccə gedən şəxsə «naib» deyilir. Həmçinin mərhum şəxs üçün naib tutub həccə göndərməyin də savabı vardır; bu zaman həccin savabı mərhumun ruhuna aid olur.

## 6) «CİHAD»

Yəni peyğəmbər və məsum imamların əmri ilə İslam düşmənlərinin əleyhinə mübarizəyə qalxmaq deməkdir.

**Cihad özü iki hissədən ibarətdir:**

1) **İBTİDAİ CİHAD**
2) **MÜDAFİƏ CİHADI**

İbtidai cihad yalnız Peyğəmbər və məsum imamların göstərişi ilə kafir ölkələrini islama dəvət etmək və onların şərrini İslamdan və müsəlmanlardan uzaqlaşdırmaq üçün aparılan cihaddır. Bunun şərti Peyğəmbər (s) və ya məsum imamların (ə) şəxsən hüzuru və göstərişi ilə aparılmasından ibarətdir. Hazırkı dövrdə Peyğəmbər (s) həyatda olmadığından və 12-ci imam (ə) qeybdə olduğuna görə İbtidai cihad vacib deyildir.

Müdafiə cihadı: hər hansı bir ölkə tərəfindən müsəlmanlara hücum olduğu təqdirdə, müsəlmanın canı, malı, namusu, dini və vətəni təhlükəyə düşərsə, onları müdafiə etmək vacibdir.

Bu barədə Quranda oxuyuruq: «(Ey möminlər!) ağırlı və yüngüllü halda hamınız cihada qalxıb malınız və canınızla Allah yolunda vuruşun! Əgər bilsəniz bu sizin üçün daha çox xeyirlidir!». (Tövbə- 41).

## 7. «ƏL-ƏMRU BİL-MƏRUF» (YAXŞILIĞA ƏMR)
## 8.«VƏN-NƏHYU ƏNİL-MUNKƏR» (PİSLİKDƏN ÇƏKİNDİRMƏ)

Hər bir müsəlman öz ailəsini və din bacı-qardaşlarını vacib əməllərə və xeyir işlərə dəvət etməli və qadağan olunmuş haram işlərdən çəkindirməlidir.

Əgər islamın bu hökmü bütün müsəlmanlar tərəfindən icra olunarsa, o zaman cəmiyyət bütün xeyirxahlığa və yaxşılığa üz gətirib pisliklərdən, hər cür fəsaddan uzaq olar.

Allah Quranda «Yaxşılığa əmr» edən və «Pisliklərdən çəkindirən» insanları «əməlsaleh» adlandıraraq onlara mükafat verəcəyini vəd edir: «Onlar Allaha və axirət gününə inanır, (insanlara yaxşı işlər görməyi əmr edir, (onları) pis əməllərdən çəkindirir və xeyirli işləri görməyə tələsirlər. Onlar əməli salehlərdəndirlər. Onların yaxşılıq naminə etdikləri işlərdən heç

biri inkar edilməz (mükafatsız qalmaz). Şübhəsiz ki, Allah müttəqi (pərhizkar) olanlardan agahdır». (Ali imran, 114-115).

## 9. «TƏVƏLLA» 10. «TƏBƏRRA»

«Təvəlla» sevmək, dost tutmaq deməkdir. Yəni hər bir müsəlmanın Allah-taala, Peyğəmbər (s), məsum imamlar (ə) və onların dostlarını sev-məlidir.

«Təbərra» mənası bizar olmaq və nifrət etmək deməkdir. Yəni müsəlman gərək Allah-taala, Peyğəmbər (s), İmamlar və onların dostlarının düşmənləri ilə düşmən olmalı və habelə onlardan xoşlanmamalıdır.

Bu barədə Allah-taala Quranda belə buyurur: «Söylə: (Ey Peyğəmbər) mən sizdən öz risalətim (Peyğəmbərliyim) əvəzində, Əhli-beytimə məhəbbət bəsləməkdən başqa heç bir əcr (mükafat) istəmirəm».

(Şura - 23)

# ƏXLAQ

İnsanları rəzil sifətlərdən uzaqlaşdıran, insanlığın parlaq gövhərini tanıtdıran, mənəvi yüksəkliklərə səsləyən İslam dini, sözün əsl mənasında, tükənməz həyat çeşməsidir. Bu son və kamil dinin təyin etdiyi mükəmməl əxlaq qaydaları  insanları düzgünlüyə, səadətə halallığa istiqamətləndirərək, səadət və xoşbəxtlik dünyasına aparır. İnsan məhz bu əxlaq qaydalarına riayət etməklə Allahın böyüklüyünü, özünün aciz bir bəndə olduğunu anlayır və nəticədə digər yaranmışlara nisbətən daha üstün, şərafətli mövqedə durduğunu başa düşər. Buna görə də hər birimiz İslam əxlaqını öyrənməli və öz həyatımızda tətbiq etməliyik. Belə olduqda şübhəsiz ki, hər bir insan öz nəfsi istəklərinə qarşı çıxaraq, yaxşı və xeyirli işlər görməyə çalışar. Nəticədə isə, insanlar arasında mehribanlıq, səmimiyyət hökm sürər və cəmiyyət mənəvi yüksəklişə doğru sürətlə inkişaf edər.

## ALLAH-TAALA
## qarşısında vəzifəmiz

İnsan mərhəmətli və mehriban xaliqin ona bəxş etdiyi saysız-hesabsız nemətləri qarşısında şükr edib, uca Yaradanın şəninə təriflər söyləməlidir. Lakin nə qədər çalışsaq da yenə ehtiyacsız Allaha layiq şükr etməyə gücümüz çatmaz.

Hər bir müsəlman Allah-taala qarşısında daşıdığı haqlarını yerinə yetirməyə səy göstərməlidir. Həmin haqların bəzilərini aşağıda qeyd edirik:

- Ətrafımızda olan bütün varlıqları xəlq edən Allah-taalanın bir, tək, vahid olmasına inanmaq.
- Allahdan başqa sitayişə layiq heç bir məbudun olmamasına inanmaq.
- Allah-taalanın yenilməz qüdrət sahibi və hər şeyə qadir olmasına inanmaq.
- Bütün yaranmışların yalnız Allah-taalaya ibadət etmələri üçün xəlq olunduğuna inanmaq.
- Bütün nemətlərin Allah-taala tərəfindən bəxş edildiyinə və Onun tükənməz nemət sahibi olmasına inanmaq.

- Allahın yaratdığı məxluqatlar üçün göndərdiyi hökmlərə tabe olub razılaşmaq.

- Allah-taalanın bəxş etdiyi nemətlər qarşısında şükr etmək.

- Allahın hər şeydən geniş olan və hər şeyi əhatə edən rəhmətindən və sonsuz mərhəmətindən ümidsiz olmamaq.

- Qəlbi Allaha məxsus edib, yalnız Onu sevib, Ona qarşı sevgisini hər şeydən üstün tutaraq başqalarına da Onun eşqi və sevgisi ilə məhəbbət bəsləmək.

- Hər bir şeyin sonda Allaha dönməsinə, yaxşı əməl sahiblərinin Cənnətlə mükafatlandırılmasına və pis əməl sahiblərinin Cəhənnəmlə cəzalanmasına inanmaq.

# PEYĞƏMBƏR VƏ İMAMLAR
## qarşısında vəzifəmiz

Bəşəriyyətə xilas yolunu göstərmiş, insanları cahiliyyət zülmətindən nura çıxartmış, onları azğınlıqdan, çirkinlikdən, əsarət girdabından qurtarmış, dünyanı elm, mədəniyyət və fəzilətlə doldurmuş Peyğəmbər və imaların insanlıq üzərində haqları olduqca böyükdür. Həmin haqlardan bəziləri aşağıdakılardır:

- Peyğəmbər (s) və imamların Allah-taala tərəfindən seçilərək bəşəriyyətin hidayəti üçün göndərilməsinə inanmaq.

- Peyğəmbərlərin Allah-taala tərəfindən gətirdikləri səmavi kitabları və şəriətləri təsdiqləmək.

- Peyğəmbər (s) və İmamlara (ə) hər bir işdə mütləq şəkildə itaət etmək: «Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin! …». (Nisa, 59)

- Peyğəmbərə (s) və İmamlara (ə) diri olduqları vaxt və eləcə də vəfat etdikdən sonra, daima onları hörmətlə, xoş xatirələrlə yad etmək.

- Peyğəmbərin əhli-beytini və imaların övladlarını sevmək və onlara məhəbbət bəsləmək.

## VALİDEYN
## qarşısında vəzifəmiz

Müqəddəs İslam dini övlad-valideyn münasibətlərinə böyük əhəmiyyət verərək övlada valideynlərə nəvaziş göstərməyi, xoş davranmağı, onlara itaət və hörmət etməyi vacib etmişdir.

Bu barədə Allah-taala Quranda buyurur: «Biz insana ata-anasına yaxşılıq etməyi (onlarla gözəl davranmağı) tövsiyə edirik». (Ənkəbut, 8)

Göründüyü kimi Allah-taala insanları ibadətə əmr etdikdən sonra dərhal onlara ata-anaya yaxşılıq etməyi tövsiyə edir. İmam Sadiq (ə) ayənin izahında buyurur:

"Yaxşılıq və xeyirxahlıq bundan ibarətdir ki, onlarla [valideynlərlə] xoş rəftar etmiş olasan.

Onlara o qədər diqqət yetirməlisən ki, ehtiyac duyduqları şeyləri onlar istəməzdən əvvəl dərk edib onların ixtiyarına qoymalısan".

Hədislərdən birində deyilir:

"Peyğəmbərdən (s) ata-ananın övladın üzərində hansı hüquqa malik olduğu haqda soruşduqda dedi:

"Onlar sənin həm cənnətin, həm də cəhənnəmindirlər".

Yəni, insanın cənnət və cəhənnəmə getməsi valideynlərinə göstərdikləri qayğıdan asılıdır.

Peyğəmbərdən (s) bu məzmunda nəql olunmuş başqa bir hədisdə deyilir:

"Cənnət anaların ayaqları altındadır". (Yəni, cənnətə analara layiqincə qayğı göstərməklə nail olun).

Valideynlərin övlad üzərində olan hüquqlarından bəzilərini aşağıda qeyd edirik:

- Onlarla həlim davranmaq «uf» belə deməmək.

- Ehtiyaclarını dilə gətirməzdən öncə yerinə yetirmək.

- Qocaldıqda əziyyətlərinə dözmək və onlara xüsusi qayğı göstərmək.

- Danışarkən gözəl səslə onlara xitab etmək və onlara üz gözünü turşutmamaq.

- Onlara hörmətsizlik gətirəcək və insanlar tərəfindən söyülmələrinə səbəb olacaq əməllər etməmək.

- Əgər borcları varsa, onların əvəzini ödəmək.

- Allahdan onlara rəhmət diləmək və günahlarının bağışlanması üçün dua etmək.

- Onlarla təvazökarlıqla davranmaq və daima onlara təşəkkür etmək.

## ÖVLAD
## qarşısında vəzifəmiz

Övlad hər bir insan üçün həyatda ona bəxş olunmuş ən gözəl nemətdir.

Elə buna görə də, insan bu nemətin qədrini bilməli, onun qayğısını çəkməlidir. Ailədə ata-ana övladları ilə ədalətlə davranmalı, onların təlim tərbiyəsinə diqqət etməli, onları dini və milli ruhda böyütməli, gözəl əxlaqi səciyyələri və xüsusiyyətləri onlara təlqin etməlidir. Çünki övladın düzgün tərbiyə olunması, onda dəyərli keyfiyyətlər və xüsusiyyətlər yaradır. Əksinə, düzgün olmayan tərbiyə isə onda cürbəcür pozğunluqların və nalayiq əməllərin əsasını qoyur. Övladın şəxsiyyətinin formalaşması hər şeydən

əvvəl valideynin  tərbiyəsindən asılıdır. Elə buna görə də, övlad qarşısında olan bəzi vəzifələri qeyd edirik:

- Allah-taala insana övlad bəxş etdikdə, doğulduğu gün onun sağ qulağına azan, sol qulağına iqamə oxumaq.

- Övlad üçün gözəl ad seçmək.

- İlk yaşlarında uşağa Allah, Peyğəmbər və İmamlar haqqında əsas məlumatları öyrətmək.

- Övlad pisi yaxşıdan ayırdığı bir yaş dövrünə çatdıqda, valideyn onu Allaha itaət etməyə rəğbətləndirməli, yalan, təkəbbür və nalayiq hərəkətlərdən çəkindirməlidir.

- Övlada Ən müqəddəs kəlamı- Qurani –Kərimi oxumağı öyrətmək.

- Valideyn uşaqların istəklərinə diqqət yetirməli, onlara verdikləri sözlərinə vəfalı olmalı və məhəbbətini onların arasında bərabər paylaşmalıdır.

- Övlad əxlaqını pozan, uçruma düşməsinə səbəb olan yad dinlərin və ənənələrin  mənfi təsirindən övladları qorumaq.

- Övlad ağıl və cisim baxımından tam yetişdiyi dövrdə, ailə həyatının qiymətini dərk etdikdə onların ailə qurmasına kömək etmək.

- Yaşadığımız fitnə-fəsad, müxtəlif çeşidli pozğunluqlarla dolu bu dünyada övladlara, xüsusilə, qız uşaqlarına iffətini, şərəfini, əxlaqını qorumağın yollarını öyrətmək.

## QOHUM-ƏQRƏBANIN HAQQI

İslam dini insanları məhəbbət, ülfət, mərhəmət və xoş rəftarla davranmağa səsləmiş və xüsusi ilə də, qohum-əqrəba ilə xoş rəftar etməyi tövsiyə etmişdir. Əlbəttə, islam dini qəbiləçilik və ya tayfabazlığın əleyhinədir. İslam insanlar arasında məhəbbətin hökm sürməsini və cəmiyyətdə insanları bir-birinə bağlayan tellərdən biri olan qohumluq əlaqəsinin inkişaf etdirilməsini, bəşər övladının Allahın məhəbbəti ilə bir-birini sevərək qayğısını çəkməsini əmr etmişdir.

İslam dininə etiqad edən hər bir insan qohum əqraba üzvlərinə hörmət, məhəbbət bəsləməli, həyatın müşküllərini həll etməkdə onlara yardım etməli, tez-tez və münasib vaxtlarda onlara baş çəkməli, uzaqda yaşayan qohumlarını məktub və hədiyyə göndərməklə yad etməli və beləliklə də qohumluq tellərini qırılmağa qoymamalıdır.

Qohumlarla əlaqəni kəsmək, onlara düşmənçilik etmək isə ən böyük günahlardan hesab olunur.

Quranda oxuyuruq: «…….həmçinin qohumluq əlaqələrini kəsməkdən çəkinin. Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir». (Nisa, 1)

Nəql olunmuş bir çox hədislərdə "qohum-əqrəba ilə gözəl ünsiyyətdə olmaq" hətta dinin bir hissəsi kimi qiymətləndirilmiş, ömrün uzanmasına və insanın cənnətlə mükafatlandırılmasına səbəb olduğu göstərilmişdir.

Misal olaraq Peyğəmbərdən (s) və məsum imamlardan (ə) nəql olunmuş bir neçə hədisə işarə edirik:

"Məni görüb-eşidənlərə, burada olmayanlara, hələ ata belində və ana bətnində olan ümmətimin gələcək nəslinə tövsiyə edirəm ki, qohum-əqrəba ilə aralarındakı fasilə bir illik məsafə olsa belə, sıx ünsiyyətdə olsunlar. Çünki bu, dinin bir hissəsidir".

İmam Əli ibn Hüseyn (ə) Peyğəmbərdən (s) nəql etdiyi hədisdə deyir:

"Allah hər kimin ömrünü uzadıb ruzisini bol edərsə, sevinər və daim şad olar. Onlar da qohum-əqrəba ilə gözəl rəftar edər və onlarla sıx ünsiyyətdə olarlar. Həqiqətən “Sileyi-rəhim" [qohum-əqrəba ilə sıx ünsiyyətdə olmaq]

dil açaraq Allah-taalaya deyər: "İlahi! Öz qohum-əqrəbası ilə gözəl əlaqədə olanlara qarşı rəhimli və mərhəmətli ol. Onlarla əlaqəsini kəsənlərlə əlaqəni kəs və rəhmət dərgahından uzaq et".

Başqa bir hədisdə imam Rza (ə) Peyğəmbərdən (s) nəql edərək deyir:

"Hər kim mənə bir şeyə zəmanət verərsə, mən onun üçün dörd şeyə zamin olaram: Qohum-əqrəba ilə gözəl rəftar edənləri Allahın sevməsinə, ruzisinin artmasına, ömrünün uzanmasına və Allahın vədə verdiyi cənnətə daxil etməsinə"

İmam Sadiqdən (ə) nəql olunmuş hədisdə deyilir:

"Qohum-əqrəba ilə yaxın ünsiyyətdə olmaq və onlara xeyirxahlıq etmək günahları azaldır və qiyamət gününün sorğu-suallarını asanlaşdırır".

# QONŞULARLA RƏFTAR QAYDALARI

Müqəddəs islam dinində tövsiyə olunan şeylərdən biri də qonşuların hüquqlarının qorunmasıdır. İmam Sadiqdən (ə) bu məzmunda nəql olunmuş hədisdə deyilir:

"Qonşularınızla gözəl rəftar edin. Çünki, bunu sizlərə Allah-taala əmr etmişdir

Hədisdə istinad olunan ilahi əmr Nisa surəsinin 36-cı ayəsinin məzmununu təşkil edir. Orada deyilir:

"Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya, qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın yoldaş və dostlara, [pulu qurtarıb yolda qalan] müsafirlərə, sahib olduğunuz qul və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah özünü bəyənənləri və lovğalıq edənləri sevməz!"

Həzrət Peyğəmbər (s) səhabələrə qonşuların hüquqlarına riayət etməyi tövsiyə edər və bunun nə ilə nəticələnəcəyi haqda buyurardı:

"Cəbrail qonşular barədə mənə o qədər tövsiyə edərdi ki, qonşunun qonşudan irs aparmalı olduğunu güman edərdim".

Hər bir müsəlman öz qonşuları ilə ünsiyyətdə olarkən və onlarla davranarkən qonşunun bir sıra hüquqlarına riayət etməli olduğunu unutmamalıdır.

Həmin hüquqlardan bəzilərin aşağıda qeyd edirik:

- Qonşularla olduqca xoş, mehriban davranaraq daima onlara yaxşılıq etmək.
- Qonşunun şad günündə onun sevincinə şərik olub onu tərbiyə etmək.
- Qonşu bir problemlə üzləşərsə, ona kömək edib dərdinə şərik olmaq.
- Xəstələndikdə baş çəkib Allah-taaladan ona şəfa diləmək.
- Qonşunun ailəsini, şərəfini, namusunu, evini və mülkiyyətini qorumaq.
- Din və dünya işlərində qonşuya faydalı məsləhətlər verib ona doğru yol göstərmək.
- Qonşunun etdiyi pisliklər qarşısında onunla yaxşı davranmaq səhvlərini güzəşt edib bağışlamaq.
- Borc bir şey istəməyə gəldikdə, ondan əsirgəməmək.
- Allahın bəxş etdiyi ruzilərdən və evdə bişən xörəklərdən ehtiyaclı qonşuya vermək.

- Öz övladı üçün aldığı hədiyyələrdən imkan daxilində qonşunun uşaqları üçün də almaq.

## Müəllim və tərbiyəçiyə ehtiram

Dinimizdə elm və biliyə xüsusi əhəmiyyət verilir. İslam dini sərvətlə elmi müqayisə edərək bir neçə dəlil əsasında elmə önəm verir. Həmin nöqtələrdən bəzilərini nəzərdən keçirək:

1. Elm insanı qoruyur. Sərvəti isə insan qorumalıdır.
2. Elm bağışlandıqca artır, püxtələşir. Sərvət isə xərcləndikcə azalır.
3. Elm hakimdir, insan elm vasitəsi ilə əşya və fərdlərə hökm edir. Amma sərvət məhkumdur və ona hökm olunur. Məsələn, hökm edilir ki, bu mal filankəsdən alınıb filankəsə verilsin.
4. Elm və bilik yalnız zəhmətlə əldə olunur, onu bağışlamaq və ya irs qoymaq mümkün deyil. İnsanların ruzisinə isə Allah tərəfindən zəmanət verilmişdir, bağışlanma və digər yollarla insana çatır.

Elm və bilik bu qədər dəyərli olduğundan alim və elm adamının da dəyəri böyükdür. İslam maarifində alim və elm adamının dəyəri haqqında çox danışılır.

İmam Kazim (ə) buyurur: "Alimlə zibillikdə söhbət etmək cahillə xalı üzərində əyləşməkdən yaxşıdır."

Deyilənləri nəzərə alıb hər birimiz alim və ya tələbə olmağa çalışmalıyıq. Əks təqdirdə elə bir dəyərimiz olmayacaq. Əgər yaxında alim varsa onların elmindən faydalanaq. Digər bir tərəfdən öz ustad və müəllimlərimizin, tərbiyəçilərimizin qədrini bilək. Onlara daim ehtiram göstərək. İmam Sadiq (ə) buyurur: "Ondan elm öyrəndiyiniz üçün qarşısında təvazö göstərin."

## Dost və dostluq qaydaları

İnsan ictimai bir varlıqdır. O cəmiyyətdən kənarda, tənhalıqda kamilləşə bilmir. Bu səbəbdən də ömür boyu səmimi və canıyanan dosta ehtiyaclıdır. Əslində, özünə vəfalı dost və yoldaş tapa bilməyən insan acizdir. Bundan da acizi mehriban dostu yersiz bir rəftarı ilə küsdürən fərddir. Qeyd

etməliyik ki, etibarlı, mehriban, canıyanan və vəfalı dostun varlığı ictimai həyatın zərurətidir. İnsan hər adama dostluq əli uzatmamalıdır ki, qısa bir müddətdə zərbə görsün. Amma necə də azdır vəfalı dostlar! Onlar mirvari tək azdır və çətin əldə olunur.

İnsanı tanımaq üçün mötəbər yollardan biri də onun dostlarını nəzarətə almaqdır. Çünki əxlaqi xüsusiyyətlər dostdan-dosta sirayət edir. Əgər sizin dostunuz sağlam və pak insandırsa müsbət dəyərləndirilərsiniz, azğın və günahkar insandırsa ittiham olunarsınız.

Əksinə, insan azğın və günahkar insanla dostluq edərsə, tədricən onun təsiri altına düşər və rəngi dəyişər.

Allah-taala Qurani-kərimdə cəhənnəmə düşənlərin dilindən belə nəql edir: "Vay olsun Mənə! Ey kaş filankəsi dost seçməyəydim. Onunla yoldaşlıq məni Qurana itaətdən çəkindirdi, azdırdı." (Surə 25, "Fürqan", ayələr 28, 29)

**Həqiqi dostun bəzi sifətlərini nəzərdən keçirək:**

1. O aşkarda və xəlvətdə eyni münasibət göstərir, dostla rəftarı dəyişkən deyil. Həqiqi dost özünü zahirdə səmimi göstərib qəlbində kin-

küdurət saxlamır. Həqiqi dostda nifaq ruhiyyəsi yoxdur, arxada pisliyinizə danışmır.

2. Həqiqi dost sizin inkişafınızı və izzətinizi özünə fəxr bilir, sizin müvəffəqiyyətsizliklərinizdən narahat olur. O sizi özündən ayırmır, özü üçün istədiyini sizin üçün də istəyir, özü üçün bəyənmədiyini sizin üçün də bəyənmir.

3. Dövrün hadisələri həqiqi dostun sizə olan münasibətini dəyişmir. Kasıb vaxtı sizə yaxınlaşan, varlananda sizdən uzaqlaşan şəxs həqiqi dost deyil. Həqiqi dost həm yaxşı, həm pis günlərdə insanın yanındadır.

Paxıl, kimsəyə əl tutmaq istəməyən fərdlərdən uzaqlaşmaq lazımdır. Nəql edirlər ki, bir şəxs küçənin kənarında dayanıb ağlayırdı. Əlində bir neçə çörək olan dostu onunla rastlaşdı. Dostunun ağlamağını görüb ağlamağa başladı. Dostu soruşdu: “Sən nə üçün ağlayırsan?” Həmin şəxs dedi: “Sənin dərdinə şərik olmaq istədiyimdən ağlayıram.” Birinci şəxs dedi: “Mən aclıqdan ağlayıram, səninsə çörəyin var. O çörəkdən ver daha ağlamayım.” İkinci dost dedi: “And olsun Allaha, sənin üçün sübhədək ağlayaram, amma çörək istəmə!”

4. Yaxşı dost insana onun nöqsanlarını xatırladır. O güzgü kimidir. Ona baxıb eyblərini görürsən. O sizin razılığınızı qazanmaqdan ötrü yalan tériflərə yol vermir. İmam Sadiq (ə) buyurur: “Mənim üçün ən yaxşı dost eyblərimi mənə xatırladandır.”

5. Yaxşı dostda fitnəkarlıq, xəyanət, xəbərçilik kimi pis sifətlər olmur. Bu sifətlər keçici xəstəlik kimi insana sirayət edir. Pis dost tədricən insanın iman və əxlaqını korlayır.

Bu gün sənə xatir başqalarının haqqını tapdayan, onlara zülm edən şəxs sabah sənə xəyanət edəsidir. Sənə başqalarının pisliyindən danışan, bir müddət sonra başqalarına sənin pisliyini açıqlayasıdır.

6. Həqiqi dost sir saxlayan olmalıdır. İnsan biri ilə dostluq rabitəsi saxladıqda istər-istəməz ona öz qəlbini açır, sirlərini onunla bölüşür. Əlbəttə ki, insanın orta həddi gözləməsi və sirlərini açmaması yaxşıdır. İki dodaqdan xaric olan sirr məxfi qalası deyil. Həzrət Əli (ə) buyurur: “Dostuna orta həddə bağlan. Çünki o bir gün düşmən ola bilər. Düşmənlə münasibətdə də orta həddi gözlə. Çünki bir gün onunla dostlaşa bilərsən.”

7. Həqiqi dost sağlam ağıl sahibi olmalıdır. Çünki nadan şəxs özü də bilmədən səni bədbəxtliyə sürükləyər. Olsun ki, nadan insan dostuna yaxşılıq etmək istəyi ilə axmaqlığından onu əziyyətə sala.

Həzrət Əli (ə) buyurur: "Agah düşmən nadan dostdan yaxşıdır."

8. Həqiqi dost sənin düşməninlə yaxınlıq etməz. Belə bir dostluq xalis deyil. Həzrət Əli (ə) buyurur ki, sənin düşməninlə dostluq edən əslində sənə düşmənçilik edir." ("Nəhcül-bəlağə")

## ƏXLAQİ DAVRANIŞLAR

Cəmiyyət arasında düzgün əlaqə və rabitə bərqərar etmək üçün bir sıra meyarlara riayət etməliyik ki, ilk növbədə özümüzü gözəl şəxsiyyət və bir ideal insan kimi tanıtdıra bilək. Çünki, bir tərəfdən gözəl əxlaq və davranış tərzi görməklə camaatda bizə qarşı rəğbət hissi yaranacaq, digər tərəfdən də özümüz insani [mənəvi] dəyərlərə nail olacağıq. Və eyni zamanda başqalarının bizim üzərimizdə nə kimi hüquqlara malik olduqlarını bilməli və onların hüquqlarının tapdalanmasına yol verməməliyik.

Bu meyarlar ümumiyyətlə iki hissəyə bölünür: Onlardan biri başqalarının qarşısında nümayiş etdirməli olduğumuz xüsusiyyət və rəftar normaları, digəri isə tərk etməyimiz zəruri olan bəzi xoşagəlməz xislət və xüsusiyyətlərdir. Başqa sözlə desək, birinci dəstəyə aid olan meyarlar islam dininin bizlərə tövsiyə etdiyi gözəl əxlaqi xüsusiyyətlər, ikinci hissəyə aid olanlar isə ictimai həyatımızda tərk etməyimiz zəruri olan bir sıra mənfi xüsusiyyətlərdir. Demək, ictimai həyatın normal hal tapması üçün biz ilk növbədə mənfi xüsusiyyətlərdən çəkinməli və gözəl əxlaqa malik olmalıyıq. Gözəl əxlaqa malik olmaq və xoşagəlməz xüsusiyyətlərdən çəkinməyə də "əxlaqi davranış" deyilir.

## ƏSL MÜSƏLMANIN XÜSUSİYYƏTLƏRİ

Hamı başqalarının hörmət və ehtiramını qazanmaq istəyir. İnsanların qəlblərinə yol tapmağın və onların razılığının qazanılmasının ən başlıca amili gözəl əxlaq və xüsusiyyətə malik olmaqdır. Bütün müsbət keyfiyyətlər yalnız o zaman özünün həqiqi dəyərini tapa bilər ki, bu xüsusiyyətlərə malik olan

hər bir şəxs insanları rəzil sifətlərdən uzaqlaşdıran, mənəvi yüksəlişə çatdıran gözəl əxlaqa yiyələnmiş olsun.

İmam Sadiqdən (ə) "gözəl əxlaq nədir?" - deyə soruşduqda buyurur:

"Gözəl əxlaq odur ki, başqaları ilə şirin dillə danışıb mehribanlıqla rəftar etmiş olasan və müsəlman qardaşınla görüşdükdə onu gülər üzlə qarşılayasan".

Gözəl əxlaqa yiyələnməyin və başqaları ilə gözəl ünsiyyətdə olmağın fəziləti haqda Həzrət Peyğəmbər (s) və məsum imamlardan kifayət qədər hədis və rəvayətlər nəql olunmuşdur. Misal olaraq burada onlardan bir neçəsini gətiririk:

"Sizin ən yaxşınız, ən gözəl əxlaqa yiyələnənlərinizdir. Gözəl əxlaq sahibləri o kəslərdir ki, bir-birləri ilə qarşılaşarkən təvazökarlıq edər və başqaları ilə daim gözəl ünsiyyətdə olaraq evinin qapsını onların üzünə açıq qoyarlar.

"Gözəl əxlaqa yiyələnənlərin savabı gecələri ibadətlə keçirən və gündüzləri oruc tutan şəxsin savabı qədər olar".

"Qiyamət günü insanların əməl tərəzilərinə qoyulacaq ilk şey onların gözəl əxlaqı olacaqdır".

"Qiyamət günü əməl tərəzisində gözəl əxlaqdan ağır şey olmayacaqdır".

"Qiyamət günü mənə ən yaxın olanınız və ən sevimliniz gözəl əxlaqa yiyələniniz olacaqdır".

"Sizin üçün gözəl əxlaqdan yaxşı heç bir şey yoxdur".

Bilməliyik ki, islam zühur etdikdən sonra Həzrət Peyğəmbərin (s) vasitəsilə islamı qəbul edən şəxslərin əksəriyyəti məhz onunla ünsiyyətdə olduqdan və onun gözəl insani xüsusiyyətlərinin şahidi olduqdan sonra bu ilahi dini qəbul etmişlər.

## 1. TƏVAZÖKARLIQ

Yaşadığı cəmiyyətdə hər bir şəxsə zəruri olan xüsusiyyətlərdən biri də təvazökarlıqdır. Allah-taala əməli-saleh insanların məziyyətlərini sadalayarkən təvazökarlığı ən mühüm xüsusiyyətlərdən biri kimi göstərir. Furqan surəsinin 63-cü ayəsində buyurulur:

"Rəhmanın [əsil] bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqları [xoşlarına gəlməyən bir söz dedikləri] zaman onlarla gözəl, yumşaq danışarlar".

Göründüyü kimi, ayədə göstərilən təvazökarlıq hər bir əməli-saleh insanın yol getdiyi zaman özündən büruzə verdiyi ən başlıca xüsusiyyətdir. Çünki, insan yol gedərkən özündən asılı olmayaraq batini xüsusiyyətlərini nümayiş etdirir. Belə ki, hər bir təvazökar və ya təkəbbürlü insanı onun rəftarından, yol getməyindən və ya oturub-durmasından tanımaq olar.

Peyğəmbər (s) təvazökarlığı insanın vüqar və başucalığı hesab etmişdir:

"Həqiqətən təvazökarlıq insana baş ucalığı və yüksək məqam nəsib edir. Elə isə təvazökar olun ki, Allah-taala sizləri başı uca və vüqarlı etsin".

Başqa bir yerdə buyurulur:

"Hər kəs Allaha xatir təvazökarlıq etsə, Allah-taala onu vüqarlı edər. Həmin şəxs özünü nə qədər zəif hesab edərsə, camaatın nəzərində bir o qədər ucalar və hamının rəğbətini qazanmış olar".

İmam Əli (ə) övladı imam Həsən Müctəbaya (ə) etdiyi tövsiyələrin birində buyurur:

"Sənə təvazökar olmağı tövsiyə edirəm. Çünki, təvazökarlıq ibadətlərin ən böyüyüdür".

## 2. ƏHDƏ VƏFALI OLMAQ

Müsəlman şəxs bir kəsə söz verərsə mütləq onu yerinə yetirməyə çalışmalıdır. Peyğəmbərimiz buyurmuşdur: "Vəd borc kimidir, hətta borcdan daha əhəmiyyətlidir".

Qurani-Kərimin bir çox ayələrində və məsum imamlardan nəql olunmuş hədislərdə bu məsələyə böyük əhəmiyyət verilmişdir. Bağlanılan bütün əhd-peymanlara əməl etməyi Quran vacib hesab edir:

"...Əhdə vəfa edin. Çünki [insan] əhd barəsində [qiyamət günü] cavabdehdir. [İnsan verdiyi əhdi yerinə yetirib-yetirmədiyi haqda sorğu-suallara tutulacaqdır]".

Əhd-peymana əməl olunmasının zəruri olduğunu qeyd etməklə yanaşı, onun pozulmamasına da ciddi xəbərdarlıq edilir:

"Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz (vədə verirsiniz)?..."

Bağlanılan əhd-peymana istər fərdi olsun, istərsə də ümumi, istər müsəlmanlarla olsun, istərsə də müşrik və kafirlərlə, vəfalı olmaq hər bir müsəlmana vacibdir.

### 3. SƏBİRLİ OLMAQ

Hər bir insan gündəlik həyatında özü kimi bir çox cəmiyyət üzvləri ilə qarşı-qarşıya gəlir və onlarla daimi ünsiyyətdə olur. Cəmiyyət üzvlərinin hər birinin özlərinə xas rəftar, davranış və təfəkkür tərzi vardır. Bəzən elə şəxslərlə rastlaşırıq ki, onlar bir sıra əxlaqi xüsusiyyətlərə malik olmadıqları üçün adi davranış qaydalarında və başqaları ilə ünsiyyətdə kobudluğa yol verirlər. Bu da tərəf-müqabilin inciməsinə və narahatçılığına səbəb olur. Bəs bu kimi xoşagəlməz rəftar və davranışların müqabilində nə etmək lazımdır?

İslam dininin belə bir şəraitdə bizlərə tövsiyə etdiyi şey, daha dəqiq desək, göstərdiyi yol "səbirli və təmkinli" olmaqdır. Müsəlman şəxs qəzəb və digər mənfi xüsusiyyətlər kənara qoymalı, insanlarla səbr və təmkinlə rəftar etməlidir. Həmçinin müsəlman şəxs çətinliklər qarşısında mətanətlə

dözməli, sınaqlar qarşısında özünü itirməyib səbr etməlidir. Dinimizə görə belə yerlərdə  səbr etmək ən gözəl xüsusiyyətlərdən hesab edilmişdir.

Qurani-Kərimdə güzəştə getmək, səbirli və təmkinli olmaq möminlərə xas olan xüsusiyyət kimi göstərilir:

"O, pəhrizkarlar ki, bolluqda da, qıtlıqda da [mallarını yoxsullara] xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər".

Başqa bir ayədə Allah-taala pisliyə pisliklə deyil, yaxşılıqla cavab verməyi tövsiyə edir:

"Yaxşılıqla pislik eyni ola bilməz! [Ey mömin kimsə!] Sən pisliyi yaxşılıqla dəf et! [Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!] Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!

Bu [xislət] yalnız [dünyada məşəqqətlərə] səbr edənlərə verilir və yalnız böyük qismət [savab, fəzilət] sahiblərinə əta olunur!"

Göründüyü kimi Allah-taala, düşmənçiliyin səmimi dostluğa çevrilməsini, pisliklərin qarşısında səbirli və təmkinli olmağı, pisliklərə

yaxşılıqla cavab verməyi tövsiyə edir. Çünki, intiqam almaq düşmənçiliyin aradan qaldırılması deyil, insanı qıcıqlandıran daxili hisslərin yatırılmasıdır.

Əli (ə) buyurur: "Səbirli və təmkinli olmaq bütün pisliklərin üzərinə pərdə çəkir". "Səbirli və təmkinli olmaqdan böyük şərəf yoxdur".

## 4. ƏFV VƏ MƏRHƏMƏT ETMƏK

Məlum olduğu kimi, ayrı-ayrı fərdlərin hüquqlarının tapdalanması əksər hallarda sakitliyə riayət etməmək, başqalarının növbəsinə girmək, qanunsuz olaraq kiminsə məziyyətindən istifadə etmək və onlarla bu kimi hallarda baş verir. Əgər hər gün rastlaşdığımız belə hallarda cəmiyyət üzvləri bir-birlərinə güzəşt etməzsə və biri digərinin səhvinə göz yummazsa, cəmiyyətdə özbaşınalıq baş alıb gedər və hərc-mərclik ictimai problemə çevrilər. Belə bir şəraitdə müqəddəs islam dininin öz davamçılarına tövsiyə etdiyi şey də səbirli və təmkinli olmaq və bu işdə mümkün qədər güzəştə getməkdir. Allah-taala Qurani-Kərimdə Əraf surəsinin 199-cu ayəsində buyurur:

“Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!”

Başqa bir ayədə əfv və güzəşt etmək mömin və əməli-saleh şəxslərin xüsusiyyətlərindən biri kimi göstərilir:

…"O möminlər ki, bolluqda da, qıtlıqda da [mallarını yoxsullara] xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər..."

Peyğəmbərimiz (s) buyurur: "Başqalarına mərhəmət göstərməyənə mərhəmət olunmaz".

Quranda Allah Həzrət Məhəmmədə (s) xitabən buyurur: "Biz səni aləmlərə rəhmət olaraq göndərdik". (Ənbiya surəsi,107)

Əli (ə) buyurur: «Əfv və güzəşt etmək, xüsusiyyətlərin ən yaxşısıdır». «Bu iki şeyin savabını hesablamaq olmaz: Əfv etmək və ədalətli olmaq». «İnsanların ən pisi səhvləri bağışlamayan və pisliklərə göz yummayanlardır».

İmam Sadiq (ə) buyurur: «Biz Əhli-beytin səxavət və mərdliyi bizlərə zülm edən şəxsləri əfv etməyimizdədir».

## 5. İNSAFLI OLMAQ

İctimai əlaqələrin bərqərar olunmasında insaf və ədalət islam əxlaqının əsasını təşkil edir. Burada «insaf» dedikdə, insanların özlərinə rəva bildikləri və sevdikləri hər bir şeyi başqalarına da rəva görüb onlar üçün istəmələri nəzərdə tutulur. Bu bir həqiqətdir ki, insanların əksəriyyəti haqq-ədalət deyildikdə, olduqca canfəşanlıq göstərir, onun əməli olaraq həyata keçirilməsinə gəldikdə isə, ədalət onların zərərinə olarsa, ya əməl etmir, yaxud da öhdəsindən gələ bilməyib öz üzərlərindən atmağa çalışırlar.

Bu səbəbdən də Qurani-kərimin bir çox ayələrində ictimai ədalətin bərqərar olunmasına xüsusi diqqət yetirilmiş və bu mətləbə dəfələrlə təkid olunmuşdur:

«...Söz söylədiyiniz zaman [lehinə və əleyhinə danışdığınız adam] qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdi [dini vəzifələrinizi, andlarınızı] yerinə yetirin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə düşünüb öyüd-nəsihət qəbul edəsiniz!»

Peyğəmbər (s) buyurur: “İnsanların ən ədalətlisi o kəsdir ki, özünə istədiyi şeyi başqaları üçün də istəsin və özünə rəva bilmədiyi şeyi başqaları üçün də rəva bilməsin”.

Həzrət Əli (ə) insafı insanın vüqar və izzəti hesab edir:

“Allah-taala camaatla insafla rəftar edən şəxsin izzət və əzəmətini daha da artırar”.

## 6. ƏDALƏT SEVƏRLİLİK

Müsəlman üçün gərəkən əxlaqi xüsusiyyətlərdən biri də ədalətdir. Ədalət - hər bir işi layiq olduğu şəkildə icra etməkdir. Ədalətin ziddi olan zülm isə ən pis xasiyyətlərdən sayılır. Allah-taala Quranda insanları ədalətə çağırır: “Allah ədalət və yaxşılıqla davranmağı, qohumlara bəxşiş verməyi əmr edir. Allah sizi fitnə-fəsaddan, pis işlərdən və zülmdən çəkindirir, sizə öyüd verir, bəlkə öyüdləri qəbul edəsiniz”. (Nəhl 90)

Ədalətə hər zaman riayət etmək lazımdır. Tamah, vəzifə, qohumbazlıq, qorxu xatirinə ədaləti pozmaq olmaz: “Ey iman gətirənlər! Özünüzün,

valideynlərinizin, yaxud qohumlarınızın ziyanına olsa belə, ədaləti dirçəldin və Allah qarşısında düz olun!”  (Nisa 135)

“Allah ədalətliləri sevər“ (Maidə 42)

İmam Əli (ə) buyurmuşdur: “Ədalət həyat, zülm isə ölüm deməkdir”. “Qiyamət günü zalim şəxsin cəzası etdiyi zülmdən daha şiddəli olacaqdır”.

## 7. QƏNAƏTCİL OLMAQ

Qənaət - öz qismətinə düşən payla razılaşmaq, ehtiyacdan artıq bir şey tələb etməməkdir. Müsəlman şəxs hətta yemək, içmək, geyinmək kimi ən adi məsələlərdə də orta həddi (ədaləti) gözləməlidir. Qənaətcil adam ruzinin qədrini  bilər, əldə etdiyi hər nemətə görə Allaha şükr edər. Buna görə də Allah onun ruzisini artırar, onu başqalarına möhtac etməz. Sevgili Peyğəmbərimiz  (s) buyurmuşdur: “Qənaət tükənməz xəzinədir”.

Qənaətin ziddi olan israf öz ehtiyacından artıq mənimsəmək, lazım olduğundan artıq xərclərə yol verməkdir. İsraf on mənada Allahın nemətini zay edib korlamağa bərabər olduğu üçün, bəyənilməzdir. Qurani Kərimdə dəfələrlə buyurulmuşdur: “Allah israfçıları sevməz!” İsrafçı adam daim artıq

qazanc əldə etməyə öyrəşdiyindən, asanlıqla haram və qeyri qanuni yollara əl atar, günaha bulaşar, nemətlərin qədrini bilmədiyi üçün hər şeydən məhrum olub axırda ehtiyaca düşər.

## 8. GÜLƏRÜZLÜLÜK

Əxlaqi xüsusiyyətlərdən biri də gülərüzlülükdür. Peyğəmbər (s) və məsum imamlar (ə) yaşadıqları cəmiyyətdə qarşılaşdıqları şəxslərlə gözəl və səmimi münasibətdə olmuş və bunu öz davamçılarına da tövsiyə etmişlər:

"İnsanlara var-dövlətinizlə sevinc gətirə bilməzsiniz. Elə isə onlarla gülərüz və mehribanlıqla rəftar edin".

Yəni, var-dövlətiniz nə qədər çox olsa da, insanların (mənəvi) çətinliklərini həll edə bilməzsiniz. Elə isə öz səmimi rəftarlarınızla onların sevincinə səbəb olun.

Əli (ə) mehriban və təbəssümlü olmağı möminlərin xüsusiyyətlərindən biri hesab edərək buyurur:

"Möminlərin sevinc və şadlığı onların çöhrəsində aşkar olar, qəm-qüssələri isə qəlblərində gizlənər".

Bu məzmunda Peyğəmbər (s) və məsum imamlardan (ə) kifayət qədər hədis və hədis nəql olunmuşdur. Burada onlardan bir neçəsini qeyd edək:

Peyğəmbər (s) buyurur:“Təbəssümlü və gülərüzlü olmaq kin-küdurəti aradan aparır”.

İmam Baqir (ə) gülərüzlülüyü insanlar arasında dostluğun, səmimiyyətin artmasının və insanın Allaha yaxınlaşmasına səbəb olacaq ən başlıca amillərdən biri hesab edir. O Həzrət bu haqda buyurur: “Gülərüzlülük insanların bir-birləri ilə dostluq və səmimiyyətinə və Allaha yaxınlaşmalarına, qaraqabaqlıq isə onların bir-birləri ilə düşmənçiliyinə və Allahdan uzaq düşmələrinə səbəb olur”.

## 9. BİR-BİRLƏRİNƏ KÖMƏK ETMƏK

Müsəlmanlar bir-birləri ilə qardaş və həmrəy olmalıdırlar. Bu isə o deməkdir ki, onlar bir ailə üzvləri kimi bir-birlərinin qayğılarına qalmalı, sevinc və kədərlərini birgə bölüşdürməlidirlər. Belə ki, hər bir insan özünü başqalarının sevinc və kədərində şərik hesab edirsə, başqalarından da özünə qarşı həmin rəftarı gözləyir.

Peyğəmbər (s) özünün məşhur hədislərindən birində buyurur:

“Möminlər mehr və məhəbbət baxımından bir bədən üzvü kimidirlər. Bədən üzvlərindən biri ağrıdığı zaman, digər bədən üzvləri də onunla həmdərd olurlar”.

Möminlərin birlik və həmrəyliyinə dair bundan gözəl ifadə tapmaq mümkün deyil.

Maidə surəsinin 2-ci ayəsində deyilir:

“...Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun...”

Peyğəmbər (s) buyurur:

“Müsəlmanların xeyir və şərində iştirak etməyən və yardım diləyən müsəlmanın dadına çatmayan şəxs müsəlman deyildir”.

İmam Musa Kazim (ə) bu haqda buyurur:

“İmkanı çatdığı təqdirdə yanına gələn müsəlman qardaşının ehtiyacını ödəməyən şəxs özü ilə Allah arasında olan əlaqəni kəsmişdir”.

## 10. SƏXAVƏTLİ OLMAQ

Müsəlmanlara yaraşan ən gözəl sifətlərdən biri səxavət və əliaçıqlıqdır. Əlbətdə, səxavətdə ifratdan çəkinmək zəruridir. Əgər insan malik olduğu hər şeyi hədiyyə versə,bütün malını və pulunu ehsanata xərcləsə, müflisləşər və sonda özü başqalarına möhtac olar. Halbuki dinimizdə özgələrinə möhtac olmaq tənqid olunur.

Səxavət yalnız malda və pulda deyil, hər sahədə olmalıdır. Qüssəli şəxsə təsəlli vermək, inciyənin könlünü almaq, müsəlman qardaşını gülərüzlə, xoş sifətlə qarşılamaq özü bir ehsan və səxavətdir. Hər kəs öz imkanı çərçivəsində səxavət göstərməlidir: sərvətli pulu ilə, sənətkar peşəsi ilə və s. Onu da deməliyik ki, ehsan və səxavət göstərərkən, niyyət saf olmalıdır.Özünü başqalarına göstərmək, şöhrət qazanmaq, təriflənmək naminə edilən ehsan qətiyyən səxavət sayılmaz.

Peyğəmbərimiz səxavətli adamların aqibəti barədə söyləmişdir: “Cənnət səxavətlilərin yeridir, smiclilərin deyil!”

“Allah iki xasiyyəti sevər, iki xasiyyətdən isə qəzəblənər. Sevdiyi xasiyyətlər - gözəl əxlaq və səxavət, qəzəbləndikləri isə əxlaqsızlıq və simiclikdir”.

## 11 KİMSƏSİZLƏRƏ QAYĞI GÖSTƏRMƏK

Möminlərə sevinc bəxş etməklə yanaşı, islam dininin tövsiyə etdiyi xeyirxah işlərdən biri də yetim və kimsəsizlərin qayğısına qalmaq və onları himayəyə götürməkdir. Ata-anasını itirmiş kimsəsiz uşaqların qayğısına qalan müqəddəs islam dini bu məsələyə xüsusi diqqət yetirmişdir. Necə ki, Həzrət Peyğəmbərimiz buyurur:

«Xeyirxahlıq ona deyərlər ki, insan Allaha xatir öz var-dövlətindən yetim uşaqlar və ehtiyacı olan yaxın qohum-əqrəbalarına sərf etmiş olsun».

Başqa bir hədisdə isə yetimə nəvaziş etmənin fəziləti haqda buyurur:

«Allah-taala mehribançılıqla yetim bir uşağın başını sığallayan şəxsin əməl dəftərinə əlinin altındakı tükün sayı qədər savab yazar».

## 12. SALAM VERMƏK

İnsanlar qədim zamanlardan bəri hansı millət və mədəniyyətə mənsub olmalarından asılı olmayaraq, bir-birləri ilə görüşərkən sevinc, istək və

rəğbətlərini bildirmək üçün özlərinə məxsus ünsiyyət formaları seçmiş, öz hiss və duyğularını müxtəlif hərəkətlərlə çatdırmaq istəmişlər. İslam mədəniyyətində bu xoş məram və rəğbət hissi «salam» sözü ilə ifadə olunmuş və tərəf müqabillərin əl-ələ və ya çiyin-çiyinə görüşmələri ilə bildirilmişdir. İmam Sadiq (ə) bu haqda buyurur:

«Salam bizim ümmətin salamlaşma tərzi və Allahın bizim üçün pənah və sığınacağıdır».

Qurani-kərimin bir çox ayələrində müsəlmanlara «salam» vermək islami və ilahi bir iş kimi xatırladılır: «...Evlərə daxil olduğunuz zaman özünüzü [bir-birinizi, qohum-əqrəbanızı, dostlarınızı və dindaşlarınızı] Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın. Allah öz ayələrini sizə belə izah edir ki, bəlkə düşünüb daşınasınız».

Peyğəmbər (s) buyurur:

«Qarşılaşdığınız hər bir şəxs və ev sakinləri ilə salamlaşın ki, Allah-taala yaxşı işlərinizi və xeyir-bərəkətinizi artırsın».

Peyğəmbər (s) buyurur: «Salam Allah-taalanın adlarından biridir. Elə isə onu uca səslə deyin».

İmam Sadiq (ə) buyurur: «Allahın salam və rəhməti sənə şamil olsun» - deyən şəxslərin əməl dəftərlərinə iyirmi beş savab yazılar».

**13. ƏMANƏTDARLIQ**

Əxlaqi məsələlərindən biri də əmanətdir. Əmanət müxtəlif şəkillərdə ola bilər. Hər hansı bir əşya və ya pul, gizli saxlanılmalı sirr və məlumat və ya qorunub saxlanılmasında məsuliyyət tələb olunan hər hansı bir şey. Əmanət tapşırılan adam da etibarlı, etimadlı və düz danışan olmalıdır. Əmanət qəbul olunduqdan sonra tam məsuliyyətlə qorunmalı və sahibi istədikdə olduğu kimi geri qaytarılmalıdır. Əmanətə xəyanət böyük günah və başqalarının hüququna təcavüz hesab olunur.

Qurani-kərimdə möminlərin ən başlıca xüsusiyyətlərindən biri də onların "əmanətdar" olması göstərilir.

Muminun surəsinin 8-ci ayəsində deyilir:

"O möminlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar [onlara tapşırılmış əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərlər]".

Başqa bir ayədə Allah-taala əmanətin öz sahibinə qaytarılmasını əmr edir:

«Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir».

Peyğəmbər (s) buyurur:

«Əmanətə xəyanət edən şəxslərin dini yoxdur»; «Əmanətə xəyanət edən kəslər bizdən deyildir».

## 14. DÜZLÜK VƏ SƏDAQƏT

İslamın hər müsəlmana tapşırdığı ən mühüm xasiyyətlərdən də biri düzlükdür. Müsəlman həyatının bütün sahələrində doğru danışan, sözünə və əməlinə sadiq olmalıdır. Hər növ pislik və əyriliklərdən uzaq olmalıdır. Tövbə surəsinin 119-cu ayəsində deyilir:

"Ey iman gətirənlər! Allahdan qorxun və [imanında, sözündə, işində] doğru olanlarla olun!..."

Başqa bir ayədə isə Allah-taala düz danışan və düz yolda olanlara böyük nemət (Cənnəti) müjdə verir:

"Allah buyurdu: Bu, [Qiyamət günü] elə bir gündür ki, düz danışanlara düzlükləri fayda verər. Onları [ağacları] altında çaylar axan cənnətlər

gözləyir. Onlar orada əbədi olaraq qalacaqlar. Bu, [möminlər üçün] böyük uğur və qurtuluşdur!”

Peyğəmbər (s) bu haqda buyurur:

«Qiyamət günü sizlərdən mənə ən yaxın olanınız düz danışanlarınızdır».

Əli (ə) buyurur: «Düz danışmaq böyük şərəf və ucalıqdır».

## 15. ABIRLI VƏ HƏYALI OLMAQ

Həya müsəlman əxlaqının ayrılmaz hissəsidir. Peyğəmbərimiz (s) buyurmuşdur: “Həya imandandır; imanlı şəxs isə cənnətə gedəcəkdir”.

Hər bir hərəkətdə abır həyanı göstərmək vacibdir. İnsan mənəviyyata, milli adət-ənənələrə zidd hərəkətlərdən çəkinməlidir. Müsəlman özünün və ailə üzvlərinin namusunu, təmiz adını necə qoruyursa, müsəlman bacı və qardaşlarının da namusuna o cür məsuliyyətlə yanaşmalıdır. Söyüş söymək, tərbiyəsiz söhbətlər etmək, əxlaqsız şəkillərə, filmlərə baxmaq və onları müzakirə etmək, abırsız paltarlar geyinmək və s. hərəkətlər həm İslam dininin qanunları, həm də milli-mənəvi dəyərlərimizə zidd olduğu üçün günahdır.

# MƏİŞƏT HƏYATIMIZA AİD TAPŞIRIQLAR

Müqəddəs islam dininin diqqət yetirdiyi məsələlərdən biri də təmizliyə riayət etməkdir. Paltarın, bədənin təmizliyi, artıq tüklərin bədəndən təmizlənməsi, vaxtı-vaxtında dişlərin yuyulması, ətraf mühitin təmizliyi, baş və üz tüklərinin qısaldılması və s... islamın diqqət mərkəzində olan məsələlərdəndir. Hər bir müsəlman bə'zi dini vəzifələrini təmizliyə riayət etməklə, həm də başqalarının onun natəmizliyindən narahat olmalarına yol verməməlidir. İslam dinində təmizliyə verilən diqqət Peyğəmbərdən (s) nəql olunmuş hədisdə də öz əksini tapmışdır: «Həqiqətən, Allah-taala pakdır və pakları sevir.»

«Təmizlik imanın bir hissəsidir».

«Qiyamət günü insandan soruşulacaq ilk şey onun təmizliyidir [təmizliyə riayət etməsidir]».

«Bacardığınız qədər təmiz və səliqəli olun. Çünki Allah-taala İslam dinini paklıq və təmizlik qərar vermişdir».

«Peyğəmbərlərin gözəl xüsusiyyətlərindən biri də onların pak və səliqəli olmalarıdır».

## 1. BƏDƏNİN TƏMİZLİYİ

Peyğəmbər (s) buyurur: «Allahın sizləri pak etməsi üçün bədənlərinizi təmiz saxlayın! Səhəri paklıqla açan elə bir kəs yoxdur ki, mələklərdən biri onu müşayiət etməsin. Hər an mələk ona dua edərək deyər: İlahi! Bu bəndənin günahlarını əfv et, çünki o, səhəri paklıqla açmışdır».

Əli (ə) buyurur: «Başqalarının narahatçılığına səbəb olan xoşagəlməz iyləri yuyunaraq özünüzdən dəf edin. Çünki Allah-taala, təmizliyə riayət etmədiyi üçün başqalarının narahatçılığına səbəb olan şəxslərə nifrət edər».

Peyğəmbər (s) buyurur: «İnsanların ən pisi natəmiz olanıdır».

## 2. PALTARIN SƏLİQƏ VƏ TƏMİZLİYİ

İslam dini paltarın rəng və malına diqqət yetirməzdən əvvəl onun təmiz və səliqə-səhmanına əhəmiyyət verir. Nəql olunmuş rəvayətlərdən birində deyilir: Peyğəmbər (s) natəmiz paltar geymiş şəxslə qarşılaşıb təəccüblə buyurur: «Məgər o, paltarını yumağa su tapmırmı?».

«Geyinməyə paltar seçdiyiniz zaman onu təmiz saxlamağa çalışın».

Başqa bir rəvayətdə Aişəyə xitab edərək buyurur: «Ey Aişə! Qalx və bu iki paltarı yu! Məgər bilmirsənmi ki, paltarlar da Allaha təsbih edir?! Çirkli olduqda isə onların təsbih etmələri kəsilir».

Əli (ə) buyurur: «Təmiz paltar qəm-qüssəni insandan uzaqlaşdırır».

## 3. DİŞLƏRİN YUYULMASI

Peyğəmbər (s) buyurur:

"Cəbrail (ə) dişlərin yuyulmasını mənə o qədər təkidlə tövsiyə edərdi ki, güman edərdim bu, dinin vacib olan hökmlərindəndir".

"Əgər mənim ümmətimə çətin olmasaydı, namaz üçün dəstəmaz aldıqları zaman dişlərini yumağı onlara vacib edərdim".

Başqa bir hədisdə buyurur:

"Diş yuyulduqdan sonra qılınan namaz, dişlər yuyulmadıqdan sonra qılınan yetmiş beş namazdan daha fəzilətlidir".

Səhabələrə xitab edərək buyurur:

“Quranın yolunu təmiz saxlayın”. Səhabələrdən biri - Quranın yolu hansıdır? - soruşduqda buyurur, - ağızlarınız. Daha sonra nə ilə təmizlənməsini soruşduqda buyurur: “Diş fırçaları ilə”.

Peyğəmbər (s) Həzrət Əliyə (ə) xitab edərək buyurur: “Ey Əli! Dişləri yumağın insana on iki xeyri var: Həm adət-ənənəmə riayət olunur, həm də ağız təmiz saxlanmaqla gözün görmə qabiliyyəti güclənir. Həmçinin, Allahı razı salır, dişləri ağardır, ağızın natəmizliyini aradan aparır, damağı bərkidir, iştahanı gücləndirir, xeyirxahlığı çoxaldır və nəhayət, mələklərin sevincinə səbəb olur”.

Əli (ə) buyurur:

“Dişləri yumaq Peyğəmbərin (s) ənənələrindən biridir. Bu gözəl ənənəyə əməl etməklə həm Allahın razılığına nail olmaq olur, həm də ağızın təmizliyinə”.

Peyğəmbərimiz (s) dişlərin necə yuyulması  haqda buyurur:

“Dişlərinizi uzununa deyil, eninə fırçalayın”.

## 4. TÜKLƏRİN QISALDILIB SƏLİQƏYƏ SALINMASI

Saç və bığın qısaldılması, saqqalın dibindən qırxılmaması və başın daranması islamın tövsiyə etdiyi ədəb-ərkan qaydalarındandır.

Peyğəmbər (s) buyurur:

“Bığ və burun tüklərini qısaldıb vaxtaşırı saçlarınızı darayın. Belə etməklə öz gözəlliyinizi qoruyub saxlamış olarsınız”.

İmam Sadiq (ə) buyurur:

“Bığ tüklərinizi uzatmayın, çünki şeytan oranı özünə sığınacaq edir”.

Peyğəmbər (s) buyurur:

“Bığlarınızı qısaldın, saqqalınızı (dibdən) qırxmayın və özünüzü yəhudilərə oxşatmayın”.

## 5. DIRNAQLARIN TUTULMASI

Peyğəmbər (s) buyurur:

“Hər kim cümə günləri dırnaqlarını tutarsa, Allah-taala bütün ağrı və xəstəlikləri onun barmaqlarından uzaq və onları daim sağlam edər”.

İmam Cəfər Sadiq (ə) buyurur:

“Cümə günü dırnaqları tutmaq, cüzam və qotur kimi qorxulu xəstəliklərin qarşısını alır”.

Əlbəttə, nəzərdən qaçırmamalıyıq ki, nəql olunmuş hədislərdə cümə gününə təkid olunması həmin günün əhəmiyyətindən və təmizliyə verilən diqqətdən irəli gəlir. Yəni, tük və dırnaqlar uzandıqda onların qısaldılmasının cümə gününə təxirə salınması heç də zəruri deyildir. Bu mətləbə dəlalət edəcək hədislərdən birində deyilir:

İmam Musa Kazimin (ə) səhabələrindən biri ona müraciət edərək deyir:

- Bəziləri bığ tüklərinin və dırnaqların cümə günlərində qısaldılmasına təkid edirlər?!

İmam Kazim (ə) təəccüblənərək buyurur:

“Allah pak və münəzzəhdir! Onları istər cümə, istərsə də qeyri günlərdə qısaldıb təmizliyinizə diqqət yetirin”.

Lakin cümə günləri bığın və dırnaqların qısaldılması, ümumiyyətlə həmin gün təmizliyə riayət etməyin daha çox savabı vardır.

İmam Sadiq (ə) dırnaqların necə tutulması haqda buyurur: "Cümə günü dırnaqlarınızı tutduqda sol əlinizin kiçik barmağından başlayıb, sağ əlinizin kiçik barmağında qurtarın".

## 6. ƏTİRLƏRDƏN İSTİFADƏ

Nəql olunmuş hədislərdə möminlərə paltar və bədənlərinin səliqə və təmizliyinə diqqət yetirmələri ilə yanaşı, gözəl ətirlərdən istifadə etmələrinə də təkid olunmuşdur. Bu məzmunda nəql olunmuş bir çox hədislərdə möminlərin, ətirlərdən istifadə etməsi məsləhət görülməklə yanaşı, böyük savaba nail olacaqları haqda da danışılmışdır.

Peyğəmbər (s) buyurur:

"Ətir vurmaq peyğəmbərlərin gözəl adət - ənənələrindən olmuşdur".

İmam Rza (ə) buyurur:

"Peyğəmbərlərin gözəl xüsusiyyətlərindən biri də gözəl ətirlərdən istifadə etmək olmuşdur".

İmam Sadiq (ə) buyurur:

“Həqiqətən Allah gözəllik və zinətləndirməyi sevər, qəmginlik və qaraqabaqlığı xoşlamaz. Allah-taala Öz bəndəsinə nemət bəxş etdiyi zaman onun əlamətlərini Öz bəndəsində görmək istər. Onun qəmgin və qaraqabaq görməsini isə əsla istəməz”.

İmam Sadiqdən (ə) bunun necə olduğunu soruşduqda buyurur: “Paltarını təmizləyib, gözəl ətirlər vurmuş olsun və evinin divarlarını ağardıb tozunu alaraq səliqə-səhmana diqqət yetirsin. Həqiqətən gün batmazdan əvvəl həyəti işıqlandırmaq həm yoxsulluğa son qoyur, həm də ruzinin artmasına səbəb olur”.

O Həzrət (ə) başqa bir yerdə buyurur:

“Gözəl ətirlərə nə qədər pul xərcələsəniz, israfa yol vermiş olmazsınız”.





## BƏZİ ƏXLAQİ SİFƏTLƏR

İnsan mənəvi kamilliklərə çatmaq, təkamül zirvəsinə ucalmaq üçün öncə çirkin sifətlərdən uzaqlaşmalıdır. Bu proses “təxliyə” adlanır. Yalnız təxliyədən sonra əxlaqi fəzilətlərlə zinətlənmək olar. Belə bir zinətlənmə

"təhliyə" sayılır. Əgər mənzilimizdəki hovuza su tökmək istəyiriksə, əvvəlcə onun çirkabını təmizləməliyik. Hovuzdakı iylənmiş suyu təmizləmədən ona saf su tökmək mənasız bir işdir.

Şübhəsiz ki, ruh bədəndən ayrıldıqdan sonra cisim təbii olaraq çürüyür. Amma ölməz ruh yaşayır və onun hansı vəziyyətdə olması insanın aqibətini təyin edir. Əgər dünya həyatında insan öz ruhunu çirkin əxlaqla bulaşdırmışsa, axirət aləmində də əzab çəkir. Əksinə, dünya həyatında əxlaq əldə etmiş insan axirət dünyasında da şad-xürrəmdir.

Şübhəsiz ki, təxliyə və təhliyə proseslərindən keçmək üçün insan öncə çirkin və gözəl sifətləri tanımalıdır. Ruhu çirkinliklərdən təmizləmək və zinətləndirmək üçün belə bir tanışlıq qaçılmazdır. Uyğun ehtiyacı nəzərə alaraq hazırkı fəsildə çirkin və gözəl sifətlərdən bəzilərini yada salırıq:

## *1. Yalan*

Allah-taalanın insana verdiyi ən böyük nemətlərdən biri danışıq istedadıdır. İnsan danışıq vasitəsi ilə öz ehtiyaclarını dilə gətirir, istəklərini bildirir. Düşüncə və etiqadlar da dil vasitəsi bəyan olunur. İnsan dil vasitəsi

ilə dostlarla qəmini bölüşür, ruhunda bir yüngüllük yaradır. Ən sadə ünsiyyət vasitəsi olan dilin fəaliyyət dairəsi çox böyükdür. Dil vasitəsi ilə başqalarını sevindirmək, öyüd-nəsihət vermək, elm öyrətmək, barışıq yaratmaq mümkündür. Amma dil də başqa əşyalar kimi pis yolda istifadə edilə bilər. Necə ki, bıçaq həm xeyir, həm də şər yolda istifadə olunur. Bıçaqla həm zəruri ehtiyacları aradan qaldırmaq, həm də günahsız insanı öldürmək olar. Kiçik həcmli dil də insana çox böyük zərərlər gətirə bilər. Dilin kiçikliyinə aldanmamalıyıq.

Dilin insan üçün zərərlərindən biri yalan danışmaqdır. Yalan o qədər böyük günahdır ki, yalançı Allahın düşməni sayılmışdır. Dini rəhbərlər hətta zarafata yalan danışmağı qadağan edirlər. Çünki belə bir günah digər günahlar üçün qaynaqdır. İmam Baqir (ə) buyurur: "Allah-taala pislikləri qıfıllamışdır və həmin qıfılın açarı şərab içməkdir. Amma yalan danışmaq şərab içməkdən qat-qat pisdir."

Cəmiyyətin ən böyük qazanclarından biri onun fərdləri arasında qarşılıqlı etimaddır. Bu böyük sərmayəni puça çıxaracaq ən təhlükəli vasitə

dil və dilin yol verdiyi yalandır. Yalan insanların bir-birinə olan etimadını qırır, yalançıya kimsə hörmət göstərmir.

Çirkin sifət olan yalanın ziddi doğruçuluqdur. Yalan nə qədər çirkindirsə, doğruçuluq bir o qədər gözəldir. İmam Sadiq (ə) buyurur: “Dilini islah edən insanın əməlləri çiçəklənər.” Digər bir hədisdə imam buyurur: “İnsanların rüku və səcdələrinin uzunluğunu əsas götürməyin, bu iş adət də ola bilər. Əsas məsələ insanların doğruçuluğu və əma-nətdarlığıdır.”

## *2. Həsəd*

Ruhi və əxlaqi xəstəliklərdən biri də insanın həsədçiliyidir. Bu xəstəliyin müalicəsi olduqca zəruridir. Həsəd o qədər təhlükəli şeytani xasiyyətdir ki, Allah-taala öz Peyğəmbərinə (s) buyurur: “Ey mənim rəsulum! De ki, pənah aparıram Allaha... həsədçinin şərindən...” (Surə 113, “Fələq”, ayə 1-5)

İnsan Allah-taalanın bir şəxsə verdiyi nemətə müxtəlif cür münasibət göstərə bilər:

1. Arzu edər ki, Allah həmin neməti o şəxsdən alsın. Eyni zamanda özü həmin şəxsi o nemətdən məhrum etməyə çalışar. Bu çox pis bir haldır və həmin ruhiyyəyə həsəd deyilir. Bu çirkin xasiyyət səbəbindən insan özünü yaddan çıxarıb başqalarını məhv etməyə çalışır.

2. İnsan arzu edir ki, Allah həmin fərdə verdiyi nemətdən ona da versin. Belə bir hal "ğibtə" adlanır. Qibtə bəyənilmiş bir haldır. Çünki insan qibtə sayəsində fəallaşır. Qibtənin heç bir ictimai zərəri yoxdur. İmam Sadiq (ə) buyurur: "Mömin insan həsəd aparmır, amma qibtə edir. Münafiq isə qibtə etmir, həsəd aparır."

3. İnsan arzu edir ki, Allahın başqalarına verdiyi nemətdən yalnız onda olsun və Allah başqalarına verdiyini geri alsın. Belə bir şəxs Allahın ona ehsanından imtina edir. Uyğun hal paxıllıq sayılır. Paxıl insan yalnız özü üçün istəyir və başqalarının məhrumluğundan ləzzət alır. Həsəd və paxıllığın ziddi isar sifətidir. İsar əhli başqalarının nemətə çatmasından şadlanır, hamının nemət və asayiş içində olmasını istəyir, hətta öz ixtiyarında olanları başqalarına verməkdən ləzzət alır.

### *3. Təkəbbür*

Qurani-kərimdən və məsumların buyuruqlarından aydın olur ki, varlıq aləmində həyata keçmiş ilk günah təkəbbür və qürurdur. Allah öz mələklərinə insana səcdə əmri verdiyi vaxt İblis və Şeytan adı ilə tanınmış Əzazil özünü böyük sayıb təkəbbür göstərdi və Allaha itaətdən boyun qaçırdı. O dedi: "Mən oddan yaranmışam, insan isə torpaqdan. Deməli, mənim məqamım daha ucadır." Bu etirazına görə Əzazil Allah dərgahından qovuldu.

Hər birimiz İblisin aqibətindən ibrət götürüb, təkəbbür və qürurdan çəkinməliyik. İnsanın yaraşığı təvazö və sadəlikdir. Təkəbbür və qürur düşüncə sahibi olan insana yaraşmır. Belə bir ruhiyyə şeytani ruhiyyədir.

Həzrət Əli (ə) "Nəhcül-bəlağə"nin "Qasiə" xütbəsində təkəbbür və qüruru məzəmmət edərək buyurur: "Allahın İblislə rəftarından ibrət götürün. İblis altı min illik əməllərini və ibadətini bir saatlıq təkəbbürə görə əldən verdi. İblis uzun-uzadı ibadətlərindən sonra belə cəzalandırıldısa, kim bu günahdan yaxa qurtara bilər?! Xeyr, Allah bir günaha görə ki, iblisi behiştdən

qovub, həmin günaha yol vermiş insanı behiştə göndərməz. Səma və yer əhlinə münasibətdə Allahın hökmü eynidir.”

Həzrət Əli (ə) buyurur: “İnsanlarla təkəbbürlü davranıb lovğalanan insan zəlil olar.”

Təkəbbürün ziddi təvazö və sadəlikdir. Təvazökarlıq Allah və bəndələr qarşısında insanın məqamını yüksəldir. Təvazökar insan sevilir. İslamın tərəqqi səbəblərindən biri də məsum rəhbərlərin və onların yaxınlarının təvazökarlığı olmuşdur. Əziz Peyğəmbər (s) özü də başqaları kimi ümumi işlərdə iştirak etmiş, şəxsən tər axıtmışdır. Məclisdə heç vaxt başqalarından yuxarıda əyləşməmişdir. Belə ki, məclisə yenicə daxil olan qərib təyin edə bilməzdi ki, məclisdəkilərdən hansı peyğəmbərdir.

## *4. Yersiz qəzəb*

İnsan vücudundakı faydalı qüvvələrdən biri də qəzəbdir. İnsan qəzəb qüvvəsi sayəsində düşmən qarşısında müdafiə mövqeyi tutur. Bu xasiyyət Allahın nemətlərindən sayılır. Silahlı düşmənlə üzbəüz dayanmış insan

mərhəmət göstərsə məğlub olar, düşmən onun malına və namusuna təcavüz edər.

Demək, qəzəb qüvvəsi nəinki eyb deyil, hətta təkamülün başlanğıc nöqtəsidir. Amma ondan yerində istifadə edilməlidir. Məsələn, qaniçən və təcavüzkar düşmənə qarşı qəzəb müsbətdir, iman qardaşlarına qarşı qəzəb mənfidir. İnsan insanlıq həddini aşmayanlara münasibətdə mərhəmətli olmalı, onların nöqsanlarını bağışlamalıdır. Allah-taala Qurani-kərimdə Peyğəmbərin (s) yaxınlarını vəsf edərək buyurur: “Peyğəmbərlə olanlar düşmənlər qarşısında amansız, öz aralarında mehribandırlar.” (Surə 48, “Fəth”, ayə 29)

Müsəlmanlar bir-birləri ilə mehriban olmalı, qəzəblərini düşmənə yönəltməlidirlər. Həm güzəşt, həm də qəzəb insan həyatında ehtiyac duyulan xasiyyətlərdir. Amma mühüm nöqtə budur ki, bu iki zidd qüvvədən necə istifadə olunmalıdır? İstənilən bir yönümdə ifrata varmaq zərərdir. Demək, fərd və cəmiyyətə münasibətdə həm qəzəb, həm də mərhəmətdən yerində istifadə olunmalıdır.

Dini rəhbərlərdən nəql olunmuş iki hikmətli buyuruğu nəzərdən keçirək:

a) Həzrət Əli (ə): “Kobudluq bir növ dəlilikdir. Çünki belə rəftar edən sonda peşiman olur. Əgər peşiman olmasa onun divanəliyi davamlıdır.”

b) İmam Sadiq (ə): “Allah-taala qəzəbinə nəzarət edən insanın eyblərini örtər.”

Aydın məsələdir ki, qəzəblənmiş insan xoşagəlməz hərəkətlərə yol verə bilər. Amma uyğun məqamlarda qəzəbin udulması pisliklərin büruzə verilməməsi ilə sonuclanır.

Güzəşt vasitəsi ilə qəzəbə nəzarət, başqalarının büdrəmələrinə göz yummaq mənfi qəzəbin tam əksinə olan bir xasiyyətdir. Bir gün imam Kazimin (ə) xidmətçilərindən biri tələskənliyə yol verib əlində tutduğu sinidəki xörəyi imamın üstünə dağıtdı. İmam xidmətçinin bu hərəkətinə görə narahat oldu. Xidmətçi zirəklik göstərib təqvalıların qəzəbini udması ilə bağlı ayəni oxudu. İmam (ə) buyurdu: “Mən qəzəbimi uddum.” Xidmətçi sözünə davam edib başqalarının büdrəmələrinin bağışlanması haqqındakı ayəni oxudu. İmam (ə) buyurdu: “Mən sənin xətana göz yumdum.” Xidmətçi

ehsan edənlər haqqındakı ayəni oxudu. İmam (ə) xidmətçiyə müraciətlə buyurdu: “Səni azad etdim və filan bağı da sənə bağışladım.”

## *5. Özününümayiş və riyakarlıq*

İnsanın əməllərini dəyərdən salan bəlalardan biri onun özününümayiş etdirməsi və riyakarlığıdır. Riya dedikdə əməl zamanı başqa məqsəd güdmək nəzərdə tutulur. Bu çirkin xüsusiyyət insanın fərdi və ictimai əməllərinə mənfi təsir göstərir, onları dəyərdən salır. Bu sifətin ziddi ixlasdır. İxlas dedikdə saf və pak niyyət nəzərdə tutulur. Bəzən insan ibadət edərkən Allahın razılığını yox, insanların rəğbətini qazanmaq barədə düşünür. Belə bir hərəkət riyakarlıqdır. Riyakar insan daim çalışır ki, öz zahirini bəzəsin; o daim çalışır ki, vücudunda olmayan bir xasiyyəti qiyafəsi ilə nümayiş etdirsin. Riyakar insan daxilən başqa olsa da, zahirdə özünü dindar və insanpərvər kimi göstərir.

Həqiqətən də, riyakar insanların zahiri kafirlərin qəbirləri tək zinətlidir. Amma həmin qəbirlərin içində Allah qəzəbindən başqa bir şey yoxdur.

Məsumların uyğun mövzudakı bəzi buyuruqlarını nəzərdən keçirək:

a) İmam Əli (ə): “Əməlin paklığına və xalisliyinə diqqət onun özünü yerinə yetirməkdən çətindir.”

b) İmam Sadiq (ə): “İstənilən bir riyakarlıq və özünü nümayiş Allaha qarşı şirkdir.”

v) İmam Sadiq (ə): Peyğəmbərin (s) dilindən belə nəql edir: “Bəndənin əməlini mələklər yuxarı qaldırar. Mələk insanın yaxşı əməlinə görə sevinər. Amma bu əməl Allahın hüzuruna çatdırılan vaxt Allah buyurar: “Bu əməli cəhənnəm oduna atın. Çünki bəndəm onu mənim razılığım üçün yerinə yetirməyib.”

Riyakar insan əslində şirkə düçar olmuşdur və çoxlarına pərəstiş edir. O öz əməllərini zahirən bəzəməklə ətrafdakıları aldadır ki, onlardan bir şey qoparsın. O Allahdan qeyrilərinin mükafat vermək gücündə olduğunu düşünür. Bu səbəbdən də məsumlar vurğulayır ki, Allah bu qəbil insanları nəzərdə tutduqları şəxslərin yanına göndərər və “mükafatınızı onlardan alın” söyləyər.

Ey əzizlər, ey Allaha doğru hərəkət aşiqləri! Riyakarlıq bu yolda bitmiş tikan, maneədir. İnsan öz əməllərində ixlaslı olmaq üçün şeytani nəfs

istəkləri ilə ciddi mübarizə aparmalıdır. Xalis niyyət sözlə başa çatmır. Bir çox natiqlər ixlasdan dəm vurur, amma onların əməllərində söylədiklərinin zərrəcə təsdiqi tapılmır. Onlar öz zahirlərini o qədər bəzəyirlər ki, belə bir dəhşətli xəstəliyə düçar olduqları insanın ağlına da gəlmir.

Xalis niyyət və əməllərdə Allahın razılığının izlənilməsi hikmət və elmi insanın qəlbindən dilinə rəvan edir. Amma riyakarlıq və özünü nümayiş əməlləri puça çıxarır, riyakar fərdi insanların nəzərində alçaldır.

### *6. Başqalarının hörmətdən salınması*

İslam təlimlərinə əsasən, insanların abır-həyasını, şəxsiyyətini qorumaq çox mühümdür. Başqalarının qanını axıtmaq, onların malını qarət etmək kimi şəxsiyyəti alçaltmaq da çirkindir. İmam Sadiq (ə) buyurur: “Allah-taala möminin əleyhinə danışan, onun şəxsiyyətini sual altına almaq istəyən, onu alçaldan, xalqın gözündən salan şəxsi öz vilayət və yaxın məqamından xaric edər, şeytanın hökmü altına salar. Amma belə birisinə rəhbərliyi şeytan da qəbul etməz.”

İnsan fərdlər haqqında bildiyini ümumi yığıncaqlarda açıqlamaq haqqına malik deyil. Əgər bir insanda doğrudan da pis sifət varsa ona dostcasına xəbərdarlıq etmək, öyüd-nəsihət vermək lazımdır. Müsəlmanların eyblərini açıqlamaq, bu eybləri başqalarına çatdırmaq olmaz. Əslində ətrafdakıları öz əməllərimizlə pis işdən çəkindirməliyik.

Söhbətimizin bu məqamında insanların şəxsiyyətini hədəfə almış bəzi böyük günahları nəzərdən keçirək:

**a) Qeybət və böhtan:** Əgər bir şəxsdə müəyyən eyb varsa və həmin şəxs bu eybin açıqlanmasından narahat olarsa, həmin eybi başqalarına deməyimiz qeybətdir. Əgər bir şəxsdə olmayan sifəti başqaları ilə söhbətdə ona aid edəriksə, bu böhtandır. Qeybət və böhtan insan şəxsiyyətini alçaldan, onları hörmətdən salan iki günahdır. Qeybət edən şəxsə irad tutulduqda çox vaxt belə deyir: “Bu qeybət deyil. Mənim dediyim sifətlər həmin şəxsdə var.” Bu adam yaddan çıxarır ki, olan eybi dilə gətirmək qeybətdir. Əgər olmayanı dilə gətirsək, bu böhtan olar. Bəzən deyirlər ki, mən bu sözləri onun üzünə də söyləyirəm. Əgər qeybət edən şəxs dediklərini eyb sahibinin üzünə

deyirsə də, bu qeybət günahını yüngülləşdirmir. Deyilən söz haqqında danışılan şəxsi incidərsə, bu qeybətdir və ağır bir günahdır.

Allah-taala Qurani-kərimdə buyurur: “Bəziləriniz bəzilərinizin qeybətini etməyin. Sizlərdən elə biri varmı ki, ölmüş qardaşının ətini yeməyi xoşlasın? Şübhəsiz, bunu xoşlamırsınız.” ( “Hucurat”, ayə 12)

İmam Sadiq (ə) buyurur: “Mömin insan öz din qardaşını ittiham etdiyi vaxt onun qəlbindəki iman duz suda əridiyi kimi əriyib aradan gedir.”

**b) Xəbərçilik:** Böyük günahlardan biri də xəbərçilikdir. Bu günah dostlar arasında ayrılıq yaradır, eynən yalan kimi cəmiyyətdəki etibarı puça çıxarır. Bu ruhi xəstəliyə düçar olanlar müsəlmanlar arasında kin-küdurəti aradan qaldırmaq əvəzinə öz yersiz sözləri ilə onu daha da alovlandırırlar. Allah bəzən doğru sözə qəzəblənir. Bu həmin doğru sözdür ki, iki müsəlmanın arasında düşmənçilik yaradır. Allah bəzən yalanı bəyənir. Bu həmin yalandır ki, müsəlmanlar arasındakı kin-küdurəti aradan qaldırır. Bəzən xəbərçi şəxs aparıb-gətirdiyi xəbərlərə görə hədəfə alınır və həyatını əldən verir.

**v) Eyb axtarmaq və sirr açmaq:** Bəzi qəlbi xəstə insanlar başqalarında eyb axtarır, onların sirlərini açır. Onların məqsədi lazım gələn məqamda bildiklərindən istifadə etməkdir. İmam Sadiq (ə) buyurur: “İnsanı imandan çıxaran ən kiçik iş biri ilə dostluq edib, onun nöqsanlarını qeydə almaq və lazım gəldikdə həmin nöqsanları dilə gətirməkdir.”

Digər bir hədisdə imam Sadiq (ə) Peyğəmbərin (s) dilindən belə nəql edir: “Ey dildə müsəlmanlığı qəbul edən, amma qəlbində xalis iman olmayanlar! Müsəlmanları qınamayın, onlarda eyb axtarmayın. Əgər bir şəxs insanlarda eyb axtarsa Allah da onun eybini izləyər. Belə bir şəxs evindən çıxmasa belə Allah onu rüsvay edər.”

**q) Söyüş və təhqir:** İnsanlarla ünsiyyətdə təhqiramiz sözlər işlətmək arada kin-küdurət və düşmənçilik yaradır. Bu günah səbəbindən ictimai rabitələr zəifləyir. İmam Baqir (ə) buyurur: “Həqiqətən, Allah dili ilə təhqir edib, söyüş söyəni düşmən bilir.”

Müqəddəs İslam şəriəti insanların şəxsiyyətinin qorunmasına xüsusi diqqət yetirir və bu yönümdə günahlardan çəkindirir. İnsanlara xəyanət, onları məsxərəyə qoymaq, çirkin ləqəblərlə müraciət, pak insanları günahda suçlamaq, sui-zənn şəriətin qınadığı günahlardandır və ictimai rabitələri zəiflədir. Başqalarını hörmətdən salmaq, onların eyblərini açmaq, xəbərçilik necə pisdirsə, şəxsiyyəti qorumaq, insanları pis əməllərindən xəbərdar etmək bəyənilmiş əməllərdir. İstənilən bir halda insanların eybini cəmiyyət arasında dilə gətirməməliyik.

Əlbəttə ki, insanların şəxsiyyəti ilə bağlı günahlar və yaxşı əməllər təkcə qeyd etdiklərimiz deyil. Biz sadəcə kitabımızın həcmini nəzərə alaraq deyilənlərlə kifayətləndik.

## BÖYÜK GÜNAHLARDAN UZAQ OLUN!

Həddi-buluğa çatan hər bir müsəlmana vacibdir ki, islamda haram buyurulmuş əməllərdən, başqa sözlə günahlardan çəkinsin. Çünki bu əməllər insanın axirət əzabı görməsinə səbəb olandır. Əgər insan bunlardan çəkinərsə, həm Allahın əzabından amanda qalar, həm də axirətdə Allahın əbədi, misilsiz nemətlərlə dolu Cənnətinə daxil olar. Bu barədə Quranın Nisa surəsinin 31-ci ayəsində oxuyuruq: «Əgər siz qadağan olunmuş böyük günahlardan çəkinsəniz, biz də sizin qəbahətlərinizin ( kiçik günahlarınızın) üstünü örtər və sizi şərəfli bir mənzil olan Cənnətə daxil edərik».

Kitabın əvvəlində söylədiyimiz kimi günahlar həcmcə iki yerə (Böyük və kiçik olaraq) bölünür. Biz bu müxtəsər yazıda böyük günahların bir neçəsini qeyd etməklə kifayətlənirik:

1) Allaha şərik qoşmaq;
2) Oğurluq etmək;
3) Şərab içmək;
4) Qumar oynamaq;
5) Tərəzidə aldatmaq;

6) Yalan danışmaq;

7) Yalandan and içmək;

8) İsraf etmək (Nemətləri yerində istifadə etməmək);

9) Təkəbbürlü olmaq (Yekəxana olmaq, Özünü üstün tutmaq);

10 Qeybət etmək (Başqasının dalıyca danışmaq);

11) Allahın vacib etdiyi əməllərdən (Firui-dindən) birini tərk etmək;

12) Ata və ananın üzünə qayıtmaq və ya onlara qarşı hörmətsizlik etmək;

13) Yetim malını mənimsəmək;

14) Sələmçilik (faizlə pul almaq və ya vermək);

15) Rüşvət almaq və vermək;

16) Allahın rəhmətindən naümid olmaq;

17) Zina (kəbinsiz, qanunsuz cinsi əlaqə);

18) Adam öldürmək və ya intihar (cana qəsd) etmək;

19) Qət-i rəhm (Yəni qohum əqraba ilə əlaqəni, get-gəli kəsmək);

20) Əhdi sındırmaq;

21) Məzlumlara kömək etməmək;

22) Sehr və cadu ilə məşğul olmaq;

23) Həsəd aparmaq (Paxıllıq etmək);

24) Məsxərə etmək (lağa qoymaq);

25) Böhtan və iftira (Olmayan bir şeyi başqasının haqqında söyləmək);

26) Allahın nemətlərinə naşükür olmaq;

27) Murdar (ölmüş heyvan cəmdəyi), qan və donuz əti (və digər haram olan yeməkləri) yemək;

28) Qurana, məscidlərə, Peyğəmbərin (s), imamların (ə) qəbirlərinə və ziyarətgahlara hörmətsizlik etmək;

29) Bidət (Dində olmayan bir şeyi dinin adı ilə söyləmək);

30) Ləvat və Müsahəqə (Kişinin kişi və qadının qadın ilə cinsi əlaqədə olması);

31) İstimna (Cinsi əlaqə olmadan, spermanın xaric olmasına səbəb olan hər hansı bir işi görmək);

32) Xəyanət etmək;

33) Fitnə-fəsad törətmək;

34) Ara vurub söz gəzdirmək;

35) Nahaq barəsində hökm etmək və şəhadət vermək, və s..

***Diqqət:*** *Kiçik günahlar çox təkrar olunduqda böyük günaha çevrilir.*

## TÖVBƏ

***Tövbə etmək yəni insanın əməllərindən peşiman olub Allaha qayıtması mənasındadır. Günahkar olan hər bir müsəlman Allahın rəhmətindən naümid olmamalı, Allahın rəhmətinə ümidvar olub etdiyi günahlardan, gördüyü haram işlərdən peşiman olub tövbə etməlidir. Çünki Allah-taala tövbələri qəbul edəndir. Allah-taala Qurani-kərimdə belə buyurur: «Allahdan bağışlanmanızı istəyin. Həqiqətən, Allah bağışlayan və mehribandır». (Müzzəmmil,20)***

# ƏHKAM

## TƏHARƏT

Təharət bədənin paklığı deməkdir. Müsəlman olan hər bir kəs nəcasətdən pak olmalıdır. Təharət, yəni paklıq iki cəhətdən olur:

Hədəsdən pak olmaq; yəni o halda namaza yaxın ola bilmədiyin şeylərdən paklanmaq. Məsələn: Cənabət qüslu verməklə və ya əvəzinə təyəmmum etməklə qusuldan paklanmaq.

Xəbəsdən pak olmaq; yəni nəcasətin bədəndən təmizlənməsi. Məsələn: ayaq yolunda kiçik və böyük tualetin xaric olduğu yeri yuyub paklamaq.

Namaz qılanın bədəni və paltarı aləmlərin Yaradanına pərəstiş etməyin ən gözəl ifadəsi olan namazda pak olmalıdır.

## NƏCASƏT

Dünyada hər şey pakdır. Yalnız aşağıda verilmiş 11 şey nəcisdir və onlara toxunduqda pak şey də nəcis olur.

**1. Bövl (sidik); 2. Ğait (nəcis);** İnsanın və eləcə də əti haram olan heyvanın bövl və ğaiti nəcisdir. Lakin inək və qoyun kimi əti halal olanların bövl və ğaiti isə pakdır.

**3. Məni (sperma);** İstər cinsi əlaqə, istərsə də digər (anonizm kimi) əməllər nəticəsində xaric olan maye.

**4. Murdar;** (Quslu verilməmiş) Meyyit və şəriət qaydalarına uyğun kəsilməyən və ya özü ölmüş (sıçrayıcı qanı olan) heyvan murdar sayılır.

**5. Qan;** İnsanın və damarı kəsildikdə qanı sıçrayan heyvanların (qoyun, toyuq və s. kimi) qanı nəcisdir.

**6. 7. İt və donuz;** Quruda yaşayan it və donuzun bütün hissəsi (istər diri, istərsə də ölü olsun) nəcisdir.

**8; Şərab;** Məst edən spirtli içkilər.

**9. Pivə;** (Tərkibində spirt olan arpa suyu nəcisdir).

10. Kafir; Allahı, Peyğəmbəri, Allahın kitabını və Usulidini inkar edən insanlar.

11. Nəcasət yeyən dəvənin təri.

## PAK EDİCİLƏR

**Nəcasətlərdən pak edən şeylər ibarətdir:**

**1. Su;** Bir çox yerlərdə nəcisi fəqət su pak edir. Məsələn: Bövl və ğaiti, axan qanı, mənini və s.

**2. Yer;** Məsələn: nəcisə bulaşmış ayaqqabı yol getməklə nəcasətin əsəri aradan gedərsə pak olar. (Burada asfalt və digər süni düzəldilmiş yerlər istisna edilir)

**3. Günəş;** Rütubətli nəcisə maneəsiz saçıb bir dəfəyə qurutmaqla yeri, binanı və onda olan qapı pəncərələri pak edir.

**4. İslam;** Kafir bir şəxs kəlimeyi şəhadəti deyib islamı qəbul etməklə bədəni pak olar.

**5. Nəcasətin eyninin aradan getməsi;** Məsələn dişi fırçalayarkən damağın qanı ağız suyu ilə qarışıb itərsə ağızın içi pak olar.

Diqqət: Nəcis şeyləri pak etmək üçün əvvəlcə nəcasətin eynini aradan qaldırmaq lazımdır.

## Ayaqyolunun hökmləri

Ayaqyoluna gedərkən müəyyən şərtlərə əməl etmək lazımdır:

1. Yetkinlik həddinə çatmış insanın öz ayıb yerlərini yetkin insanlardan və yaxşını pisdən seçən uşaqlardan örtməsi vacibdir. Həmin şəxslər məhrəm olsa belə örtünmək lazımdır.

2. Ayaqyolunda insanın bədəninin ön hissəsi, sinəsi və ayıb yeri üzüqibləyə və ya arxası qibləyə olmamalıdır.

3. Sahibindən icazə almamış bir torpaq və ya mülkdə də bayıra getmək olmaz.

4. İnsan sidik və ya nəcislə bayıra getdikdən sonra onların ixrac olduğu yeri su ilə  paklamalıdır.

## *Müstəhəb əməllər*

1. Namazdan öncə, yatmazdan öncə, möhtəlim olduqdan (insandan məni xaric olduqdan) sonra kiçik tualetə getmək müstəhəbdir.

2. Ayaqyoluna gedərkən kimsənin görmədiyi yerdə oturmaq; imam Sadiq (ə) buyurur: “Loğmanın xasiyyətlərindən biri bu idi ki, kimsə onu ayaqyolunda görməmişdi.”

3. Tualetə daxil olarkən sol ayaqla daxil olmaq, çıxarkən sağ ayaqla çıxmaq;

4. Bayıra çıxarkən başın örtülü olması;

5. Bayıra çıxarkən bədənin ağırlığının sol ayağa salınması;

6. Kişilərin sidikdən sonra istibra etməsi. İstibra dedikdə xüsusi bir qayda ilə sidik kanalının təmizlənməsi nəzərdə tutulur. İstibra belə yerinə yetirilir: sidik kəsildikdən sonra əgər nəcis çıxacağı murdardırsa öncə onu paklamaq lazımdır. Sonra sol əlin orta barmağı ilə nəcis çıxacağından cinsi alətin kökünədək üç dəfə sığal çəkilir. Sonra baş barmaq alətin üzərinə, ona yanaşı barmaq alətin altına qoyulur və üç dəfə sünnət yerinədək sığal çəkilir.

Bundan sonra alətin başı üç dəfə sıxılır. Bu müstəhəb əməli yerinə yetirənlər əgər sonradan sidik kanalında rütubət hiss edərlərsə, o rütubətin murdar olmadığını qəbul etməlidirlər. Bu halda onların ayaqyolundan sonra aldıqları dəstəmaz batil olmur. Amma bir şəxs istibra etməyibsə, ayaqyolundan sonra yaranan rütubətin murdar olub-olmadığı bilinməyən halda sidik xaric olan yeri ikinci dəfə yumağı, ayaqyolundan sonra aldığı dəstəmazı təzələməlidir.

## QÜSULLAR

**İslam dinində olan vacib qusullar ibarədir:**

1. **Cənabət qüslu:** (Həm qadın, həm də kişi üçün);

Cənabət qüslü iki səbəbə görə alınır: BİRİNCİ, insandan məni (sperma) xaric olmaqla. (Bu istər yuxuda, istərsə də ayıq halda, istər az, itərsə də çox, ixtiyarlı və ya ixtiyarsız məni xaric olduqda). İKİNCİ, cinsi əlaqədə olmaqla. (Bu halda spermanın xaric olması şərt deyil).

2. **Heyz qüslu:** (Qadınlar üçün);

Qızlar adətən 9 yaşından sonra aylıq heyz Qanı görürlər. Heyz Qanı 3-gündən az və 10 gündən çox ola bilməz.

3. **İstihazə qüslu:** (Qadınlar üçün);

Qadınlarda olan qanın biri də istihazə adlanır. Bu çox az və orta hissələrə bölünür ki, bu haqda şəriət hökmləri kitabına (Tövzihul-məsailə) Baxa bilərsiniz.

4. **Nifas qüslu:** (Qadınlar üçün);

Bu halət qadınlarda uşaq doğuşundan sonra baş verir. Nifas qanı 10 gün olur.

***Diqqət:*** *Qadınlara aid olan qüsüllar qan qurtardıqdan sonra verilməlidir.*

5. **Meyyit qüslu:** (Qadın və kişi üçün);

Dünyadan getmiş hər bir müsəlmana meyyit qüsulu verilməlidir. Bu qüsl üç növ (sidr qatılmış, kafur qatılmış və xalis) sularla verilir.

6. **Məss-i meyyit qüslu:** (Həm qadın, həm də kişi üçün);

İnsan bədənini hər hansı bir hissəsini bədəni soyumuş və qüslü verilməmiş meyyitə vurarsa məss-i meyyit (meyyitə toxunma) qüslu verməlidir.

7. **Nəzr və a And qüslü:** (Qadın və kişi üçün);

İnsanın özü ilə Allahın arasında nəzri və ya andı olarsa, (Məsələn: bir işin düzəlməsi üçün qüsl etməyi nəzr edibsə) istəyi həyata keçdikdən sonra bu qüslü etmək vacibdir.

Diqqət: Saydığımız bütün qüsülların alınma qaydası eynidir. Fərq təkcə onların niyyətindədir.

## Qüslün alınma qaydası




Qüslün alınma qaydası iki cür olur:

**1. Tərtibi qüsl 2.İrtimasi qüsl.**

**Tərtibi qüslün alınma qaydası belədir:**

1)-ci Niyyət: «Filan qüslü edirəm qürbətən iləllah» sözlərini demək və ya qəlbdən keçirmək.

2)-ci Bədənin baş və boyun hissəsini yumaq.

3)-cü Bədənin sağ hissəsini yumaq. (Sağ çiyindən sağ ayağın barmaqlarına qədər).

4)-cü Bədənin sol tərəfini yumaq. (Sol çiyindən sol ayağın barmaqlarına qədər).

Cinsiyyət orqanları isə bədənin hər iki tərəfi ilə yuyulur.

***Diqqət:*** *Qüsl nəcasətin eyni aradan getdikdən sonra alınır.*

Qüslün suyu qüsl alan zaman bədənin tamam hissəsinə yetişməlidir.

**İrtimasi qüslün alınma qaydası belədir:**

Bu qüslü hovuzda və dənizdə almaq mümkündür. İrtimasi qüslü aldıqda əvvəl, niyyət edilir sonra, bədənin tamam hissəsi bir anda suyun altına salınır.

## Qüsullu adama bunlar haramdır

– Bədənin hər hansı bir üzvünü Quran ayələrinə, «Allah» kəlməsi yazılan və Allahın adlarını əks etdirən sözə toxundurmaq;

– Məscidul-hərama və Peyğəmbər məscidinə daxil olmaq, həmçinin oradan keçmək;

– Məscid və Peyğəmbər (s) və imamların (ə) ziyarətgahlarında dayanmaq;

– Hər hansı bir əşyanı məscidə qoymaq üçün ora daxil olmaq;
– Ayələrində vacib səcdə olan Quran surələrini oxumaq;

## TƏYƏMMÜM

***Aşağıdakı hallarda qüsl və dəstəmaz əvəzinə torpağa təyəmmüm edilir.***

1. Su olmadıqda və ya qüsl və dəstəmaza lazım olan həddə su tapılmadıqda;

2. Dəstəmaz və ya qüslün suyunu əldə etmək insan üçün əziyyətli olduqda;

3. Sudan istifadə etməyin bədənə ziyanı olduğu halda;

4. Özünün və ya başqalarının əldə olan suya ehtiyacı olan halda;

5. Bədənin və yaxud paltarın pak edilməsi üçün əldə olan suya ehtiyac olan halda;

6. Dəstəmaz və ya qüsl etmək üçün vaxtın az olduğu halda.

***Diqqət:*** *Təyəmmüm torpağa, kəsəyə, quma və daşa edilir.*

## Təyəmmümün alınma qaydası




1) Niyyət: «Dəstəmaz əvəzinə təyəmmüm edirəm və yaxud qüsl əvəzinə təyəmmüm edirəm qürbətən iləllah» Sözünü qəlbdən keçirmək. (niyyət etmək).

2) İki əllərin içini birlikdə təyəmmüm səhih olduğu şeylərə vurmaq. (Şək. 11)

3) İki əllərin içini alının tük bitən hissəsindən onun iki tərəfi daxil olmaqla aşağıya qaşların üzərinə və burunun yuxarı hissəsinə qədər çəkmək. (Şək. 12)

4) (Bir daha əllərin içini vurduqdan sonra) Sol əlin içini bütövlükdə sağ əlin üzərinə, biləkdən barmaqların ucuna qədər çəkmək. (Şək. 13)

5) Sağ əlin içini bütövlükdə sol əlin üzərinə, biləkdən barmaqların ucuna qədər çəkmək.

## YEMƏK VƏ İÇMƏYİN HÖKMLƏRİ

***"Ey iman gətirənlər! Sizə ruzi verdiyimiz pak nemətlərdən yeyin! Əgər yalnız Allaha ibadət edirsinizsə, Ona şükr edin."***

*(Bəqərə surəsi, ayə 172)*

**Bitki mənşəli yeməklər:**

Meyvə-tərəvəz və göyərtilərin insana zərəri olmadığı halda hamısı halaldır.

**Heyvan mənşəli yeməklər:**

***1 - Ev heyvanlarından:***

1- Əti halal olanlar:

- inək  - qoyun   - dəvə

2- Əti haram olanlar:

- it  - dovşan  - pişik və s.

***2- Vəhşi heyvanlardan:***

1- Əti halal olanlar:

- ceyran  - dağ keçisi

2 – Əti haram olanlar:

- Bütün növ yırtıcı heyvanlar: canavar, pələng və s. kimi

**Quşlar**

Aşağıdakı quşların əti halaldır:

- Bütün növ göyərçinlər (qumru da göyərçinlərdən hesab olunur).
- Bütün növ sərçələr (bülbül də bura daxildir).

- Toyuq və xoruz

**Aşağıdakı quşların əti haramdır:**

- Yarasa; - Qarğa; - Bütün növ caynaqlı quşlar, məsələn qartal, qırğı, kərkəs və s.

**Su heyvanları**

1– Su heyvanları içərisində yalnız pullu balıqlar və bir də təkcə qulaqlarının yanında pulları aşkar görünən balıq növləri halaldır. Pulsuz balıqlar sair dəniz heyvanları (balina, xərçəng, qurbağa və s.) kimi haramdır.

2– Halal balığın kürüsü halal, haram balığın kürüsü haramdır.



**Əti halal olan heyvanın bədəninin haram hissələri**

• Qan;
• Fəzlə (heyvanın nəcisi);
• Yumurtalıq;
• Cinsiyyət orqanı;
• Uşaqlıq;

• “Duşul” adlanan vəz;
• Donbalan deyilən yumurta (ağ ət);
• Kəllə beynində xüsusi formada noxudun yarısı qədər olan hissə;
• Onurğa sümüyünün içində olan haram beyin;
• Onurğa sümüyünün iki tərəfində olan piy;
• Öd kisəsi;
• Dalaq;
• Sidik kisəsi;
• Gözlərin bəbəyi

***Diqqət:*** *Ehtiyati-lazıma görə bu şeylərin haramlığı böyük heyvanlardadır. Amma kiçik heyvanlarda (məsələn sərçə kimi) bunların ayırd edilməsi mümkün olmasa, yeyilməsinin eybi yoxdur.*





**Heyvanın başının kəsilməsi və heyvan ovu**

Əgər əti halal olan heyvanın başını aşağıda deyiləcək qayda əsasında kəssələr – istər vəhşi olsun, istərsə ev heyvanı, can verdikdən sonra əti halal, bədəni pak olur.

## Heyvanın başının kəsilmə qaydası

Heyvanın başını kəsəndə hülqumu (nəfəs borusu), qida borusu və hülqumun iki tərəfində olan iki yoğun damar (bunlara "dörd damar" deyilir), boğazın altında olan çıxıntının alt tərəfindən tam, kamil şəkildə kəsilməlidir. Əgər onları deşsələr, kifayət deyil.

## Heyvanın başının kəsilməsindəki şərtlər:

1- Heyvanın başını kəsən şəxs – istər qadın olsun, istərsə də kişi – müsəlman olmalıdır.

2- Heyvanın başı dəmirdən olan şey ilə kəsilməlidir.

3- Heyvanın başını kəsəndə bədəninin qabaq tərəfi üzü qibləyə olmalıdır.

4- Heyvanın başını kəsmək istəyəndə, yaxud bıçağı onun başına qoyanda baş kəsmək niyyəti ilə Allahın adını zikr etməlidir. "Bismillah" demək kifayətdir.

5- Heyvanın başı kəsildikdən sonra gözünü, ya quyruğunu hərəkət etdirməklə, ya ayağını yerə vurmaqla olsa belə, çırpınmalıdır. Bu hökm

heyvanın diri olmasına şübhə olduğu haldadır. Əgər belə olmasa heç bir lüzum yoxdur.

6- Heyvanın başı şərii qaydaya əsasən göstərilən yerdən kəsilməlidir.

**Silah ilə ov etmənin hökmləri**

Əti halal olan vəhşi heyvanı silah ilə ovlasalar və ölsə, beş şərt daxilində əti halal və bədəni pak olar:

•Ov silahı bıçaq, qılınc kimi kəsici, yaxud nizə, ox kimi iti olmalı və itilik səbəbilə heyvanın bədənini parçalamalıdır. Əgər heyvanı tora salmaq, çubuq, daş və s. kimi şeylərlə ovlasalar (və ölsə) pak olmur, onu yemək də haramdır.

• Ov edən müsəlman, yaxud yaxşını-pisi başa düşən müsəlman uşağı olmalıdır.

• Silahı heyvanı ovlamaq üçün işlətməlidir. Amma başqa yeri nişan alsa və təsadüfən heyvana dəyib öldürsə o heyvan pak deyil, yeyilməsi də haramdır.

• Silahı işə salarkən Allahın adını deməlidir. Əgər qəsdən Allahın adını deməsə, ov halal deyil. Amma unutsa, eybi yoxdur.

• Heyvana çatanda ölmüş olsun, yaxud diri olarsa baş kəsmək miqdarında vaxt olmasın. Əgər baş kəsmək miqdarında vaxt olduğu halda heyvanın başını kəsməsə və ölsə, haramdır.

**Balıq ovu**

1– Əgər pullu balığı sudan diri tutsalar və sudan kənarda can versə pak, yeyilməsi də halaldır. Əgər suda ölsə pak, yeyilməsi isə haramdır. Amma əgər balıqçıların toruna düşüb suda ölsə, yeyilməsi halaldır.

2– Balığı tutan şəxsin müsəlman olması, onu götürən vaxt Allahın adını deməsi şərt deyil. Amma müsəlman kafirin balığı diri tutduğunu və sudan çöldə can verdiyini bilməlidir.

3– Sudan ölü, yaxud diri halda tutulması məlum olmayan ölü balıq müsəlmanın əlində olsa halaldır.

Yemək yeyəndə müstəhəb olan işlər

1- Yeməkdən qabaq əlləri yumaq;

2- Yeməkdən sonra əlləri yuyub dəsmalla qurulamaq;

3- Ev sahibinin hamıdan qabaq yeməyə başlayıb hamıdan sonra çəkilməsi;

4- Yeməyə başlayanda "bismillah" demək; amma əgər bir süfrədə bir neçə növ yemək olsa, hər birini yeməyə başlayanda "bismillah" demək müstəhəbdir.

5- Sağ əllə yemək;

6- Əgər bir neçə nəfər bir süfrənin başında otursa, hər kəsin öz qarşısındakı yeməklərdən yeməsi;

7- Tikələri kiçik götürmək;

8- Yeməyi təcili və tələsən halda yeməmək, yeməyi uzatmaq;

9- Xörəyi yaxşı-yaxşı çeynəmək;

10-Yeməkdən sonra Allaha həmd etmək;

11- Yeməkdən sonra dişləri yumaq; dişlərin dibində qalan yemək qalıqlarını çıxartmaq, ağzı yumaq, dişləri fırçalamaq.

12- Meyvələri və göyərtiləri yeməzdən qabaq yumaq.

**Yemək yeyəndə məkruh olan işlər**

1- Tox halda yemək;

2- Çox yemək;

3- Yemək yeyəndə başqalarına baxmaq;

4- Xörəyi qaynar halda yemək;

5- Yediyi, yaxud içdiyi şeyi üfürmək;

6- Süfrəyə çörək qoyulandan sonra başqa şeyləri gözləmək;

7– Meyvəni tam yemədən atmaq

## Su içməyin müstəhəbbatı

1- Suyu sovuraraq içmək;

2- Suyu içməzdən əvvəl "bismillah", axırda "əlhəmdu lillah" demək;

3- Suyu üç dəfəyə içmək;

4- Meyli olanda su içmək;

5- Su içəndən sonra imam Hüseyn (ə) və onun əhli-beytini yad edib, qatillərinə lənət göndərmək.

## Su içməyin məkruhatı

1- Çox su içmək;

2- Yağlı yeməklərdən sonra su içmək;

3- Qabın sınıq yerindən və dəstəyi olan tərəfdən su içmək.

# MƏSCİDƏ AİD QAYDA-QANUNLAR

Allah evi olan məscid hər bir müsəlman üçün müqəddəs və əzizdir. Müsəlman şəxs məsciddə namaz qılır, mənən saflaşır, ruhən rahatlıq tapır. İslam tarixinə nəzər saldıqda görürük ki, məscid təkcə ibadət məkanı olmamış, orada islam elmləri ilə yanaşı, həmçinin bir çox dünyəvi elmlərin tədris ocağı və müsəlmanların problemlərini həll etmək üçün müzakirələrin keçirildiyi bir mərkəz olmuşdur.

Bu səbəbdən də Qurani-kərimdə məscidin tikintisi və təmiri Allaha və qiyamətə etiqadlı möminlərin şəni olaraq tanıtdırılır. (“Tövbə”, ayə 18)

Amma məscidin zahirən tikintisi və təmirindən də mühümü ondakı mənəvi fəzanın yaradılmasıdır. Həqiqi mömin və din keşikçiləri bu fəzada tərbiyə olunur. Məscid insanların agahlıq və oyanışı, mühitin islahı üçün hərəkət mərkəzi olmalıdır. Cəmiyyətin ən fəal zümrəsi olan yeniyetmələr və gənclər məsciddə bir araya gəlməlidir. Məscid təkcə qocaların, təqaüdə çıxanların bir araya gəldiyi yer deyil.

Məscid tikmək, onu abadlaşdırmaq nə qədər dəyərlidirsə, onu uçurub-dağıtmaq da bir o qədər çirkindir. Qurani-kərim nəzərincə, məscidlərdə

Allahın adının çəkilməsinə mane olanlar, məscidləri viran qoymaq istəyənlər cəmiyyətdəki zalımlardan sayılır. (2, "Bəqərə", ayə 114)

Məscidin dağıdılması dedikdə təkcə onun tikilisinin uçurulması nəzərdə tutulmur. Bu əzəmətli ilahi mərkəzi rövnəqdən salan, Allah zikrini insanların qəlbində həbs edən hər bir addım yetərincə böyük zülmdür.

İslam məscidi böyük tutmağı, onu müqəddəs saymağı və məsciddə müəyyən qayda-qanunlara əməl etmək haqda bəzi göstərişlər vermişdir. Həmin qaydalardan bəzilərini aşağıda qeyd edirik:

- Məscidə gələn şəxs pak olmalıdır.
- Məscidə getməmişdən əvvəl gözəl, təmiz və yeni paltar geymək və xoş iyli ətir vurmaq.
- Məscidə sağ ayaqla daxil olmaq və oradan sol ayaqla çıxmaq.
- Məscidə daxil olarkən oradakı insanlara salam vermək.
- Məscidə daxil olduqdan sonra təzim əlaməti olaraq iki rükət namaz qılmaq.
- Məscidə əbəs, faydasız söhbətlərdən çəkinərək dua və Allah zikri ilə məşğul olmaq.

- Məsciddə gündəlik vacib namazlarını tək deyil, camaat şəklində qılmaq.

- Məscidin qonşuluğunda yaşayan şəxslər vacib namazlarını məsciddə qılmalı.

- Məscidin qapısı önündə dayanarkən Allahın əmrlərinə əməl edib qadağan etdiklərindən çəkinməli və mütilik hissləri duymaq.

Məsciddə müsəlmanlara dini təlimlər öyrətmək üçün İslamın əsaslarını açıqlayan kurslar təşkil etmək.

- Məscidə hörmətsizlik olan bütün nalayiq əməllərdən çəkinmək.

# ƏLAVƏ MƏNƏVİ BİLGİLƏR

## DUALAR

### RƏCƏB AYININ DUASI

***Bu dua Rəcəb ayında (Ramazandan 2 ay öncəki ayda) hər vacib namazdan sonra oxunması çox fəzilətlidir.***

***Bismillahir rəhmanir rəhim***
***Ya mən ərcuhu likulli xəyr, və amənə səxətəhu ində kulli şərr, ya mən yutil kəsirə bil qəlil, ya mən yuti mən sələh. Ya mən yuti mən ləm yəsəlh, və mən ləm yərifhu təhənnunən minhu və rəhməh, ətini biməsələti iyyak,***

***cəmiə xəyrid dunya və cəmiə xəyril axirəh, vəsrif ənni biməsələti iyyak, cəmiə şərrid dunya və şərril axirəh, fəinnəhu ğəyrumənqusin ma ətəyt, və zidni min fəzlikə ya kərim.***

*Sağ əlin işarə barmağını yellətməyə başlayaraq bu duanı oxu:*

***Ya zəl cəlali vəl ikram, ya zənnəmai vəl cud, ya zəl mənni vət təvl, hərrim şeybəti ələn nar.***

## ŞƏBAN AYININ DUASI

***Bu dua Şəban ayında (Ramazandan 1 ay öncəki ayda) hər vacib namazdan sonra oxunması sifariş olunur. Şaban ayı Peyğəmbər ayı kimi təqdim olunmuşdur.***

Bismillahir rəhmanir rəhim

***Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Şəcərətin nubuvvə, və məvziir risalə, və muxtələfil məlaikə, və mədinil ilmi, və əhli beytil vəhyi. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Əl fulkil cariə fil lucəcil ğamirə yəmənu mən rəkibəha və yəğrəqu mən tərəkəha əl***

***mutəqəddimu ləhum mariqun vəl mutəəxxiru ənhum zahiqun vəllazimu ləhum la hiqun. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Əlkəhfil həsin vəl ğiyasil muztərril mustəkin və məlcəil haribin və ismətil mutəsimin. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Səlatən kəsirətən təkunu ləhum rizən və li həqqi Muhəmmədin və ali Muhəmməd ədaən və qəzaən bi həvli minkə və quvvətin ya rəbbəl almin.Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd əttəyyibinəl əbraril əxyaril ləzinə əvcəbətə huquqəhum və fərəztə taətəhum və vilayətəhum. Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd vəmur qəlbi bi taətikə və la tuxzini bi məsiyətikə vərzuqni bi muvasatə mən qəttərtə ələyhi min rizqikə bima vəssətə ələyyə min fəzlikə və nəşərtə ələyyə min ədlikə və əhyəytəni təhtə zillikə. Və haza şəhru nəbiyyikə səyyidi rusulikə şəbanal ləzi həfəftəhu minkə birrəhməti vərrizvanil ləzi kanə rəsulul lahi səllallahu ələyhi və alihi yədəbu fi siyamihi və qiyamihi fi ləyalihi və əyyamihi buxuən ləkə fi ikramihi və izamihi ila məhəlli himamihi. Əllahummə fə əinna ələl istinani bi sunnətihi fihi və nəyliş şəfaəti lədəyhi. Əllahummə vəcəlhu li şəfiən muşəffəən və təriqən iləykə məhyəən vəcəlni ləhu muttəbiən hətta əlqakə***

*yəuməl qiyaməti ənni raziyən və ən zunubi ğaziyən qəd əvcəbtə li minkər rəhmətə vər rizvanə və ənzəltəni darəl qərari və məhəlləl əxyari.*

## MÜBARƏK RAMAZAN AYININ ÜMUMİ DUASI

***Hər vacib namazdan sonra oxunması çox fəzilətlidir.***

Bismillahir rəhmanir rəhim

***Ya Əliyyu ya Əzimu ya Ğəfuru ya Rəhim, əntər rəbbul əzimulləzi ləysə kəmislihi şəy, və huvəs səmiul bəsir, və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu,və şərrəftəhu və fəzzəltəhu ələş şuhur. Və huvəş şəhrulləzi fərəztə siyaməhu ələyy, və huvə şəhru rəməzanəlləzi ənzəltə fihil Qur'an, hudən linnasi və bəyyinatin minəl huda vəl furqan, və cəəltə fihi ləylətəl qədr, və cəəltəha xəyrən min əlfi şəhr, fə ya zəlmənni və la yumənnu ələykə munnə ələyyə bifəkaki rəqəbəti minən nar, fimən təmunnu ələyhi və ədxilnil cənnəh, birəhmətikə ya ərhəmər rahimin.***

***Əllahummə ədxil əla əhlil quburis surur. Əllahummə əğni kullə fəqir. Əllahummə əşbi kullə cayi. Əllahumməksu kullə uryan.***

***Əllahumməqzi dəynə kulli mədin. Əllahummə fərric ən kulli məkrub. Əllahummə ruddə kullə ğərib. Əllahummə fukkə kullə əsir. Əllahummə əslih kullə fasidin min umuril muslimin. Əllahumməşfi kullə məriz. Əllahummə suddə fəqrəna biğinak.***

***Əllahummə ğəyyir suə halina bihusni halik. Əllahumməqzi ənnəd dəyn. Və əğnina minəl fəqr. İnnəkə əla kulli şəyin qədir.***

***Diqqət:*** *Ramazan ayının hər gününün məxsus duası vardır. Bu haqda ramazana məxsus kitabçalarda və ya geniş dua kitablarına müraciət edə bilərsiniz.*

## İFTAR DUASI

***İftar edərkən qidanı qəbul etmədən öncə bu duanı oxuyuruq:***

"Əllahummə ləkə sumtu və əla rizqikə əftərtu və ələykə təvəkkəltu".
"Ya ğafirəl məğfirəti iğfirli"

## FİTR VƏ QURBAN BAYRAMININ NAMAZININ QILINMA QAYDASI

Bayram namazı iki rükətdir. Bu namaz doqquz qunutla belə qılınır: birinci rəkətdə həmd-surədən sonra beş təkbir deyilməli, hər təkbirdən sonra bir qunut tutulmalıdır. Beşinci qunutdan sonra isə bir təkbir deyib rükü və iki səcdəni yerinə yetirmək lazımdır.

İkinci rükətdə isə həmd surədən sonra dörd təkbir deyilməli, hər təkbirdən sonra bir qunut tutub beşinci təkbirdən sonra rükü, səcdəni yerinə yetirib təşəhhüd və salamı demək lazımdır.

Bayram namazının qunutunda hər hansı dua oxunsa, kifayətdir. Amma daha yaxşı olar ki, aşağıdakı dua oxunsun:

***«Allahummə əhləl kibriyai vəl əzəməti və əhləl cudi vəl cəbərut. Və əhləl əfvi vər rəhməti və əhlət təqva vəl məğfirəti əsələkə bi həqqi hazəl yovm. Əlləzi cəəltəhu lil musliminə iyda . və li Muhəmmədin səlləllahu ələyhi və alihi zuxrən və şərəfən və kəramətən və məzida. Ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd, və ən tudxiləni fi kulli xəyrin ədxəltə fihi Muhəmmədən və alə Muhəmməd. Və ən tuxricəni min kulli suin əxrəctə***

*minhu Muhəmmədən və alə Muhəmməd. Sələvatukə ələyhi və ələyhim. Allahummə inni əsəlukə xəyrə ma sələkə bihi ibadukəs salihun, və əuzu bikə mimməstəazə minhu ibadukəl muxləsun.*

**QURBAN DUASI**

***Qurban bayramında və ümumiyyətlə nəzir, ehsan və s. qurbanlarda qurbanlıq heyvanı kəsməmişdən öncə oxunan dua:***

Bismillahir rəhmanir rəhim

***Vəccəhtu vəchiyə lilləzi fətərəs səmavati vəl ərzə hənifən muslimən və ma ənə minəl muşrikin. İnnə səlati və nusuki və məhyayə və məmati lilləhi rəbbil aləmin. La şərikə ləh. Və bizalikə umirtu və ənə minəl muslimin. Əllahummə təqəbbəl minni kəma təqəbbəltə ən İbrahimə xəlilik. Və Musa kəlimik. Və Muhəmmədin həbibik. Səlləllahu ələyhi və alihi və ələyhim əcməin.***

## ZİYARƏTİ ƏHLİ QUBUR (Qəbir əhlinin ziyarəti)

***Ziyarət zamanı qəbir əhlinə ehtiram əlaməti olaraq qəbristanlığın girəcəyində üzü qəbristanlığa sarı oxunması sifariş olunur.***

Bismillahir rəhmanir rəhim

***Əssəlamu əla əhli la ilahə illəllah. Min əhli la ilahə illəllah. Ya əhlə la ilahə illəllah. Bihəqqi la ilahə illəllah. Kəyfə vəcədtuh qəvlə la ilahə illəllah. Min la ilahə illəllah. Ya la ilahə illəllah. bihəqqi la ilahə illəllah. İğfir limən qalə la ilahə illəllah. Vəhşurna fi zumrəti mən qalə la ilahə illəllah. Muhəmmədun rəsulullah. Əliyyun vəliyyullah.***

## SƏFƏR DUASI

***Səfərə çıxarkən oxunması müstəhəbdir. Səfərinizi Allaha dua ilə başlayaq ki, inşallah səfərimiz uğurlu olsun!***

***Bismillahi və billah. Və minəllahi və iləllahi və fi səbilillah. Əllahummə iləykə əsləmtu nəfsi. Və iləykə vəccəhtu vəchi. Və iləykə fəvvəztu əmri.***

*Fəhfəzni bihifzil imani min bəyni yədəyyə və min xəlfi və ən yəmini vən şimali və min fəvqi min təhti. Vədfə ənni bihəvlikə və quvvətik. Fəinnəhu la həvlə və la quvvətə illa billahil əliyyil əzim.*

## SÜFRƏ DUASI

***Bu duanı hüzür məclislərində ehsan daddıqdan sonra oxumaq sifariş olunur.***

Bismillahir rəhmanir rəhim

***Əlhəmdu lillahi rəbbil aləmin. Vəl aqibətu lil muttəqin. Əssəlatu vəs sələmu əla səyyidina və nəbiyyina Əbilqasimi Muhəmməd. Və alihit tahirin. Və lənətullahi əla ədaihim əcməin. Minəl anə ila qiyami yəvmiddin. Hənicən lil akilinə və bərəkətən lil bazilin. Və sihhətən və sələmətən lil hazirinə vəl calisinə və musafirin . Və rəhmətən li əmvatil hazirin. Əllahummə təqəbəl həsənatil muhsinin və itaməl mutimin. La siyyəma hazihil həsənəh . Və bəlliğ səvabəha ila ərvahi əmvati sahibil ihsan. Bihəqqi ayətil Qur'an. Və bi həqqi əsmaikəl husna. Və bihəqqi surətil mubarəkətil fatihəti məəssələvat.***

# MÜNDƏRİCAT

*Ümumi mövzular üzrə*

**MÜQƏDDİMƏ.................................................... 3**
**MÜSƏLMANLIĞIN İLK ŞƏRTİ.................................... 7**

**USULİ-DİN (DİNİN ÜSULLARI) .............................. 11**
**QURAN ............................................................ 54**

**FÜRUİ-DİN ....................................................... 64**
**GÜNDƏLİK NAMAZLARIN QILINMA QAYDASI .............. 69**

**ƏXLAQ............................................................ 100**

**ƏHKAM........................................................... 167**

**ƏLAVƏ MƏNƏVİ BİLGİLƏR .................................. 190**